

**«Yaşadığımız qloballaşma və informasiya əsrində azad söz və mətbuatın əhəmiyyəti getdikcə artmaqdadır. Mütərəqqi ənənələrə, milli və ümumbəşəri dəyərlərə malik Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi, bugünki müstəqil dövlət və azad vətəndaş cəmiyyəti quruculuğunda müstəsna rol oynayır.»**

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 15 mart 2003-cü il,*
*Azərbaycan Jurnalistlərinin*
*birinci qurultayına müraciətdən*

Tahir MƏMMƏDOV

# DEMOKRATİYA – MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASİ SİMASIDIR

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Elmi Şurasının 31 oktyabr 2008-ci il tarixli qərarı ilə (protokol №02) nəşr olunmağa tövsiyə edilmişdir.

«Elm və Təhsil» nəşriyyatı
Bakı – 2009

Elmi redaktor: **Seyfəddin QƏNDİLOV**
*tarix elmləri doktoru, professor, əməkdar elm xadimi*

Rəyçilər: **Qoşqar ƏLİYEV**
*fəlsəfə elmləri doktoru, professor*
**Məcid ƏFƏNDİYEV**
*fəlsəfə elmləri namizədi, dosent*

**T.T.Məmmədov.**
**Demokratiya – müasir Azərbaycan dövlətinin siyasi simasıdır. Bakı, «Elm və Təhsil» nəşriyyatı, 2009. – 176 səh.**

Bu kitab görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin banisi və qurucusu olduğu müasir Azərbaycan Respublikasının ictimai-siyasi həyatında dərinləşməkdə və formalaşmaqda olan demokratik prinsiplərin bərqərar olunmasından bəhs edir.

Üç fəsildən ibarət olan tədqiqat əsərində hüquqi dövlət quruculuğunun və vətəndaş cəmiyyətinin ən mühüm tərəfi sayılan demokratik və plüralist siyasi mətbuatın inkişafına əbədiyaşar Heydər Əliyevin bəxş etdiyi milli və ümumbəşəri dəyərlərin təsiri, əhəmiyyəti elmi aspektə araşdırılır.

4702000000 / N - 098 - 2009 *Qrifli nəşr*

© «Elm və Təhsil», 2009



**«Azad, demokratik mətbuat normal inkişafın əsas elementlərindən biridir. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur.»**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*«Respublika» qəzeti, 30 noyabr 2006-cı il*

## GİRİŞ

Çoxəsrlik Azərbaycan tarixinin elmi-siyasi səpgidə tədqiqi həmişə böyük maraq doğurur. Lakin həmin tarixin hər bir mərhələsinin elmi nöqteyi-nəzərdən araşdırılması özünəməxsusluq kəsb edir. Bu baxımdan XX əsrin ikinci yarısının Heydər Əliyevin rəhbərliyi və fəaliyyəti ilə bağlı olan Azərbaycan tarixinin xüsusi elmi tədqiqat obyektinə çevrilməsi, sosial-milli və siyasi həyatının öyrənilməsi nəzəri-praktiki tələbatdır. Siyasi liderlər əsri kimi mənalanan XX əsrin dünya şöhrətli böyük siyasətçisi Heydər Əliyevin dövlətçiliyimizin möhkəmləndirilməsi və təkmilləşdirilməsi, cəmiyyətimizin mənəvi həyatının yüksəlişi ilə bağlı fəaliyyətinin elmi-nəzəri tədqiqi bu gün xüsusi aktuallığı ilə səciyyələnir.

Cəmiyyətin bütün sferalarının inkişafında kütləvi informasiya vasitələri əhəmiyyətli spesifik rol oynayır. İnformasiya vasitələri sistemində mətbuatın, ilk öncə siyasi mətbuatın rolu daha böyükdür. Təsadüfi deyildir ki, siyasi elmə dair ədəbiyyatda siyasi mətbuatın mahiyyəti və məqsədinin öyrənilməsinə daim maraq artır. Əlbəttə, bununla bağlı siyasi mətbuatın təşəkkülü, formalaşması və inkişafı prosesinin elmi təhlili tədqiqatçıların diqqətindən yayınmır. Elə, Azərbaycan Respublikasında siyasi mətbuatın formalaşmasında və inkişafında





Heydər Əliyevin rolunun tədqiqat obyekti kimi seçilməsi də həmin zərurətin məntiqini təşkil edir.

Tədqiqat işində müasir Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin demokratik prinsiplərlə şərtlənən siyasi mətbuatın formalaşmasına və inkişafına bəxş etdiyi nəzəri-praktiki töhfə öz əksini tapıb və onun dövlətçilik fəaliyyətinin mətbuatda təcəssümünün rəngarəng siyasi çalarları araşdırılır.

Hələ sovetlər birliyi dövründə kütləvi informasiya vasitələrinə həmişə həssas yanaşan, qayğı göstərən Heydər Əliyev o zaman bildirirdi ki, «Azərbaycanda MK-nın birinci katibi kimi mən də azadfikirliliyimlə müəyyən dərəcədə, o vaxtın çərçivəsi daxilində fərqlənirdim. O vaxtlar korrupsiyaya, əxlaqa zidd hallara, cəmiyyətdəki bütün mənfi hallara qarşı mübarizə barədə mətbuatda qaldırdığım məsələlər onda partiya dairələrində heç də hər yerdə yaxşı qarşılanmırdı» (31, 495).

Bu fikirdən göründüyü kimi, yüksək dövlət və partiya vəzifəsində çalışmasına baxmayaraq Kremlin «nöqsanlar və çatışmazlıqlar keçmişin qalıqlarıdır, onları çox da qabartmamalıyıq», - xəbərdarlığına əhəmiyyət verməyən Heydər Əliyev hələ sovet totalitar cəmiyyətində belə açıq, obyektiv sözün, azad fikrin siyasi mətbuata nüfuz etməsinə çox vaxt özü şərait yaradırdı.

Heydər Əliyev 1988-1990-cı illərdə Azərbaycanın müstəqilliyinin nəzəri konsepsiyasını işləyib hazırladı. Onun qüdrətli siyasi fikirləri həmin dövrdə Azərbaycan mətbuatında öz əksini tapa bilməsə də «Sovet Gürcüstanı» qəzetində işıq üzü gördü. «Xalqı müdafiə etmək, xal-

qın mövqeyini müəyyənləşdirmək vaxtıdır» (4) deyən uzaqgörən siyasətçi «ortalığa atılan» Qarabağ probleminin məhz imperiya siyasəti ilə üzə çıxdığını cəsarətlə açıqlayırdı.

Müstəqilliyimizin kövrək illərində, mətbuatda siyasi plüralizmin ilk təzahürlərinə, azad, sərbəst siyasi qəzetlərin - «Azadlıq», «Ana torpaq», «Azərbaycan» kimi müstəqil mətbuatın yaranmasına sevinən Heydər Əliyev olmuşdur (29, 625).

Heydər Əliyev xalqımızın siyasi mübarizəsinin tərkib hissəsi olan kütləvi informasiya vasitələrinin sovet ideologiyasının təsirindən xilas olmasına əhəmiyyətli təsir göstərməklə müstəqil milli dövlət quruculuğu sahəsində siyasi fəaliyyətini genişləndirdi.

Təsadüfi deyil ki, 1991-ci il 9 fevral tarixli «Həyat» qəzetində verdiyi müsahibədə «Azərbaycana qayıtmağını vətənin ağır və çətin dövrdə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm» (35) deyirdi. O, müstəqillik uğrunda mübarizədə qələbənin rəhnini məhz mənəvi və fiziki səfərbərlikdə görürdü.

Böyük siyasətə yenidən qayıdan Heydər Əliyev «başqa yolumuz yoxdur» deməklə, demokratiyanı yeniləşən Azərbaycanın inkişafı və tərəqqisi yolu kimi seçməyi tövsiyə edirdi. Son nəticədə o, cəmiyyətimizi dünyanın sivill ölkələri sırasına qovuşdurdu.

Yeni Azərbaycanın ictimai-siyasi həyatında olduğu kimi, onun siyasi mətbuatında da Heydər Əliyev mərhələsi başladı.





Demokratiya və aşkarlığı, siyasi mətbuat Heydər Əliyev dövründə vətəndaş cəmiyyətinin göstəricilərindən ən mühümü kimi qiymətləndirdi. Heydər Əliyev tərəfindən mətbuata senzuranın aradan qaldırılması siyasi mətbuatın demokratikləşməsi yolunda qüdrətli amil oldu və beləliklə, demokratik siyasi təfəkkürün, azad fikirliliyin inkişafı üçün geniş imkan yarandı. Respublikadakı demokratik dəyişikliklər mətbuatda plüralizmin, açıq sözün, azad fikrin formalaşmasına, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti kimi inkişaf etdirilməsinə istiqamətləndi. Bütün bunlar siyasi tədqiqatların aparılmasına real və əlverişli zəmin yaratdı.

Siyasi elmə aid əsərlərin təhlili təsdiqləyir ki, respublikamızda siyasi mətbuat problemi tədqiqat obyekti kimi ayrılıqda kifayət qədər tədqiq edilməmişdir. Mətbuatın, xüsusilə siyasi mətbuatın formalaşması və inkişafında siyasi liderin (dövlət başçısının) rolu isə ayrıca tədqiqat obyektinə çevrilməmişdir.

Araşdırdığımız problem tədqiq etdiyimiz səpgidə ilk dəfə təhlil edilir. Bununla belə ümumilikdə problemin ayrı-ayrı məqamları ilə bağlı Azərbaycan alimlərinin müxtəlif aspektdə araşdırmaları nəzərə çarpır. Respublikamızda Heydər Əliyevin mətbuatla bağlı fəaliyyətinin müxtəlif istiqamətləri və məqamları müəyyən qədər öyrənilmişdir. Bu baxımdan görkəmli filosof, akademik Ramiz Mehdiyevin redaktorluğu ilə çap olunan 4 cildlik «Heydər Əliyev və mətbuat» kitabı xüsusilə diqqəti cəlb edir. Kitabda 1990-cı ildən 2003-cü ilədək olan dövrdə mətbuatımızın vəziyyəti, inkişaf problemləri və per-

spektivi ilə əlaqədar Heydər Əliyevin ictimai-siyasi dövlətçilik fəaliyyəti (məruzələri, çıxışları, müsahibələri, təklifləri və s.) dolğun səviyyədə açıqlanır. «Prezident Heydər Əliyevin jurnalistika dərsi» adlanan digər kitabda isə onun Azərbaycan jurnalistikasının inkişafına bəxş etdiyi töhfə, respublikamızda jurnalistikanın inkişaf problemlərinə dair müddəaları, mətbuatımızın təşəkkülü və formalaşmasında siyasi demokratiyanın əhəmiyyəti və digər əhəmiyyətli məsələlərə aydınlıq gətirilir. Tarix elmləri doktoru, prof. Seyfəddin Qəndilov Dövlət İdarəçilik Akademiyasının yaradılmasında Heydər Əliyevin xüsusi xidmətlərini nəzərə çatdırır. Fəlsəfə elmləri doktoru, prof. Qoşqar Əliyevin «Heydər Əliyev və milli mentalitet fəlsəfəsi» adlı monoqrafiyasında Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» konsepsiyasının mahiyyəti və əhəmiyyəti təhlil olunur, dövlətçilik və siyasi mentalitetlə bağlı onun mülahizə və mühakimələri mənalandırır. Məhərrəm Məmmədovun «III Respublika: Milli inkişaf modeli və strategiyası» adlanan digər monoqrafiyada Heydər Əliyevin siyasi və iqtisadi islahatlarının əhəmiyyəti və perspektiv dəyərləri, azərbaycançılıq konsepsiyası və s. məsələlər təhlil olunur. Siyasi elmlər doktoru Hicran Hüseynovanın tədqiqatında Avropa inteqrasiya prosesləri sisteminə Azərbaycanın qovuşmasında Heydər Əliyevin böyük xidməti açıqlanır. Məcid Əfəndiyevin «Siyasi elmin əsasları» adlı geniş həcmli kitabında kütləvi informasiya vasitələri siyasət sistemində məsələləri əhatəli araşdırılır, KİV-in siyasi funksiyaları və siyasətdə yeri, eləcə də onun hakimiyyət strukturları ilə qarşılıqlı əlaqəsi tədqiq edilir. Aydın Mirzəzadə tədqiq etdiyimiz problemin əhəmiyyət-





li aspektlərindən birini – Azərbaycan Respublikasında çoxpartiyalı sisteminin formalaşması xüsusiyyətlərini əhatəli araşdırır. Tədqiq etdiyimiz problemin bəzi məqamları, çap etdirdiyimiz bir sıra elmi məqalələrdə də öz əksini tapmışdır. Ümumiyyətlə, ölkəmizdə çap olunan fəlsəfi-politoloji mahiyyətli tədqiqat işlərində təhlil etdiyimiz problemin müxtəlif tərəfləri öyrənilsə də, respublikamızda siyasi elm səviyyəsində siyasi mətbuat anlayışının, onun təşəkkülü və inkişaf qanunauyğunluqlarının sistemli araşdırılmasına kifayət qədər cəhd edilməmişdir. Tədqiq etdiyimiz problem – Azərbaycan Respublikasında siyasi mətbuatın formalaşmasında və inkişafında Heydər Əliyevin rolu siyasi elmin problemi kimi indiyə qədər xüsusi təhlil obyektinə çevrilməyib və bu aspektdə həmin problemin araşdırılmasına ilk cəhddir.

Azərbaycanda siyasi mətbuatın formalaşması prosesinin ilk milli mətbuatımıza əsaslanmasının səciyyələndirilməsi və həmin prosesin təşəkkülü, təkmilləşdirilməsi, formalaşması və inkişafında Heydər Əliyev ideyalarının mərhələsinin mahiyyətinin və çoxcəhətli dəyərlərinin mənalandırılması təşkil edir.

Elmi araşdırmalarımızın əsas məqsədi ilk milli mətbuatımızın təşəkkülünün qanunauyğunluqlarını, onun sonrakı dövrlərdə - sovet məkanında ədəbi-bədii və siyasi mətbuatın formalaşmasına təsirini, müstəqillik dövründə Azərbaycan mətbuatının keyfiyyətcə yeni və çoxcəhətli inkişaf mərhələsinə qədəm qoymasının obyektiv tarixi zəruriliyinin mahiyyətini və siyasi mətbuatımızın inkişafında Heydər Əliyevin rolunu tədqiq etməkdən

ibarətdir. Bununla əlaqədar olaraq elmi əsərin məqsədi əsasən aşağıdakı konkret vəzifələrin elmi məhlilinə yönəlmişdir:

– Azərbaycanda ilk siyasi mətbuatın təşəkkülü qanunauyğunluqlarını araşdırmaq;
– Milli dirçəlişdə və milli özünüdərketmədə siyasi mətbuatın rolunu açıqlamaq;
– Yeni Azərbaycanda siyasi mətbuatın təşəkkülü və inkişafı xüsusiyyətlərini aydınlaşdırmaq;
– Azərbaycan siyasi mətbuatında Heydər Əliyev mərhələsinin mahiyyətini və milli dəyərlərini təhlil etmək;
– Azərbaycanda müstəqilliyin qərarlaşmasının siyasi mətbuatın daha da təkmilləşməsinə sistemli təsirini üzə çıxarmaq;
– Siyasi təsisatların, ilk növbədə dövlətin və eləcə də siyasi partiyaların, demokratik dəyərlərin siyasi mətbuatımızın formalaşmasına təsir mexanizmini müəyyənləşdirmək;
– Siyasi mətbuatın milli vətənpərvərlik ideologiyasının formalaşmaısnda əhəmiyyətini nəzərə çatdırmaq.

Tədqiqat işinin metodoloji bazasını siyasi elmdə qəbul olunmuş ümumi-xüsusi (elmi, müqayisəli-tarixi, sistemli yanaşma, struktur-funksional, empirik, siyasi modelləşdirmə və s.) metodları təşkil edir. Eləcə də ümummәntiqi metodlardan: müqayisə, induksiya, deduksiya və s. istifadə olunmuşdur.

Tədqiqat prosesində ölkə Konstitusiyasına, ümummilli liderimiz Heydər Əliyevin əsərlərinə, çıxış və nitqlərinə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərinə, eləcə də ölkəmizdə və xaricdə çap olunmuş dəyərli elmi tədqiqatlara, monoqrafiyalara, respublikamızın dövri mətbuatına istinad edilmişdir.





Bu kitab elmi araşdırma işi səviyyəsində ilk dəfə olaraq milli mətbuat və Heydər Əliyev məktəbi universal, sistemli aspektdə tədqiq edilmişdir;

– milli siyasi şüurun və milli özünüdərkin qərarlaşmasında siyasi mətbuatın spesifik rolu və əhəmiyyəti araşdırlımışdır;
– müstəqillik dövründə siyasi mətbuatın formalaşması və inkişafında Heydər Əliyevin fəaliyyətinin bütün dəyərli məqamlarının müqayisəli təhlilinə cəhd edilmişdir;
– respublikamızda demokratik siyasi prinsiplərin qərarlaşmasında, siyasi plüralizmin geniş təzahüründə Heydər Əliyevin rolunun milli mətbuatımızda keyfiyyətcə yeni, çoxcəhətli çalarların üzə çıxmasına istiqamətlənməsi tədqiq olunmuşdur;
– siyasi təsisatların (dövlətin və s.) siyasi mətbuatımızın milli-bəşəri dəyərlər ruhunda formalaşmasına təsirinin əhəmiyyətli məqamlarının müqayisəli təhlilinə səy göstərilmişdir.
– siyasi mətbuatın milli vətənpərvərlik ideologiyasının formalaşması və inkişafında rolu açıqlanmışdır;
– mətbuatda senzuranın Heydər Əliyev tərəfindən tamamilə ləğv edilməsindən sonra bütünlüklə KİV-də demokratik imkanların, müstəqil səmərəli fəaliyyətin geniş imkanları araşdırılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti ondan

ibarətdir ki, əsərdə istifadə olunmuş materiallardan və əldə edilmiş elmi nəticələrdən siyasi elmin xüsusi bölməsi olan «Siyasi şüur və siyasi mədəniyyət», «Siyasət nəzəriyyəsi» üzrə və eləcə də «Politologiya», «Sosiologiya» fənnlərinə dair mühazirələrdə və məşğələlərdə, bütövlükdə siyasi təsisatların, mətbuat işçilərinin fəaliyyətində, respublikamızda geniş yayılan «Heydər Əliyev Universiteti»nin məşğələlərində istifadə oluna bilər. Eyni zamanda tədqiq olunan problem aktuallığı baxımdan və əldə edilən müvafiq nəticələr nöqteyi-nəzərindən gələcəkdə bu istiqamətli nəzəri bazanın yaradılması və zənginləşməsi işinə müəyyən köməklik göstərə bilər.

Elmi kitabın yazılmasında qarşıya qoyulan məqsəd və vəzifələrdən çıxış edərək onun strukturu aşağıdakı kimi müəyyənləşdirilmişdir: giriş, 8 yarımbölmədən ibarət üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı.





**«Demokratiyaya etimad artdıqca kütləvi şüurun forması dəyişir, o, demokratik vərdişlərə və əqidələrə getdikcə daha çox istiqamətlənir.»**

**Ramiz MEHDİYEV**
***akademik***

**«Demokratiya yolunda: irs haqqında düşünərkən»**

Bakı. «Şərq-Qərb». 2008. səh.559

# I FƏSİL

# MİLLİ MƏTBUAT VƏ HEYDƏR ƏLİYEV SİYASİ MƏKTƏBİ

## § Azərbaycanda ilk milli siyasi mətbuatın təşəkkülü və inkişafı

Azərbaycanın ictimai-siyasi həyatının ayrılmaz hissəsi olan milli mətbuatımızın əsasının qoyulması 1875-ci ilə təsadüf edir. Həmin il iyulun 22-də «Əkinçi» adı ilə nəşr edilən qəzetin ilk nömrəsinin çapı bütün Qafqazda əks-səda doğurmuşdu. Düzdür, hələ «Əkinçi»yə qədər 1832-ci ildə «Tiflis əxbarı» adlı qəzet Azərbaycan dilində çap olunmuşdur. Hətta bəzi tarixi sənədlərə əsasən belə məlumatlar da vardır ki, 1832-ci ilin yanvarın 1-dən Tiflisdə tatar dilində (Azərbaycan dilində) qəzet nəşr olunmuşdur. Lakin milli mətbuatımızın banisi və naşiri, təbiətşünas alim Həsən bəy Zərdabi olmuşdur. İlk milli mətbuatımız olan «Əkinçi» qəzetinin nəşri və təbliğində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər Ağa Gorani kimi görkəmli yaradıcı ziyalıların da xidmətləri böyükdür.

Zəmanəsinin mütərəqqi fikirli şəxsiyyətləri olan bu maarifçi ziyalılar Azərbaycanda siyasi, demokratik mətbuatın təşəkkül tapmasında və inkişafında əhəmiyyətli rol oynamışlar. Onlar «Əkinçi» qəzetində elmə, təhsilə, biliyə yiyələnmək ideyalarını xüsusi səylə təbliğ edirdilər, ictimai-siyasi, ədəbi-bədii duyğu və düşüncələrin xalq arasında geniş yayılmasına əlverişli şərait yaradırdılar.

«Əkinçi» qəzeti tlk demokratik qəzet olmaqla ölkə-

də baş verən ictimai-siyasi proseslərə nüfuz edir, həmin hadisələrin obyektiv mahiyyətini üzə çıxarırdı.

Məhz bu ictimai-siyasi mövqedən çıxış edən qəzet özünün 7-ci nömrəsində (1876-cı il) yazırdı:

«Qəzet dərviş kimi nağıl deyə bilməz. Onun borcudur ki, işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nik-bədindən xəbərdar olub əlacının dalıncan olsun» (26).

«Əkinçi» qəzeti reallığı, həyatda cərəyan edən hadisələri düzgün əks etdirməyi və xalqa çatdırmağı özünün vəzifəsi və mənəvi borcu hesab edirdi.

Həsən bəy Zərdabi təhkimçilik hüququnu və qaydalarını mövcud quruluşun siyasi eybecərliklərini kəskin tənqid edirdi. Mənsub olduğu xalqa, vətənə sədaqətini və məhəbbətini qeyd edən Həsən bəy Zərdabi uzaqgörənliklə yazırdı: «Fikrim budur ki, Zərdab kəndində Qarabağın sərhədində bir daş qoydurub onun üstə zikr edilən həcvi qazdıram ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər ki, mən bu zəhmət ilə milləti-islami qəflətdən ayıltmaq istəyən bir vəqmdə neçə nadanlara rast gəlmişəm» (32, 19).

İlk azərbaycanlı darvinist alim, filosof olan Həsən bəy Zərdabi öz mətbu əsərlərində hamının başa düşdüyü tərzdə yazır, xalqın ictimai-siyasi şüuruna belə bir ideyanı çatdırmaq istəyirdi ki, doğrudan da «qəzet xalq, millət, camaat üçündür camaat qəzet üçün yaşamır».

«Əkinçi»nin səhifələrində (10 fevral 1877-ci il) belə bir yazı dərc olunmuşdu:

«Azərbaycan torpağı gücdən düşmüşdür, onu gücə salmaq üçün nə etmək lazımdır? Bunun üçün Mirzə Fətəli Axundova üz tutub deyirəm: Lazımdır ki, neçə nəfərin sizin kimi öz bədənini oda yandırıb, onun külü ilə bu yeri qüvvətləndirsinlər ki, sizin övladınız bu yerdən bəhrəyab





olsun» (27).

«Əkinçi» qəzetinin səhifələrində gələcək mətbuatımız üçün azad, açıq sözün, doğru və düzgün yazmağın təməli qoyulmuşdur. Azərbaycan mətbuatında demokratik düşüncə tərzinin ilk nümunələri məhz «Əkinçi» qəzetində əksini tapmışdır, demokratik bədii-siyasi fikrin rüşeymləri onun fəaliyyəti ilə bağlı olmuşdur.

Kommunist ideoloqlarının fikrincə, təşəkkül tapdığı vaxtdan sinfi xarakter kəsb edən mətbuat guya burjua cəmiyyətində xalq kütlələrini iqtisadi-siyasi, mənəvi cəhətdən əsarət altında saxlamaq vasitəsi olmuşdur.

Kommunist ideoloqiyasının banilərindən olan V.İ.Lenin (Ulyanov) mətbuatı «sosializm quruculuğunun silahı» adlandırmışdır.

O, «Nədən başlamalı?» məqaləsində siyasi qəzetin fəaliyyətinin mahiyyətini açıqlayaraq yazırdı: «Fəaliyyətimizin başlanğıc nöqtəsi, istədiyimiz təşkilatın yaradılması yolunda atılacaq ilk əməli addım və nəhayət, həmin təşkilatı daim inkişaf etdirmək, dərinləşdirmək və genişləndirmək üçün rəhbər tuta biləcəyimiz əsas xətt – ümumrus siyasi qəzetinin yaradılmasından ibarət olmalıdır».

Hələ 1905-ci ilin 16 aprelində siyasi mətbuat haqqında deyilmiş bu proqram xarakterli söz: «əsas xətt siyasi qəzetin yaradılmasıdır» müəyyən dövrlərdə öz tarixi əks-sədasını tapsa da, 1990-cı illərdə Sov.İKP MK orqanı olan «Pravda» və başqa siyasi qəzetlər də ideyaca iflasa uğradı.

Lakin hər hansı siyasi təşkilatın, partiyanın və siyasi birliklərin yaradılması və inkişaf etdirilməsi məqsədilə rəhbər götürülən başlıca xəttin uğurları üçün siyasi qəzetin mövcudluğunu və rolunu heç bir vəchlə danmaq olmaz. 56-cı nömrəsindən sonra 1877-ci ildə nəşri dayandı-

rılan «Əkinçi» qəzetindən sonrakı ictimai-siyasi olaylar, gündəlik qayğılar, problemlər Bakıda nəşr olunan rus dilli qəzetlərdə işıqlandırılırdı. Belə qəzetlərdən birincisi, ilkin olaraq (1871-ci ildə) üzə çıxan «Bakinski listok» adlanırdı.

İkinci rus dilli qəzet isə 1876-cı ildə nəşr olunan «Bakinskie izvestiya» idi. Belə qəzetlərin içərisində öz uzunömürlüyü ilə fərqlənən «Kaspi» qəzeti olmuşdur. (Həmin adla siyasi qəzet Azərbaycanda indi də uğurla nəşr olunur). Bu qəzetin nəşrini 1897-ci ildən Azərbaycan xalqının ən böyük xeyriyyəçisi və maarifpərvər oğlu Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüşdür. Neft milyonçusu, eyni zamanda əsl «millət atası» kimi ad-san qazanmış Hacı Zeynalabdin qəzeti öz şəxsi vəsaiti hesabına nəşr etdirmişdir.

Rus dilində nəşr olunmasına baxmayaraq «Kaspi» qəzeti «Əkinçi»nin ənənələrinə sadiq qalmışdır. Onun məqsəd və məramnaməsindən yan keçməmişdir. Həsən bəy Zərdabi irsini davam etdirərək «Əkinçi»nin demokratik dəyərlərinə, xüsusilə Həsən bəy Zərdabinin qəzetçilik fəaliyyətinə xoş məramla yanaşmışdır.

«Kaspi» qəzetinin 1887-ci ildə çıxan 125-ci sayında dərc edilən məqalə bu baxımdan daha xarakterikdir:

« - Ziyalı, həssas bir şəxs olan Həsən bəy Məlikov (Zərdabi) yerli əhalinin qolçomaqlardan ağır iqtisadi asılılığını dərk edərək, hər yerdə və hər cür əlverişli şəraitdə kəndlilərin hüquq və vəzifələrini təkid və səbrlə onlara başa salır ki, bu da müftəxorların və ümumiyyətlə, bulanıq suda balıq tutmağı sevənlərin hamısının xoşuna gəlmir. Həsən bəydən narazı olan adamlar onu Zərdabdan çıxarıb qovmaq üçün müxtəlif üsullara əl atır və bunun üçün hər cür alçaq vasitələrdən istifadə etməkdən belə çəkinmirlər» (42).





Böyük satirik şair M.Ə.Sabirin «bizim mənəvi atamız» adlandırdığı Həsən bəy Zərdabi, mətbuata xor baxanları, qəzetlərin nəşrinə əngəl törədənləri, xalqa, millətə zülm edən istismarçıları «Kaspi» qəzetində tənqid edərək yazırdı ki, «sən nə qədər dua oxuyursan, oxu, donuz öz xoşuna bostandan çıxmaz» (42).

«Kaspi» qəzetinin ilk redaktoru olan Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə çıxan yazılar xalqı əsarətdən xilas olmağa «kir və parazitlər içində olan, vərəmə, revmatizmə tutulmuş adamların, isti yuvalarda yaşayan adamlar tərəfindən istismar edilməsini» üsyankar ruhlu yazılarla qamçılayırdı (43). Həmin fikirlər Azərbaycan mətbuatında siyasi azadlığa çağırış kimi mənalanır və burada siyasi xarakterli mətbuatın təşəkkülünün ilk nümunələrini sezmək çətin deyildir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan mətbuatının sonrakı – sovet məkanında ilk siyasi mahiyyətli mətbuatımızın ənənələrinin daha əhatəli və dərindən inkişafında Heydər Əliyevin siyasi fəaliyyətinin əhəmiyyəti olduqca böyükdür.

XX əsrdə isə Azərbaycan dilində nəşr olunan ilk qəzet 1903-cü ildə Tiflis şəhərində çıxmışdır. İctimai-siyasi, iqtisadi, elmi, eləcə də ədəbi-bədii məzmunu ilə səciyyələnən bu qəzet «Şərqi-Rus» adlanırdı. Həmin qəzetin Azərbaycanın ictimai-siyasi fikir tarixinin inkişafında əhəmiyyəti, rolu və vətəndaşlıq mövqeyi tam kəskinliyi ilə nəzərə çarpır. «Şərqi-Rus» qəzetinin başlıca mövzusunu dünyəvi-bəşəri biliklərin təbliği, elm xəzinəsinə nüfuz etmə, ana dilinin təbliği və saflığı uğrunda mübarizə məqamları təşkil edirdi. Bununla yanaşı mühüm siyasi-əxlaqi məsələ olmaq etibarilə qadın azadlığına da xüsusi diqqət yetirilmişdir. Bütün bunlar mətbuatımızın sonralar mütərəqqi ictimai-siyasi və milli dəyərlərə malik ideyalarla zənginləşməsinə ciddi təsir göstər-

mişdir. Azərbaycanın maarifçi və vətənpərvər ziyalıları Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmkusar və Əli Nəzmi kimi istedadlı söz ustaları haqqında mülahizələr yürütdüyümüz qəzetin fəal müəllifləri olmuşlar. Məhz bu qəzet Cəlil Məmmədquluzadənin mütəfəkkir yazıçı kimi yetişməsində böyük, mütərəqqi rol oynamışdır.

Mirzə Cəlil öz yazıları ilə Azərbaycan mətbuatında demokratik bir cərəyanın təşəkkülünə istiqamət vermişdir. «Şərqi-Rus» qəzetinə cəlb olunan yaradıcı ziyalıların sıralarının genişlənməsi Azərbaycanda mətbuatın getdikcə tərəqqisinə təkan verməklə mətbuatımızda yeni mərhələnin başlanmasına real imkan yaratmışdır.

«Şərqi-Rus» qəzeti səhifələrində redaktor kimi püxtələşən Cəlil Məmmədquluzadə nəticə etibarilə 1906-cı il aprelin 7-də Tiflisdə Azərbaycanın ilk satirik jurnalının – «Mola Nəsrəddin»in nəşrinin əsasını qoydu.

Jurnalın 2 nömrəsi iki min tirajla çıxaraq tezliklə yayılmağa başladı. «Molla Nəsrəddin» jurnalında çap olunan kəskin xarakterli ictimai-siyasi fikirlər mürtəce hökumət dairələrini təşvişə saldı və jurnal müsadirə olundu. Üzeyir bəy Hacıbəyov «İrşad» qəzetində «Ordan-burdan» başlığı ilə çap etdirdiyi yazıda həmin müsadirənin yığcam şərhini verərək yazmışdır:

«İndi zavallı «Molla Nəsrəddin» dustaqdır. Həbsxanada oturub öz-özünə fikir edir: Əcəba ərbabi-hökumət bu qırmızı şeylərdən nə üçün belə hürkür?!».

1918-ci ilədək Tiflisdə çap olunan bu jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə isə Bakıda nəşr olunmuşdur.

Tərəqqipərvər ideyaların qızğın, yorulmaz təbliğatçısı olan «Mola Nəsrəddin» jurnalı müstəmləkəçilik, asılılıq, mütilik siyasətini kəskin, satirik qələmlə tənqid edirdi. Böyük demokrat Mirzə Cəlil millətimizin o vaxtkı geriliyini, insanların əl-qolunu, fikir və düşüncələrini bir növ buxovlayan mövhumatı da amansız satira atəşinə tuturdu. C.Məmmədquluzadə başlıca olaraq ana dilimizin qorunması, saflığı, yad, kənar sözlərdən təmizlənməsi istiqamətində mübarizə aparırdı.

«Molla Nəsrəddin»in cəsarətli çıxışları onunla nəticələndi ki, 1907-ci il iyunun 8-də Tiflis general-qubernatoru jurnalın bağlanması haqqında əmr verdi. Jurnala qarşı belə mürtəce münasibət xalqın narazılığına səbəb oldu. Bakıdan, Şəkidən, Zaqafqaziyanın bir sıra yerlərindən Tiflisə jurnalın nəşrinin bərpasını tələb edən məktublar gəlirdi» (80).

Bütün hücumlara, ədalətsizliklərə baxmayaraq, «Molla Nəsrəddin» Rusiyada, bütün türk dünyasında, hətta Yaxın və Orta Şərqdə əks-səda doğurdu.

Təbrizdə, Ərzurumda, İstanbulda, Qahirədə, Kərkükdə, Asiyada, Krımda özünə çoxlu oxucu qazanan «Molla Nəsrəddin» jurnalı artıq zəmanəsinin vacib siyasi olaylarının əsl tribunasına çevrilmişdi.

Jurnal xalqımızın milli siyasi şüurunun oyanması prosesinə dərin və dəyərli təsir göstərmişdir. Siyasi, demokratik mətbuatın yaradılmasının əsasını qoyan və onun qarşısında duran vəzifələrin həyata keçirilməsi yollarını müəyyənləşdirən Cəlil Məmmədquluzadə «mollanəsrəddinçilər» məktəbini yaratmışdır.

Mətbuatımızın uğurlu tarixi sayılan həmin dövr Azərbaycanda uşaqlar və valideynlər üçün «Dəbistan», «Rəhbər», «Məktəb» kimi jurnalların nəşri ilə də milli mətbuatımızın yaddaşına həmişəlik həkk olunmuşdur.

«Molla Nəsrəddin» jurnalının əhatə dairəsi yalnız

müəyyən mövzularla məhdudlaşmırdı. Maarifpərvər, xalqının qayğıları ilə yaşayan demokratik fikirli ziyalılar jurnalın ətrafına daha sıx toplaşırdı. Bu həm də ona görə daha mühüm əhəmiyyət kəsb edirdi ki, müəlliflər təkcə Azərbaycan millətinin nümayəndələrindən ibarət deyildi. Əsərləri milli koloritlə cilalanan Əzim Əzimzadə kimi rəssamla yanaşı əcnəbi fırça ustaları olan Oskar Şmerlinq, İosif Rotter də jurnalın rəssamlıq fəaliyyətində yaxından iştirak edirdilər.

Nəticə etibarilə «Molla Nəsrəddin»çilik böyük ictimai ədəbi hərəkata çevrilirdi. «Molla Nəsrəddin»çilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii publisistikasının zəngin irsinin mənimsənilməsi və təbliğində əhəmiyyətli rol oynadılar.

Azərbaycanın yaradıcı ziyalılarının fəallığı ilə «Həyat» (1905-ci il iyunun 7-də), Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadənin rəhbərliyi və Əlimərdan bəy Topçubaşovun maddi dəstəyi ilə «Füyuzat» (1906-cı ilin 1 noyabrında nəşrə başlamış, Əli bəy Hüseynzadənin mühərriyliyi və Hacı Zeynalabdin Tağıyevin şəxsi vəsaiti ilə) nəşr olunmuşdur.

«Təzə həyat» (1-ci nömrəsi 1907-ci ildə aprel ayının 1-də Nazim bəy Nəsirovun redaktorluğu, Hacı Zeynalabdin Tağıyevin naşirliyi ilə), «Şəlalə» (1913-cü il yanvarın 19-da ilk nömrəsi çıxmışdır. Müdiri və naşiri İsa bəy Aşurbəyli idi), «Açıq söz» (1915-ci ildə oktyabr ayının əvvəllərində Məhəmməd Əmin Rəsulzadənin baş mühərrirliyi ilə nəşrə başlamışdır), «Dirilik» (ilk nömrəsi 1914-ci ilin sentyabrın 16-da Əliabbas Müzinbin müdirliyi və Əbülfəz Mətləbzadənin dəstəyi ilə çıxmışdır) kimi qəzet və jurnallar milli mətbuatımızın tərəqqisində misilsiz rola malik olmuşlar.

XX əsrin əvvəllərində Azərbaycanda nəşr olunan





dövri mətbuat milli oyanış və özünüdərketmə proseslərində çox mütərəqqi rol oynamışdır. 1918-ci il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyətinin bütün siyasi və dövlət xadimlərinin lider kimi tanınıb formalaşmasında, onların siyasi fəaliyyətinin həyata keçirilməsində mətbuat geniş imkanlar açmışdır. Xalq Cümhuriyyəti dövründə «Azərbaycan» qəzeti gündəlik ictimai-ədəbi, iqtisadi, milli mətbu orqan kimi uğurlu fəaliyyət göstərmişdir.

Həmin qəzet 1918-ci il sentyabrın 15-də ilk dəfə Gəncədə nəşr olunmasına baxmayaraq, çox az sonra fəaliyyətini Bakı şəhərində davam etdirmişdir. Şəfi bəy Rüstəmbəyli və Ceyhun bəy Hacıbəylinin birgə nəşr etdikləri həmin qəzet Ceyhun bəy Parisə köçəndən sonra Üzeyir Hacıbəyov tərəfindən nəşr olunmuşdur. «Azərbaycan» qəzeti öz ətrafında (bu qəzet indi öz adı ilə müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət orqanı kimi nəşr olunur) görkəmli ziyalılardan, dövlət, hökumət, elm və mədəniyyət xadimlərindən ibarət müəlliflər toplamışdı.

Məhəmməd Əmin Rəsulzadə, Əhməd Həmdi, Qara Ağazadə, Məhəmməd Hadi, Seyid Hüseyn Sadiq, Həsən bəy Ağayev, Xəlil İbrahim, Ömər Faiq Nemanzadə, Mirzə Bala Məmmədzadə, Məhəmməd Ağaoğlu və başqaları demokratik mətbuat və onun qarşısında duran vəzifələrlə bağlı Azərbaycan xalqını cəhalət yuxusundan oyatmağa, milləti maariflənməyə çağırmışlar. Onlar mətbuatda əsasən adi, sadə dildə çıxış edir, ictimai-siyasi, hətta fəlsəfi baxışlarını asanlıqla anlaşılan, tez başa düşülən, sadə insanların fikir və düşüncələrinə uyğun tərzdə yazıb yaradırdılar.

«Azərbaycan» qəzeti zəngin və dolğun fəaliyyət proqramına malik olmuşdur. Qəzet siyasi, tarixi ictimai,

elmi, ədəbi-bədii mahiyyətli yazılarla yanaşı, ümummilli əhəmiyyətli sənədlərin dərc olunmasına xüsusi diqqət yetirirdi. Mətbuatın ictimai-siyasi ruhunu, fəaliyyət istiqamətini təhlil edərək Heydər Əliyev «Azərbaycan» qəzetinin 28 mart 2000-ci il tarixli nömrəsində yazırdı:

«XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri vardır. Məhz qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Mətbuat daha çox partiyalı, sinfi olsa da vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş və bu yolda bəzən təqiblərə də məruz qalmışlar» (14).

Həmişə mətbuatı yüksək dəyərləndirən, milli-mənəvi sərvətlərimizin qorunması qayğısına qalan ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Sovet dövrü mətbuatı haqqında daha sonra yazırdı:

«Xalq həyatının işıqlandırılmasında ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yol verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşmasında böyük rolu olmuşdur»( 3).

1920-ci ildən sonrakı dövrün mətbuat tariximizin ikinci mərhələsi adlandırılması tamamilə düzgündür. Sovet ittifaqı yarandığı zamandan etibarən hakimiyyət öz mətbuatına 70 ildən çox rəhbərlik etmişdir. Lakin totalitar sovet siyasi rejimi bu uzun dövr ərzində heç bir müstəqil qəzet, jurnal nəşr olunmasına yol verməmiş, onu «ideoloji çərçivədə» saxlamaqla ümumxalq mənafeyinin müdafiəçisi kimi təbliğ etdirmişdir. Maraqlıdır ki, hətta bəzən «Molla Nəsrəddin» jurnalı «Kirpi» jurnalı ilə müqayisə edilərək, sonuncu birincinin varisi kimi





qələmə verilmişdir. 1932-ci ildə yenidən təzahür edən «Molla Nəsrəddin» sovet ideologiyası ilə bir araya sığmadığı üçün öz nəşrini həmişəlik dayandırmağa məcbur olmuşdur. Azərbaycan publisistikasının janr rəngarəngliyi, deyim və üslub müxtəlifliyi şübhəsiz «Molla Nəsrəddin» jurnalistika məktəbinin ciddi təsiri ilə bağlıdır. Heç də təsadüfi deyil ki, Heydər Əliyev 1970-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə «Molla Nəsrəddin» jurnalının (12 cilddən ibarət olacaq) yenidən nəşrini vacib, son dərəcə əhəmiyyətli məsələ kimi gündəmə gətirmişdi.

1998-ci ilin aprel ayında «XXI əsr» jurnalının ilk nömrəsinə eksklüziv müsahibə verən Heydər Əliyevə 21 qeyri-adi suallarla müraciət olunmuşdu. Sonuncu sual belə idi: Ən çox sevdiyiniz jurnal?

Cavab: «Molla Nəsrəddin» jurnalı.

1950-ci ildən isə satirik xarakterli «Kirpi» jurnalı ilk saylarını oxuculara təqdim etdi. Satirik mahiyyətli olsa da «Kirpi» yenə kommunist partiyasının ciddi nəzarəti altında nəşr edilirdi. 1952-ci ildən etibarən müntəzəm nəşr edilən «Kirpi» jurnalında bəzən müstəqil, obyektiv xarakterli yazılar çap olunmasına baxmayaraq, bunlar bədii janr səviyyəsində və ünvansız tənqidlərlə oxucuya çatdırılırdı. 1970-ci illərdən sonra Azərbaycan mətbuatında müəyyən canlanma nəzərə çarpır. «Kommunist», «Bakinskiy raboçi», «Sovet kəndi», «Bakı» və «Baku», «Azərbaycan gəncləri», «Molodoj Azerbayjana», qəzetləri «Kirpi» və «Kənd həyatı» jurnalları bir qədər fəallaşaraq öz səhifələrində tənqidi yazılara meyl etdilər. Lakin bununla bağlı Kreml o zamankı Azərbaycan rəhbərliyinə tez-tez iradlar tuturdu. Həmin dövr haqqında Heydər Əliyev belə yazırdı:

«Qəzetlər tənqidi məqalələr dərc edirdilər. Onlar

həmin tənqidi məqalələrdə o dövrdə, o cəmiyyətdə çoxlu məsələlərin həll olunmasına kömək edirdilər. Mən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda hər gün səhər işə gələrkən qəzetləri oxuyurdum. Onda bu qədər qəzet yox idi, bir neçə qəzet var idi, amma həmin qəzetlərdə haranı oxuyurdum? Axtarırdım, görüm hansı tənqidi məqalə var. Bir tənqidi məqalə olan kimi mən həmin qəzetin redaktoruna telefon edirdim. Nə üçün? Çünki o vaxt belə tənqidi məqalələr dərc etmək qorxulu idi» (54, 30).

Qorxulu cəhət bundan ibarət idi ki, tənqidi məqalələr çap olunan kimi ona dərhal reaksiya verilirdi, çəkişmələrdə bəzən müəllif də təzyiqə məruz qalırdı, tənqid obyektinə düşənlər isə hakimiyyət tərəfindən ciddi şəkildə cəzalandırılırdı.

1970-ci ildə Azərbaycan mətbuatında, Sovet İttifaqında rüşvətxorluğun mövcud olduğunu ilk dəfə cəsarətlə bildirən məhz Heydər Əliyev oldu. Bununla bağlı onun çıxışları xarici radiostansiyaların efirlərində bəzən bütün dünyaya yayılırdı. Təbiidir ki, bu, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin nəzərindən qaça bilməzdi. Elə buna görə də Azərbaycanda yenicə rəhbərliyə başlayan Heydər Əliyevə Kremlin yüksək vəzifəli məmurları təzyiqlər edirdilər. Onlar SSRİ-də rüşvətxorluğun mövcudluğunu etiraf etmək istəmirdilər.

1999-cu il dekabrın 5-də Heydər Əliyev Rusiya jurnalistləri ilə görüş zamanı özü bu barədə demişdir:

«Azərbaycanda MK-nın birinci katibi kimi mən də azadfikirliliyimlə müəyyən dərəcədə, o vaxtın çərçivəsi daxilində fərqlənirdim. O vaxtlar korrupsiyaya, əxlaqa zidd hallara, cəmiyyətdəki bütün mənfi hallara qarşı mübarizə barədə qaldırdığım məsələlər onda partiya dairələrində heç də hər yerdə yaxşı qarşılanmırdı. Çünki o





vaxtlar bir müddəa mövcud idi: cəmiyyətimizdə mənfi nə varsa, hamısı keçmişin qalıqlarıdır və biz onları qabartmamalıyıq. Ona görə də mənim açıq çıxışlarım, məruzələrim, məqalələrim cəmiyətdə çox böyük maraq doğururdu, ancaq eyni zamanda bunlar partiya rəhbərliyimizdə heç də həmişə bəyənilmirdi» (29, 312).

Heydər Əliyev isə azadfikirliliyi ilə fərqlənən rəhbər kimi, bütün təzyiqlərə baxmayaraq, Sovet İttifaqı Kommunist Partiyasının tam nəzarətində olan Azərbaycan mətbuatına imkan daxilində həqiqəti yaymağı, doğru-düzgün məlumatlar verməyi öyrədirdi. Cəsarətli, tənqidi yazılardakı faktları araşdırır, günahkarları, başqalarının hesabına varlanmaq istəyənləri haqlı olaraq cəzalandırırdı. Belə cəzalar əslində insanların siyasi əxlaqının, mənəviyyatının saflaşmasına istiqamətlənən amil idi.

Sovet dövrü mətbuatındakı ideoloji buxovların mövcudluğunu qeyd edən Heydər Əliyev vətənpərvər jurnalistlərin məhz həmin dövrdə də milli şüurun və özünüdərkin formalaşmasına təsir etdiklərini obyektiv səviyyədə qeyd etmişdir. Belə qiymətləndirmə milli mətbuatımızın ideoloji çərçivədən qismən yayınmasına imkan yaradırdı. 1970-80-ci illərin mətbuatında kommunist ideologiyasında mətbuata ciddi nəzarətə baxmayaraq vətənpərvər ziyalılar Həsən Bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Əli bəy Hüseynzadə ənənələrini davam etdirməkdən çəkinməmişlər. Mətbuatımızın uğurlu fəaliyyət sferası genişlənmiş, yeni qəzet-jurnallar meydana gəlmiş, radio və televiziya jurnalistikası təşəkkül taparaq inkişaf etmişdir.

Məhz həmin illərdə «Ulduz», «Qobustan» kimi çox oxunan yeni milli ruhlu jurnallar nəşr edilmişdir. Bu ictimai-siyasi, ədəbi-bədii toplularda çap olunan yazılar

milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsinə, ana dilimizin yad, xarici sözlərdən təmizlənməsinə, saflaşdırılmasına uğurlu təsir göstərmişdir. Təəssüf ki, belə qayəli mətbuat orqanları çox az idi.

Bununla belə Əhməd bəy Ağaoğlu Türkiyədə çıxan «Axın» qəzetində, «Kültür həftəsi» və «İnsan» jurnallarında elmi-siyasi publisistik fəaliyyətini davam etdirirdi. Əsasən Azərbaycan iqtisadiyyatı ilə bağlı sosial-siyasi, fəlsəfi və hüquqi məzmunda məqalələri ilə çıxış edirdi (55, 103).

1920-ci ildə Azərbaycan Demokratik Respublikası Sovet qoşunları tərəfindən işğal olunduqdan sonra, xarici ölkələrə mühacirət edən Azərbaycanın mütərəqqi fikirli, azad düşüncəli ziyalıları müstəqillik ideyalarını xarici ölkələrdəki siyasi mətbuatda yaymağa, bu istiqamətdə təbliğata başladılar.

Türkiyə və Almaniyada Azərbaycanın mühacirət mətbuatı sayılan «Odlu yurd», «Birləşik Qafqaziya» (Qafqaz istiqlal komitəsinin orqanı kimi hər ay, 3 dildə – türk, ingilis və rus dillərində) nəşr olunmuşdr ki, onun da redaktoru A.Qantemir olmuşdur.

Türkiyəyə Azərbaycandan mühacirət etmiş ziyalıların siyasi müstəqillik ruhlu yazılarını ən çox çap edən «Azərin türk» (1928-ci il fevralın 1-dən nəşrə başlamışdır) jurnalı olmuşdur ki, onun da məsul müdirliyi Məmməd Sadiqə məxsus idi.

XX əsrin sonuncu onilliyində Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra, həmin yaradıcı ziyalıların bəzi əsərləri, «mühacirətdə qalan» milli-siyasi və ədəbi-bədii ədəbiyyat nümunələri ölkəmizdə nəşr olunmağa başladı.

Əkrəm Əylislinin rəhbərlik etdiyi «Azərbaycan» jurnalı sovet dövründə müəyyən mənada dissident jurnal





kimi fəaliyyət göstərirdi. Ciddi senzuraya məruz qalan jurnalın iki illik fəaliyyətini sərt mövqedən tənqid edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı «Kommunist» qəzeti «Qayğı və tələbkarlıq» adlı yazısında qeyd edirdi ki, «haqqında danışdığımız və bu qəbildən olan əsərlərin müəlliflərinin səhvi onda deyil ki, müasir həyatın qüsurlu cəhətlərinə diqqəti cəlb etmişlər. Səhv onların varlığın kölgəli cəhətlərini göstərərkən rəngləri heç bir əndazəyə sığmayacaq dərəcədə qatılaşdırmalarında, təsvir obyektinə birtərəfli, yanlış münasibətlərində, antipodlara qarşı tutduqları mövqedə məhz qətiyyətin, ardıcıllığın və mübarizliyin çatışmamasındadır. Bu müəlliflər belə bir acı həqiqəti unudurlar ki, əsl yazıçının fəal vətəndaş mövqeyi təkcə çatışmazlıqları göstərməkdə, mənfiliklərə nifrət oyatmaqda deyil, həm də və daha çox uğurlu əməllərə, nəcib insanlara, işıqlı fikirlərə, gözəl duyğulara məhəbbət təlqin etməkdə özünü aydın surətdə büruzə verir» (44, 3). Əlbəttə, bu yazının məzmunundan aydın olur ki, sovet siyasi mətbuatı kommunist ideologiyasının çərçivəsindən uzaqlaşıb milli dəyərlərə söykənən mətbuatın fəaliyyətini yol verilməz hesab edirdi. «Mətbuatda Dövlət Sirlərini Mühafizə Edən Baş İdarə (QLAVLİT) hər sözə, hər bir fikrə dərindən müdaxilə edirdi. Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsi mətbuatı yalnız xalqı, milləti «zərbəçi əməyə» səsləyən göstərişlərlə silahlandırırdı.

1990-cı illərdə ölkəmizin ictimai-siyasi məkanında ilk müstəqil mətbuatın təzahür etdiyi vaxta qədər qəzet və jurnallarda kommunist ideologiyasının hökmranlığı davam edirdi. 1989-cu il dekabr ayının 24-də Azərbaycanda ilk müstəqil, müxalifət orqanı olan «Azadlıq» qəzeti çap olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 21 iyul 2000-ci ildə Azərbaycan

Milli Mətbuatının yaradılmasının 125 illiyi münasibətilə Respublika jurnalistləri ilə görüşündə bu münasibətlə etdiyi çıxışında demişdir:

«Mənə müraciət edənlərdən birinci növbədə çıxış etmək istəyənlər var. Məsələn, hesab edirəm ki, «Azadlıq» qəzetinin redaktoru Gündüz Tahirliyə birinci söz vermək lazımdır. Çünki, birincisi, o, təşəbbüskardan biridir, ikincisi də, ola bilər mən bunu sonra dedim, - «Azadlıq» qəzeti Azərbaycanda 1990-cı ilin əvvəllərində yaranmış ilk, azad, sərbəst bir qəzetdir. O vaxt onun yaranması məni sevindirmişdi. Mən o vaxt həmin qəzeti oxuyurdum» (54, 38).

Azərbaycanda azad, müstəqil, sərbəst siyasi qəzetin, mətbuatın yaranmasını alqışlayan, heç bir ictimai-hüquqi təşkilatdan asılı olmayan mətbuatı izləmək həvəsində olan Heydər Əliyev ömrünün sonuna qədər obyektiv ruhlu azad mətbuatı, açıq sözü, sərbəst düşüncə təsirini birmənalı şəkildə müdafiə etmişdir. Bu ondan irəli gəlir ki, ümummilli lider Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində azad siyasi mətbuatın rolunu dərindən dərk edib qiymətləndirirdi.

«Molodoj Azerbayjana», «Elm», «Odlar Yurdu» kimi qəzetlərdə də obyektivlik, hadisələrə düzgün yanaşma aydın surətdə nəzərə çarpırdı.

Respublikamızın ilk müstəqil qəzetlərindən sayılan «Azərbaycan» qəzeti də (ilk nömrəsi 1989-cu il oktyabrın 18-dən çıxıb) demokratik fikirli milli dəyərlərin təbliğinə xüsusi diqqət yetirən mətbuat sisteminin komponentlərindən biri kimi mənalandırılmalıdır.

Azadlıq uğrunda mübarizəyə başlayan xalqımız üçün müstəqilliyimizin əldə olunması heç də asan başa gəlmədi. Azərbaycanı informasiya mühisirəsində saxlamaq məqsədilə Sovetlər ittifaqının rəhbərliyi hiyləgər





planlar və üsullara əl atdı. Xalqımızın tarixi yaddaşına həmişəlik həkk roan qanlı 20 yanvar hadisəsi buna aydın misaldır. Törədilən faciəni ört-basdır etmək üçün Azərbaycan Televiziyasının enerji bloku partladıldı, qəzetlərin hamısının nəşri dayandırıldı. İnformasiya mühasirəsinə məruz qalan Azərbaycan xalqının son ümidi yalnız Amerikanın «Azadlıq» radiosu idi.

Baş verən hadisələri, tarixi həqiqətləri qəsdən təhrif edən Moskvanın «Moskovskaya tribuna», «Moskovskie novosti» qəzetləri «Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ» münaqişəsində qərəzli mövqedən çıxış edirdilər.

Yalnız 25 yanvar 1990-cı il tarixdə 2 milyon tirajla çıxan «Səhər» qəzeti 20 yanvar faciəsinin qismən də olsa dünyada yayılmasına nail ola bildi.

Bir neçə ildən sonra öz müstəqilliyini əldə edən Azərbaycan Respublikası 1992-ci ildə «Kütləvi İnformasiya Vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, cəmi iki il müddətində 600-dən çox qəzet, jurnal, informasiya agentlikləri qeydiyyatdan keçdi. Lakin hələ də mətbuat, söz azadlığı üzərində senzura hökm sürürdü. Müharibə gedən ölkə mətbuatında hərbi senzura olmalıdır fikri əsas götürülərək bu senzura 15 mart 1992-ci ildən etibarən televiziya, 2 aprel 1993-cü ildən isə mətbuat üçün tətbiq edilmişdi.

Məlum olduğu kimi, mətbuatın, eləcə də digər kütləvi informasiya vasitələrinin, agentliklərin müstəqilliyi onların mənsub olduqları ictimai təşkilatların müvafiq formaları tərəfindən təmin edilir. Üç əsas formaya - xüsusi (kommersiya), dövlət və ictimai hüquqa malik olan mətbuatın fəaliyyəti həmişə mövcud olmuşdur. Kommersiya təşkilatlarının «mənəm-mənəm» dediyi ölkələrdə onlar mətbuat üzərində həmişə hökmranlıq et-

mişlər.

Dövlət mətbuatı isə məhz dövlətə məxsusdur və ona dövlətin müvafiq şöbələri tərəfindən nəzarət edilir və maliyyələşdirilir. İctimai-hüquqi təşkilatlara əsaslanan mətbuat isə ictimai qurumların təşəbbüsü və imkanları sayəsində nəşr olunur. Azərbaycan Respublikasında nəşr edilən KİV-in həmin nümunələri kifayət qədər nəzərə çarpır. Bir sözlə, KİV, xüsusilə onun siyasi komponenti kimi səciyyələnən siyasi mətbuat daim bu və ya digər səviyyədə, bu və ya digər dərəcədə siyasətlə, siyasi hakimiyyətlə bağlılıq kəsb edir. Heç də təsadüfi deyil ki, adi dildən tutmuş, siyasi nəzəriyyəyə qədər bütün aspektlərdə KİV hakimiyyətin «dördüncü qolu» adlandırılır. icraedici, qanunverici və məhkəmə hakimiyətinin bütövlük kəsb edən sistemli mahiyyəti əhəmiyyətli dərəcədə kütləvi informasiya vasitələrinin və xüsusilə siyasi mətbuatın fəaliyyəti ilə bağlıdır.

### § Milli dirçəlişdə və milli özünüdərkdə Heydər Əliyevin rolu

Milli şüur bütövlükdə sosial, siyasi, əxlaqi, estetik, dini və digər görüşlərin məcmuu olmaqla bu və ya digər millətin, xalqın mənəvi varlığının və inkişafının mahiyyətini, səviyyəsini və xüsusiyyətlərini mənalandırır. O, eləcə də millət və xalqların cəmiyyətin müxtəlif sərvətlərinə münasibətini, onun tarixi inkişaf prosesini və həll edəcəyi məsələləri ehtiva edir. Milli şüurun zəminini məhz milli özünüdərk şüuru, başqa sözlə milli mənlik şüuru təşkil edir. Milli mənlik şüurunun strukturunda bu və ya digər millətin mənsub olduğu milli mənəvi dəyərlərə dərk olunmuş münasibəti, mənəvi sərvətləri zənginləşdirməyə istiqamətlənən yaradıcılıq qabiliyyəti və səy-





ləri, eləcə də milli mənafeyi reallaşdırmaq naminə sıx birləşməsi əhəmiyyətli yer tutur. Milli mənafe hər bir milləti təmsil edən insanların dildə, dini və əxlaqi adətənənlərdə ifadə olunan mədəniyyət ümumiliyi əsasında birləşməsini səciyyələndirir. Milli mənafe ilə şərtlənən milli təhlükəsizliyin özü yalnız onun hərbi qüdrətilə deyil, həmçinin iqtisadi, sosial, siyasi, əxlaqi və ictimai həyatın digər sferalarında qazanılan uğurlarla müşaiyət olunur.

Milli özünüdərk milli dirçəlişi reallaşdıran amil kimi çıxış edir. Milli dirçəlişi sadəcə olaraq hər hansı millətin nümayəndələrinin ümumiyətlə şüuru deyil, o məhz konkret şüurluluğu şərtləndirir. Bütün insanlar şüura malikdir, lakin milli problemlərin məzmununa və həllinə hamı şüurlu münasibət bəsləmir. Şüurluluq şüurun, siyasi şüurluluq isə siyasi şüurun inkişafında daha təsirli, daha fəal cəhət kimi çıxış edir.

Milli özünüdərki, milli dirçəlişi formalaşdıran maddi və mənəvi xarakterli amillər çoxdur. Həmin amillər sistemində şəxsi amil spesifik əhəmiyyətə malikdir. Cəmiyyətin dərin iqtisadi və siyasi böhrandan xilas olmasında, taleyüklü milli problemlərin uğurlu və məqsədyönlü həllində insan amilinin rolu həmişə böyük əhəmiyyət kəsb etmişdir və edir. İnsan amili anlayışının ciddi aparıcı ünsürlərindən biri məhz siyasi liderdir.

Liderin, xüsusilə siyasi liderin meydana çıxması və çoxcəhətli fəaliyyəti obyektiv, tarixi və universal hadisədir. Liderin mövcudluğuna duyulan ehtiyacın obyekivliyi ondan irəli gəlir ki, cəmiyyət üzvlərinin, bütövlükdə millətin fəaliyyəti təşkilatçılıqdan, qarşıya qoyulan məqsədlərin uğurlu və rasional reallaşmasından çox asılıdır. Liderin təzahürünün və fəaliyyətinin tarixi zəruriliyi ondan irəli gəlir ki, tarixi zərurətdən doğan ictimai inkişaf

problemlərinin təxirəsalınmaz həllini təmin etsin, siyasi uzaqgörənliyi sayəsində gələcəyə dair siyasi və iqtisadi islahatları vaxtında, əlaqəli şəkildə reallaşdıra bilsin. Liderin fəaliyyətinin universallığı isə bununla şərtlənir ki, insanların, sosial təbəqə və qrupların, təşkilat və hərəkatların birgə fəaliyyətinin hər cür növləri liderə ehtiyac duyur. İctimai həyatın bu və ya digər sferasını lidersiz, xüsusilə siyasi lidersiz təsəvvür etmək ağlasığmazdır.

Tarixi təcrübə – siyasi praktika təkzibolunmaz surətdə təsdiqləyir ki, ən görkəmli siyasi liderlər ictimai inkişafın böhranlı, dönüş məqamlarında meydana çıxırlar. Belə liderlər yaşayıb fəaliyyət göstərdikləri, rəhbərlik etdikləri cəmiyyəti mövcud çətinliklərdən azad olmağa yardım göstərən, siyasi və iqtisadi mahiyyətli tarixi proqramların təşəbbüsçüsü kimi çıxış edirlər. Atatürk, T.Ruzvelt, Heydər Əliyev və başqaları məhz belə siyasi liderlər hesab olunurlar.

XX əsrin görkəmli şəxsiyyətləri, böyük siyasətçiləri sırasında birincilərdən sayılan Heydər Əliyevin həyatı, ictimai-siyasi və dövlətçilik fəaliyyəti eləcə də mətbuatla çıx bağlı olmuşdur. Bu bağlılıq Azərbaycan xalqının ikinci dəfə müstəqillik uğrunda mübarizə apardığı ilk illərdə daha aydın nəzərə çaprmışdır. Qorbaçov rejimi tərəfindən haqsızlığa məruz qalan və təqaüdə çıxmağa məcbur edilən böyük siyasətçi heç də ruhdan düşmür, Azərbaycanın müstəqilliyi və tərəqqisi naminə azadlıq uğrunda mübarizəmizin həmişə ən ön sıralarında fəaliyyət göstərirdi. Həmin dövrdə xalqı müstəqillik uğrunda mübarizəyə səsləməklə yanaşı açıq söz, azad fikir, demokratik düşüncə tərzinin qızğın tərəfdarı kimi çıxış edirdi. Bu, Azərbaycan üçün milli dirçəliş, özünüdərketmə dövrünə təsadüf edirdi.

Heydər Əliyev hələ milli azadlıq hərəkatının ilk





günlərindən demokratiyanın və hakimiyyətin əsl mənbəyi olan xalq haqqında, onun gələcək taleyi barədə siyasətin ayrılmaz tərkib hissəsi olan kütləvi informasiya vasitələrində mübariz ruhda çıxışları ilə diqqəti cəlb edirdi. O yazırdı:

«Xalqı müdafiə etmək, xalqın mövqeyini müəyyənləşdirmək vaxtıdır. qarabağ problemi isə xalqı parçalayan imperiya siyasətinin təzahürüdür» (4).

Başqa respublikalardan fərqli olaraq imperiya siyasəti xalqımız üçün əlavə bir Qarabağ problemini də yaratmışdı.

Dağlıq Qarabağla bağlı düşmən mətbuatında xəyanətkar yazılar nəşr edilir, erməni ekstremistləri heç bir qayda-qanuna, adi əxlaq normalarına uyğun gəlməyən hərəkətləri ilə xalqımıza qarşı böhtançı, düşməncəsinə hərəkətlərini son həddə çatdırmışdılar. Belə məqamda ictimai-siyasi hadisələrin inkişaf meylini, həqiqi axarını düzgün dərk edərək qiymətləndirən, dərin intuisiyaya və siyasi uzaqgörənliyə malik olan Heydər Əliyev Azərbaycanın gələcək taleyinin, vətənin və xalqın xilasını ilk növbədə milli özünüdərkdə və milli dirçəlişdə görürdü.

Mətbuatda verdiyi müsahibədə Heydər Əliyev hələ o zaman azərbaycançılıq mövqeyindən çıxış edərək qətiyyətlə bildirirdi: «Mənə elə gəlir ki, Azərbaycan xalqı ilk milli oyanış, milli dirçəliş, milli özünüdərketmə dövründə gərək müstəqil, demokratik yolla inkişaf etsin. Daha dəqiq desək, gərək cəmiyyətimizdə demokratik proseslər daha da sürətlə inkişaf etdirilsin. Bizim başqa yolumuz yoxdur. Əgər bundan sonra demokratik yolla getməsək, nə Azərbaycanın tam dövlət müstəqilliyinə nail ola bilərik, nə də xalqımızın tarixini, ənənələrini əsas götürməklə özümüzü dünya millətləri səviyyəsində

hiss edə bilərik» (4).

Zəngin siyasi təcrübəyə malik olan Heydər Əliyev yeni tarixin, yeniləşən azadlıq dalğasının yaxınlaşmasını hiss edir, buna inanır və eyni zamanda vətənini, xalqını sovet imperiya siyasətinin buxovlarından xilas etmək məqsədilə siyasi-nəzəri proqnozlar verirdi. O, fikrini danılmaz tarixi faktlarla əsaslandırırdı:

«Son vaxtlar dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşü dəyişdirmiş, sovet ittifaqında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir gördüyü, zərər çəkdiyi aydınlaşmışdır.

Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir, ittifaq dağılmağa başlamışdır. Ölkənin rəhbərliyi 70 il mövcud olan ittifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni ittifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdi ki, guya «ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç də ittifaqda yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaqdı». Həqiqəti isə desək, yeni ittifaq layihəsi əvvəlkindən də yararsızdır» (66).

Milli dövlətçiliyin elmi konsepsiyasını işləyib hazırlayan Heydər Əliyev hələ o zaman sivil dünya ölkələri sırasına qoşulmağın yeganə yolunu «başqa yolumuz yoxdur» - deyərək demokratik proseslərin inkişafında görürdü. Və yaxşı başa düşürdü ki, mətbuatda siyasi azadlıq və müstəqillik uğrunda təbliğat və inqilab nədir.

Dərin demokratik təfəkkür tərzinə malik olan Heydər Əliyev öz xalqını milli identikləşmə prosesinə çağırır, siyasi azadlıq ideyalarına can atan cəmiyyətimizin yeni zəmində formalaşmasını və inkişafını tarixi zərurət kimi əsaslandırırdı. Onun uzaqgörənliyi həmçinin bununla mənalanırdı ki, həmin prosesin təşəkkülünü milli KİV-in, xüsusilə siyasi mətbuatın azad, demokratik mahiyyətli inkişafı ilə əlaqələndirirdi. Elə bu nöqteyi-nəzərdən 1990-cı illərdə gələcək müstəqil Azərbaycanın yeniləşməsi və nəticə etibarilə dünya sivilizasiyasına qoşulması prosesinin həyati tələbat olmasına dair konsepsiya işləyib hazırlayırdı.





Öz xalqının gələcəyini dərindən, müdrikliklə düşünən, Azərbaycanı azad, müstəqil, firavan ölkə kimi görmək istəyən Heydər Əliyev yazırdı:

«Respublikanın keçmiş rəhbəri kimi mən də belə yararsız və naməlum ittifaqa xidmət etməyimə heyfslənirəm. Nəzərə almaq lazımdır ki, hər dövrün öz hökmü var. İndi isə hesab edirəm ki, bizim üçün 70 illik imtahan bəsdir. Yəni bu ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmərəm» (28, 8).

Azərbaycan Ali Sovetinin sessiyasında səslənən bu dahiyana etiraf və uzaqgörənlik o zamanki rəhbərlik üçün fəaliyyt proqramı olmalıydı. Çünki Heydər Əliyevin müddəaları Azərbaycanda gələcək inkişaf və tərəqqi yolunu müəyyənləşdirirdi.

Haqlı olaraq yeni ittifaq müqaviləsinin qətiyyətlə əleyhinə çıxan Heydər Əliyev yeni dövrün nəbzini məharətlə tutaraq müstəqilliyə doğru yolu və milli azadlığı uzun sürən tarixi inkişaf prosesinin nəticəsi kimi dəyərləndirərək yazırdı:

«Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklərimiz də az olmayacaqdır. Fəqət nəyin bahasına olursa olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək bunu gələcək

nəsillər edəcək. Və onlar tarix boyu bizi bağışlamayacaqlar» (67).

Böyük vətəndaşlıq çalarları ilə cilananan bu müdrik kəlamla Heydər Əliyev hər bir vətənpərvər azərbaycanlını vətənin, xalqın taleyini öz şəxsi mənafeyindən üstün tutmağa, ölkəsinin gələcək azad reallığını yaratmağa çağırırdı.

Böyük dövlət xadimi olaraq sosial-siyasi fəaliyyətini Azərbaycanın azadlığına həsr edən Heydər Əliyev müstəqil dövlət quruculuğu prosesində milli özünüdərk axtarışını sürətləndirməyi tövsiyə edir, bu istiqamətdə fəal siyasi mövqedən çıxış edir, xilas yolunu yalnız birləşməkdə, istiqlaliyyətdə və müstəqillikdə görürdü. Heydər Əliyevin formalaşdırdığı milli birlik konsepsiyası milli dirçəlişin və milli özünüdərkin meyarı kimi səciyyələnir.

Heydər Əliyev artıq SSRİ rəhbərliyindən istefa vermişdi. Qorbaçov Azərbaycana qarşı erməniləri hücuma hazırlayırdı.

Ermənistanın Azərbaycana hərbi müdaxiləsi getdikcə güclənir, xalqın və vətənin taleyi böyük çətinliklərlə üzləşməkdə idi. Ermənilərin mənfur siyasi planlarını həyata keçirmək üçün Heydər Əliyev kimi Böyük Vətənpərvər vəzifədən uzaqlaşdırılmalı idi. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, qatı ekstremist Ağanbekyan artıq açıq separatçılıq yolunu seçmişdi. Parisdə keçirilən bir mətbuat konfransında o, «Dağlıq Qarabağ Ermənistana verilməlidir» demişdi. Bütün bunlar Heydər Əliyevin yüksək vəzifələrdən uzaqlaşdırılmasından cəmi bir neçə gün sonra baş vermişdi.

Hadisələrin gedişini diqqətlə izləyən və dərindən anlayan Heydər Əliyev hələ 1990-cı ilin fevral ayının 9-da Rusiya televizisiyasının aparıcısı A.Karaulovla söhbətində iştirak edən «Vaşinqton post» qəzetinin Moskva





müxbiri David Rempikin sualını cavablandraraq demişdi:

«Mən vicdanla işləyirdim, işimdə heç bir qüsur görmürdüm. Qorbaçov isə subyektiv hisslərin əsiri oldu. Birdən tamam dəyişdi. Elə bil heç əvvəlki adam deyildi. Sadəcə məni yanına çağırdı. İş otağında daha iki nəfər var idi və dedi: Sən getməlisən» (48, 9).

Heydər Əliyevin yüksək vəzifədən – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrindən uzaqlaşdırılmasının əsl səbəbi çox az sonra tam aydın oldu: Ermənilər Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyirdilər.

Heydər Əliyevin yüksək vəzifədə olması və nüfuzu ermənilərin çirkin niyyətlərinin reallaşmasına mane olurdu. Heydər Əliyev bunları sərrast uzaqgörənliklə görür və duyurdu, öz xalqını, vətənini qoruyub müdafiə etmək üçün Azərbaycana və azərbaycanlılara qarşı yaradılan təhlükəni zərərsizləşdirmək üçün əlindən gələni edirdi. O, ermənipərəst imperiya rəhbərlərini və erməni millətçilərini tutarlı dəlilləri ilə susdurmaq istəyirdi:

«Azərbaycanın milli məsələsi ilə əlaqədar Qorbaçov, onunla mümkün olmasa Liqoçov, Viktor Çerbikov və DTK sədri, eyni zamanda Siyasi Büro üzvü Kryuçkovla danışmaq istəyirdim. «Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır» deyirdim. Onların mənə cavabı isə bu idi: Biz Qarabağdakı erməni-azərbaycalı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik» (49, 160).

Azərbaycan xalqının milli maraqları mövqeyində daim yüksək vətənpərliklə, mətin səviyyədə dayanan Heydər Əliyev heç vaxt susmamış, mətbuat tərəfindən ona edilən mənəvi terrora məruz qaldığı hallarda belə,

mübarizədən çəkinməmiş, ömrünün vəzifəsiz çağlarında da öz sözünü demişdir:

«Son vaxtlar mənim Azərbaycan KP MK-nın birinci katibi olduğum dövrdəki işimə tənqidi qiymət verən məqalələr dərc olunmuşdur. Əgər həmin məqalələr obyektiv xarakter daşısaydı, sağlam təmələ əsaslanmış olsaydı, mən onlara baş qoşmaz, adi hal kimi baxardım. Lakin nə bu, nə də digər keyfiyyətlər olmadığı üçün həmin məqalələr məndə etiraz hissi doğurur, qəlbimə yara vurur. Həmin məqalələri təhlil etməklə vaxtınızı almaq istəməzdim, lakin demyəi lazım hesab edirəm ki, həmin məqalələri qərəzli, qeyri-obyektiv, sübuta-dəlilə əsaslanmayan məqalələr kimi rədd edirəm» (98).

Böyük şəxsiyyətlər təsadüfi deyil, tarixi zərurətdən, məhz bunun üçün müvafiq obyektiv şərait yarananda və sosial-siyasi böhran dövründə daha tez meydana çıxırlar. Onlar milli dirçəlişə və milli özünüdərkə də belə şəraitdə güclü təsir göstərirlər. Bu nöqteyi-nəzərdən xalqın, ölkənin çətin, böhranlı məqamına Heydər Əliyev laqeyd yanaşa bilməzdi. Bu münasibətlə o Naxçıvan Muxtar Respublikasında nəşr olunan «Şərq qapısı» qəzetinə verdiyi müsahibədə deyirdi:

«Keçid dövrü», «yenidənqurma» sözü artıq hamını təngə gətirib. Hər bir anlayışın nüfuzunu qoruyub saxlamaq lazımdır. Nüfuzu itəndən sonra ona inam da itir. Sovetlər ölkəsinin həyatında gedən dəyişikliklər və biz bu dəyişikliklərin partiya tərəfindən həyata keçirilməsinə gəldikdə isə deməliyəm ki, mühafizəkar qüvvələr bu işə əngəl törədir, bu işi pozur, ölkədə siyasi və iqtisadi böhran hökm sürür. ... Əlbəttə, bütün bunlarla yanaşı indi öz fikrini sərbəst söyləmək, respublikanın öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmaq imkanı vardır».





Tarixi zərurət deyərkən, Heydər Əliyev siyasi-ictimai hadisələrin daxili məntiqindən qanunauyğun surtədə irəli gələn və elə buna görə də hökmən baş verən və ya baş verməli olan hadisələri nəzərdə tuturdu.

Azərbaycanın demokratik əsaslar üzərində yenidən qurulmasına bu bəlkə də ilk ciddi çağırış idi. Proqram xarakterli həmin çağırış və tövsiyə görkəmli ictimai-siyasi xadimin, böyük siyasətçi şəxsiyyətin mahiyyət etibarilə xalqına müraciət idi.

Bu həm də kommunist ideologiyasından xilas olan siyasi, demokratik mətbuatın yeni tarixi dövrdə atdığı ilk uğurlu addımları kimi mənalanır. Heydər Əliyevin ictimai-siyasi düşüncəlrinin təsiri altında Azərbaycanın siyasi mətbuatında açıq söz, azad fikir, ən başlıcası isə demokratik düşüncənin ilk rüşeymləri təşəkkül tapmağa başlayırdı. Bu elə dövr idi ki, ermənilər hətta Dağlıq Qarabağ hüdudlarından kənara - Naxçıvan Muxtar Respublikasına da silahlı hücumlar təşkil edirdilər. Kərki kəndi atəşə tutulurdu. Şərur, Ordubad, Culfa rayonlarında mitinqlər, Bakının baş meydanında kütləvi nümayişlər keçirilirdi. Artıq 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti «Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında və Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normalaşması sahəsində tədbirlər haqqında» SSRİ Ali Soveti qərarının qəbuledilməzliyi barədə qərarlar qəbul etmişdi.

Heydər Əliyevin sovet rəhbərliyi tərəfindən bütün səlahiyyətləri əlindən alınsa da, o milli dirçəliş və milli özünüdərk naminə siyasi mətbuata nüfuz edə bilir, Azərbaycan xalqına bildirirdi ki, Dağlıq Qarabağda yaradılan xüsusi idarəetmə komitəsinə inanmaq olmaz:

«Ümumiyyətlə, belə bir komitənin yaradılması nə dərəcədə doğru idi? Görün nə alınır: bir tərəfdən deyilir

ki, DQMV-nin problemlərini sərhədləri qayçılamaq yolu ilə həll etmək olmaz, digər tərəfdən isə xüsusi idarə komitəsi yaradılır və həmin komitə əslində DQMV-ni Azərbaycanın tabeliyindən çıxarır. Komitə əslində heç bir iş görməmişdir. Hər şeydən əvvəl ona görə ki, onun rəhbərləri məsələnin mahiyyətinə varmamış və tərəfkeşlik etmişlər» (100, 101).

Göründüyü kimi Heydər Əliyev, elə Moskvanın özündə nəşr olunan jurnalda Sovet hakimiyyətinin Dağlıq Qarabağda azərbaycanlıların ziyanına tərəfkeşlik etməsini cəsarətlə bildirir və tənqid edir, öz xalqını bu məsələdə mübariz olmağa səsləyirdi.

E.Ə. 430-cu ildə yaşayıb-yaradan qədim Yunanıstan siyasi xadimi Perikl deyirdi: «Siyasət haqqında hamı mühakimə yürüdə bilər, lakin onu tək-tək adamlar yaradırlar». Həmin nadir insanlardan biri olan Heydər Əliyevin 20 Yanvar hadisələri zamanı Moskvadakı Azərbaycanın Daimi nümayəndəliyində uzaqgörən və cəsarətli çıxışı dünyanın xeyli ölkələrindən gələn mətbuat nümayəndələrinin diqqətini cəlb etmişdi:

«Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvadakı kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş verən hadisələrə gəlincə mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm» (18, 45).

Bütün bu ittihamlardan sonra Heydər Əliyevdən intiqam almaq istəyən imperiya və onun Azərbaycandakı





qüvvələri ona qarşı qərəzli təzyiqləri daha da sürətləndirdilər və genişləndirdilər. Özünün dediyi kimi söz deməkdən, xalqın harayına qoşulmaqdan savayı, «başqa imkanı olmayan» Heydər Əliyevə bu dəfə «Pravda» qəzeti vasitəsilə haqsız atəşlər açdılar. Özü də saxta imza ilə: «Əliyevçilik, yaxud xoş əyyamların xiffəti».

Alman filosofu A.Şopenhauerin siyasi əxlaqın qızıl qaydalarına əsaslanaraq, «özünə etmək istəmədiyini başqalarına rəva görmə, çünki bunu sənə başqası da edə bilər» qənaətinə gəlməsi mahiyyət etibarilə əslində yeni əxlaqi qayda təklifi idi. Heç kimə böhtan atma, hamıya bacardığın qədər kömək et!

«Düzdür, siyasətdə bu mürəkkəb məsələdir, lakin bununla belə siyasətlə əxlaqın bir-birinə həddən artıq xələl yetirməsinə yol vermək olmaz. Başqa sözlə, siyasi peşəkarlıq əxlaqa zidd və əksinə əxlaqi başlanğıc hüququn ziyanına istiqamətlənməməlidir» (23, 187).

Mətbuatda isə siyasi əxlaq məsələsi xüsusilə vacibdir. Çünki millətin, xalqın dönüş mərhələlərində özünüdərkə istiqamətlənən düşüncə tərzində mətbuatın rolu və xidməti böyükdür. Heydər Əliyevin fəaliyyəti bütün səviyyələrdə və sferalarda eləcə də mətbuatda məhz milli dirçəlişin və milli özünüdərkin reallaşmasına yönəlmişdi. Siyasi əxlaqi borc mənəviyyatın yüksək prinsipi olmaq etibarilə milli siyasi şüurun, bütövlükdə isə milli siyasi mədəniyyətin formalaşmasının spesifik əhəmiyyət kəsb edən amillərdəndir. Heydər Əliyev bütün həyatını və fəaliyyətini məhz belə səciyyəli milli ruhun formalaşması və inkişafına həsr etmişdir.

1990-cı il fevralın 9-da Heydər Əliyev «Əliyevçilik», yaxud «xoş əyyamların xiffəti» məqaləsi ilə bağlı teatr tənqidçisi A.Karaulovla görüşür. Onunla söhbətin mətni Moskvanın «Novosti» Mətbuat Agentliyi tərəfin-

dən «Vokruq Kremlya» kitabında çap edilir. Həmin dialoqda SSRİ-də mürəkkəbləşən millətlərarası münasibətlərə Qazaxıstanda, Baltikyanı ölkələrdə baş verən münaqişələrə, dağılmaqda olan ittifaqın aqibətinə dair obyektiv və aktual mülahizələrini və mühakimələrini nəzərə çatdırır. Müsabiqədə iştirak edən «Vaşinqton post» qəzetinin müxbiri Devid Remnikin sualına Heydər Əliyevin sanballı və yaddaşlara həkk edilən cavabı bu gün də öz aktuallığını və əhəmiyyətini itirməyib: «Mən həmişə demokratiyanın tərəfində olmuşam. Qorbaçov isə həmişə öz dediyinin əksinə çıxır. Fevralın 5-də (1990-cı il) MK plenumunda etdiyi məruzədə o, yenə kifayət qədər uzun-uzadı (hərçənd məruzənin özü böyük deyildi) Dağlıq Qarabağ Muxtar Vilayətindəki hadisələrdən bəhs etdi. Yenə də aydın heç nə demədi, bircə bundan savayı: Guya, indi ona aydın olub ki, DQMV barədə məsələ Azərbaycanın bütövlüyü çərçivəsində həll edilməlidir. Bəs, bu barədə iki il qabaq niyə deyilməyib, hə? Deməli, həmin vaxt o, başqa mövqe - orta mövqe tutubmuş: yəni nə siz deyən olsun, nə də biz deyən, gedin dalaşın görək kim-kimə üstün gələcək, - belə də iş olarmı? Əgər bu federasiyadırsa, ittifaq dövlətdirsə, deməli, ittifaq dövləti dərhal öz fikrini bildirəydi. Budur, milli siyasətdə daha böyük bir səhv!» (83, 312).

Moskva qəzetlərində, Amerika Birləşmiş Ştatlarının ən nüfuzlu mətbuatında - «Vaşinqton post» qəzetində çap olunan bu müsahibə böyük səs-küyə səbəb olmuş, Heydər Əliyev cəsarətli keçmiş və ən nəhəng «kommunist dinozavrlarına bənzədilmişdir» (28).

1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndiliyində keçirilmiş mətbuat konfransındakı çıxışından sonra bütün dünyanın demokratik mətbuatı bu çıxışı şərh





etməyə başladılar. Bu təsadüfi olmayıb məhz, böyük siyasətçinin xalqın, millətin faciəsi ilə bağlı tarixi həqiqətləri bütün dünyaya çatdırmaq əzmindən irəli gəlirdi, mənsub olduğu böyük xalqı siyasi azadlığa, milli dirçəlişə səsləmək cəhdi ilə bağlı idi. Yanvar faciəsinin ABŞ kimi dünyanın ən qüdrətli ölkəsində əks-səda doğurmasının özü böyük hadisə kimi qiymətləndirilməlidir.

«Vaşinqton post» qəzetinin müxbiri Heydər Əliyevin həmin çıxışını şərh edərək yazırdı:

«Heydər Əliyev qədd-qamətli, qıvraq, yaraşıqlıdır. Bu günsə o, arıqlamış və sarsılmışdır. Lakin heç nə onun mübarizəlik əzmini qırmamışdır. Bu mənada onun mərdliyi mərhum Andrey Saxarovun mərdliyinə bərabərdir» (68).

Tarix, siyasi praktika dönə-dönə təsdiqləyir ki, Böyük şəxsiyyətlər yalnız o insanlar hesab olunur ki, bütün həyatı, fəaliyyəti və əməlləri ilə öz xalqının, vətəninin tərəqqisinə, istiqlaliyyətinə qətiyyətlə və dönmədən xidmət etmək səviyyəsinə yüksəlir, xalqının tarixində silinməz iz buraxır. Çünki «tarixin başlıca ibrət dərsi odur ki, tarix heç bir ibrət dərsi götürmür» (Hegel).

«Şəxsiyyətlərin miqyasları bir tərəfdən onun öz zamanında gördüyü işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin əhəmiyyəti ilə, əhatəsi ilə, təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks-sədasıyla, uzun illər, dövrlər müddətində hadisələrin gedişatına yönlətməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev tarixi şəxsiyyətdir» (3).

Heydər Əliyev şəxsiyyətinin miqyası Azərbaycan cəmiyyətinin və Azərbaycan xalqının tarixi inkişafı, müxtəlif ictimai-siyasi mərhələlərdə tərəqqisi, və eləcə də sosial iqtisadi inkişafın geniş dairəsi və istiqamətləri ilə şaxələnir.

Bütün hədələrə, təzyiqlərə baxmayaraq, Heydər Əliyev vətənin ağır günlərində xalqı ilə birlikdə olmaq, onun dərdi-sərinə şərik olmaq üçün Azərbaycana can atırdı:

«Mən Moskvada yaşaya bilmədim və buraya gəldim ki, öz xalqımın, millətimin içərisində olum və onunla bir yerdə olum. Belə hallarda bəziləri öz vətənini tərk edir ki, gedib rahat yaşasın. O vaxt Moskvada mənim yaşamağım üçün çətinliklər də var idi. Ancaq hər halda mən vətəndən uzaqda idim, ola bilərdi, vətənin problemləri də mənim qəlbimdə olaydı, amma mən ona cavabdeh deyildim. Lakin, mən gəldim. Kimsə bunun qarşısını almaq istədi, kimsə buna mane oldu və s.». Elə bu qayıdışın özü milli dirçəlişin və milli özünüdərkin yeni zəmində təzahürü idi. Heydər Əliyevin yenidən siyasətə qayıtması ilə bağlı 1990-cı il iyulun 25-də keçmiş SSRİ-nin ən nüfuzlu qəzetlərindən sayılan «İzvestiya» belə xəbər dərc etmişdi:

«İyulun 22-də axşam Naxçıvanda Lenin meydanında Heydər Əliyevin əhali ilə görüşü olmuşdur». Görüşdə 30 minədək adam iştirak etmişdir. Təfsilat hələlik məlum deyildir» (88, 4).

Moskva qəzetləri isə Heydər Əliyevə qarşı qərəzli mövqeyindən əl çəkmirdi. İki mənalı mahiyyət daşıyan «Təfsilat hələlik məlum deyil» fikri isə artıq çoxdan məlum idi. O, xalqımızı sayıqlığa, ittifaq müqaviləsinə qoşulmamağa, dağılmaqda olan sovet rejiminə «əlvida» deməyə çağırırdı:

«İndi zaman dəyişib. Respublikamızın vəziyyəti tamam dəyişib. Respublika indi siyasi və iqtisadi böhran dövrü keçirir. İndi ortaya yeni məsələlər gəlib çıxıb. Bu problemlər mən fəaliyyət göstərdiyim dövrdə yox idi. Ona görə bunların düzgün həll olunması, Azərbaycan





xalqının rifah halının yaxşılaşdırılması, Azərbaycanda siyasi psixoloji, mənəvi mühitin düzəlməsi və ən əsası Azərbaycan xalqının ərazi bütövlüyünün təmin olunması, suverenliyinin, müstəqilliyinin təmin olunması həm siyasi, həm də iqtisadi müstəqilliyin təmin olunması məsələləri indi meydana çıxıb. Mən də çox arzu edirəm ki, bu məsələlər həll edilsin və bu işdə mən öz imkanlarımı, mümkünatlarımı əsirgəməyəcəyəm» (56).

Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda mübarizəyə başlayan və bütün xalqı bu məqsəd uğrunda birləşməyə çağıran Heydər Əliyev müstəqil Azərbaycanın banisi və qurucusu olmaq kimi şərəfli və tarixi missiyasının hüdudlarını genişləndirirdi.

Heydər Əliyevin milli dirçəliş naminə fəaliyyəti və çağırışları öz siyasi nəticələri ilə aydın nəzərə çarpırdı. Belə ki, Azərbaycan bütün çətinliklərə baxmayaraq, addım-addım öz müstəqilliyinə yaxınlaşdı. «1990-cı ilin noyabr ayının 29-da Azərbaycan SSR prezidenti Azərbaycan SSR-in adını dəyişdirib, Azərbaycan Respublikası adlandırılmasını və üçrəngli bayrağı – səkkizguşəli ulduz təsviri olan bayrağının Azərbaycanın dövlət bayrağı elan edilməsi barədə fərman vermişdir. Ali Sovetə tövsiyə olunmuşdur ki, respublikanın adının və bayrağının dəyişdirilməsi haqda Konstitusiyada müvafiq dəyişikliklər etsin. Həmin gün prezidentin fərmanı ilə Azərbaycan Milli İstiqlal günü – 28 May günü istirahət günü elan edilmişdir» (45).

Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında Azərbaycan Respublikasının xalq deputatı Heydər Əlirza oğlu Əliyev tam səlahiyyətli deputat kimi iştirak etmişdir (1991-ci il 5 fevral).

Heydər Əliyevin yeni ali qanunvericilik orqanında

gələcək fəaliyyəti, hətta ilk çıxışı müxtəlif mövqelərdən mənalandırılırdı. Belə proqnozlşdırma tamamilə təbii idi. «Siyasi rəhbərlik orqanları üçün elmi baxımdan əsaslandırılmış proqnozların mövcudluğu siyasi hadisələrin gedişatını qabaqcadan görmək, cəmiyyətin onlara mümkün inkişaf proqramından ən optimalını seçmək deməkdir» (22, 216).

Böyük siyasətçinin müdrik çıxışının mətni 1991-ci il fevralın 9-da «Həyat», sonra isə tam şəkildə «Aydınlıq» (1991-ci il 15-21 fevral) və «Vətən səsi» qəzetinin 27 fevral 1991-ci il tarixli nömrələrində dərc edildi:

«Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Ölkə, Sovet cəmiyyəti, dövlət üsul idarəsi artıq neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır!»

Həmin siyasi proqram xarakterli çıxış respublikada böyük əks-səda doğurdu. Dərin siyasi intuisiyaya və eləcə də siyasi proqnozlaşdırmanın elmi əsaslarına malik olan Heydər Əliyev gələcək sosial proseslərin, siyasi hadisələrin inkişaf qanunauyğunluqlarını duymaq zəminində süquta uğrayan SSRİ-nin «Yeni saxta ittifaqına uymamağa», gələcək Azərbaycanın taleyi üçün çox vacib olan müstəqillik və azadlıq uğrunda mübarizənin gücləndirilməsinə qoşulmağa çağırırdı, milli özünüdərkin tarixi labüdlüyünü əsaslandırırdı.

Ölkəmizin sosial-siyasi böhranı şəraitində siyasi





səhnəyə çıxan Heydər Əliyev xalq deputatı kimi fəaliyyət başladığı ilk çıxışında daha sonra bildirdi ki, «Biz 1922-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması məsələsinin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması – məsələ belə qoyulmalıdır».

Heydər Əliyevin parlamentdəki çıxışına qarşı sərt mövqedən çıxanlar da oldu. Belələrinə qarşı xalq deputatı şair B.Vahabzadənin çıxışı maraq doğurmuşdur: «Biz son 70 illik tariximizdə həmişə vəzifə alanın yaltağı, vəzifədən gedənin isə qənimi olmuşuq. Əliyev yoldaşın dünənki çıxışına televizorda mən diqqətlə qulaq asdım. O, bizi Qarabağ məsələsinin dərin həllinə çağırdı. Bu mühüm məsələni kənara qoyub, ondan keçmiş hayıfımızı almağa çalaşırıq. Biz vaxtilə kiçiklik etdiyimiz adama indi böyüklük etmək istəyirik. Bəs hanı ağsaqqala hörmət ənənəsi?!» (33, 5).

Çıxışı ilə bağlı Heydər Əliyevə olan xalq məhəbbəti o zamanki bəzi mətbuat səhifələrində də təzahür etdi. Xalq ona qarşı yönələn qərəzli çıxışlara və hücumlara dözmürdü, bir çox ziyalılar yığıncaqlar keçirir, öz sözlərini deyirdilər.

«Çətinliyə» düşən xalq deputatlarının əksəriyyəti təəssüf ki, yüksək siyasi tribunadan Azərbaycan xalqının taleyüklü probleminin həllinə - Dağlıq Qarabağ məsələsində Heydər Əliyevin dərin məzmunlu və vətəndaşlıq qeyrəti ilə dolu çıxışına səs vermədilər. 1991-ci il martın 7-də sessiyada, martın 17-də ittifaq referendumunda respublikanın iştirakı məsələsi müzakirə olunmuşdur.

Həmin məsələ üzrə qərar layihəsinə səsvermədə 303 deputat iştirak etmişdir. 254 nəfər lehinə, 43 nəfər əleyhinə səs vermiş, 6 nəfər isə bitərf qalmışdır. Deputat Heydər Əlirza oğlu Əliyev də ittifaq referendumunda respublikamızın iştirakının əleyhinə çıxmışdır (34).

Deputat H.Ə.Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında etdiyi böyük ictimai-siyasi əhəmiyyət kəsb edən çıxışı tam halda ilk dəfə «Səs» qəzetində dərc olunmuşdur:

«Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirilməsinin heç bir şərt qoyulmadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan artıq bu yola çıxmışdır» (61, 2).

1991-ci il referendumu Azərbaycan Respublikasının və Azərbaycan xalqının müasir tarixində ən məsul bir dövr idi. Bu referendumla azadlıq, müstəqillik və yaxud imperiya asılılığında qalmaq məsələsi həll olunurdu.

Heydər Əliyev hələ 1988, 1989-cu illərdə «Sovet Gürcüstanı», «Ana torpaq» qəzetlərində SSRİ tərkibində qalmağın əleyhinə çıxırdı. Martın 26-da SSRİ referendumun Mərkəzi Komissiyasının rəsmi yekunları elan edildi. Həmin yekunlara görə Türkmənistan SSR-də 97,7 faiz, Özbəkistan SSR-də 95,4 faiz, Tacikistan SSR-də 94,4 faiz, Qazaxıstan SSR-də 88,2 faiz, Ukrayna SSR-də 83,5 faiz, Belarusiya SSR-də 83,3 faiz, RSFSR-də 75, 4 faiz, Azərbaycan Respublikasında 75,1 faiz, Naxçıvan Muxtar Respublikasında isə 20,6 faiz səsvermədə iştirak etmişdir (46).

Bütün SSRİ üzrə ən az faizlə Naxçıvan Muxtar Respublikası həmin ittifaqda qalmağa səs vermişdir:





20,6 Faiz! Hadisələrin sonrakı gedişi Heydər Əliyevin siyasi uzaqgörənliyini bir daha təsdiqlədi.

Böyük Fransız mütəfəkkiri J.J.Russonun qeyd etdiyi kimi, «yaxşısı budur ki, ayıq və həqiqətpərəst olasan. Təkcə özün üçün yox, həm də cəmiyyət üçün. Çünki əxlaqi cəhətdən pis olan siyasi cəhətdən də pisdir» (57, 181). Əməli fəaliyyətdə özünü əxlaqi cəhətdən təsdiqləməyən insan əsl siyasətçi ola bilməz. Dərin siyasi etikaya malik olan ümummilli lider öz çoxcəhətli fəaliyyətində bu prinsipə xüsusi əhəmiyyət verirdi.

Heydər Əliyevin müstəqillik naminə SSRİ tərkibində qalmağın qətiyyətli əleyhdarı kimi mübariz fəaliyyəti XX əsrin 89-90-cı illərində milli dirçəlişin və milli özünüdərkin mahiyyət etibarilə yeni mərhələyə yönəldiyini şərtləndirdi, elə bir dövrə ki, Azərbaycanın siyasi mətbuatında keyfiyyətcə yeni Heydər Əliyev mərhələsi başlandı.

## § Yeni Azərbaycanın siyasi mətbuatında Heydər Əliyev mərhələsi

Siyasi dildə kütləvi informasiya vasitələri bir qayda olaraq «hakimiyyətin dördüncü qolu» kimi mənalandırılır. Bu tamamilə təbii haldır və özünəməxsus qanunauyğunluq kəsb edir. Çünki KİV siyasətin spesifik komponenti olmaqla hakimiyyət strukturları ilə qarşılıqlı əlaqəyə malikdir. Sosial fenomen olmaq etibarilə siyasət kütləvi informasiya vasitələrinə daha ciddi ehtiyac duyur. KİV anlayışının mənəvi tərəfi özündə ilk öncə mətbuatı – qəzeti, jurnalı, məlumat vərəqələrini və s. əks etdirir. Əlbəttə, mətbuat anlayışı eləcə də siyasi mətbuatı özündə təcəssüm etdirir. Mətbuat cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarına, həmçinin siyasətə əhə-

miyyətli təsir göstərir. Qəzet və jurnallardakı hər bir yazıya, məlumata insanlarla bilavasitə və ciddi söhbət kimi diqqət etirmək lazımdır.

Cəmiyyətin siyasi təsisatlarının mətbuata olan tələbatı hər şeydən əvvəl, onun funksiyalarından irəli gəlir.

Mətbuatın çoxcəhətli funksiyaları sırasında cəmiyyət üzvlərinin hərtərəfli məlumatlandırılması funksiyası əhəmiyyətli yer tutur. Bu funksiyanın mahiyyəti onunla səciyyələnir ki, o, dövlət orqanları sistemi üçün ən vacib məlumatların əldə olunmasına və bunun cəmiyyətdə geniş yayılmasına istiqamətlənir. Siyasi mətbuata elə məlumatlar nüfuz etməlidir ki, o, ictimai əhəmiyyət daşısın və dövlət orqanları, hakimiyyət strukturları tərəfindən xüsusi diqqət yetirilsin. Siyasi mətbuatda ifadə olunan informasiya zəminində vətəndaşlarda cəmiyyətin siyasi sisteminin, xüsusilə onun başlıca komponenti olan dövlətin, siyasi partiyaların, ictimai təşkilatların vəzifələri və fəaliyyəti haqqında, həyat fəaliyyətinin iqtisadi, mədəni, əxlaqi, dini sferaları barədə geniş, çoxistiqamətli təsəvvürün formalaşmasına diqqət yetirməlidir.

İnkişaf etmiş demokratik cəmiyyətdə mətbuatın sağlam ictimai rəy formalaşdırmaq funksiyası da xüsusi maraq doğurur. İctimai rəy siyasi təsisatlarda və strukturlarda, bütövlükdə ictimai həyatda siyasətin rasional istiqamətini şərtləndirən mühüm amillərdəndir. Mətbuatın keçirdiyi ictimai rəy sorğuları «siyasi kəşviyyat» xarakteri kəsb etməklə mahiyyət etibarilə çoxcəhətli siyasi məsələlərə insanların münasibətini öyrənməyə xidmət edir. Təfəkkürün demokratikləşməsi prosesinin dərinləşdiyi indiki şəraitdə xalqımızın tarixi keçmişinə, hazırki vəziyyətinə və gələcəyinə dair həqiqətləri insanlara çatdırmaq cəhdləri təmənnalı, subyektiv mülahizə və mühakimələrə deyil, məhz obyektiv reallıqlara, sağlam zəkaya, vicdanlı düşüncə tərzinə əsaslanmalıdır.





Həyat həqiqətlərinin, eləcə də siyasi həqiqətlərin və reallıqların obyektiv, elmi cəhətdən düzgün əsaslandırılması, sübuta yetirilməsi ictimai-milli inkişafımızın zəruri tələbidir. Bunların reallaşdırılması üçün Yeni Azərbaycanın siyasi mətbuatında Heydər Əliyev mərhələsi dönüş nöqtəsidir. Siyasi mətbuatımızın bu tarixi dövrü dövlətçiliyimizin təkmilləşdirilməsi üçün hərtərəfli və əlverişli imkanlar əldə etmişdir.

Siyasi mətbuatın səmərəli, ardıcıl və ən başlıcası müstəqil fəaliyyətində dövlət müstəqilliyinin elan edilməsi həlledici rol oynadı. Məlum olduğu kimi, 1991-ci ilin oktyabr ayının 18-də isə Azərbaycan xalqının həyatında çox mühüm, bir tarixi hadisə baş verdi. Ali Sovetin ikinci sessiyası «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktını qəbul etdi. Adbaad səsvermə zamanı onun qəbul edilməsinə 258 deputat səs vermişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında deyilir:

1918-ci ilin may ayının 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub, müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları – parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci ilin aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən, öz silahlı qüvvələrinin hissələrini Azərbaycana

yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına əldə etdiyi müstəqilliyinə son qoydu.

Bütün bunlar rəsmi dövlət aktında ön plana çəkilmişdi. Rəsmi sənədin yekun müddəalarının 32-ci maddəsində isə göstərirdi: «Bu Konstitusiya aktı Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması üçün əsasdır».

Bu tarixi sənədin qəbul olunmasından çox az sonra «Həyat» qəzeti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin teleqramını dərc etmişdir. Teleqramda deyilirdi:

«Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktaybrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya aktı münasibəti ilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir. Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 1991-ci ilin oktyabrın 18-də qəbul olunmuş Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktını bütün Azərbaycanın demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirirlər. 17 mart 1991-ci il tarixdə «Sovet Sosialist respublikaları İttifaqının saxlanması haqqında» keçirilmiş referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublikada demokratik qüvvələrin Azərbaycanın milli azadlığı və istiqlaliyyəti uğrunda apardığı mübarizəsi ilə əlaqədardır. Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq nailiyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır, Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəkdir» (35, 2).





Naxçıvana Türkiyənin ən böyük və nüfuzlu «Milliyyət» və «Hürriyyət» qəzetlərinin müxbirləri gəlmişdilər. Heydər Əliyev noyabrın 13-də xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

«Ana torpaq» qəzetinin müxbirinin «Azadlıq, müstəqillik yolunda bizi nə gözləyir» sualına Heydər Əliyev belə cavab vermişdir:

«Mənim fikrimcə, əgər Azərbaycanın rəhbərliyi həqiqətən onun azad olmağını istəyirsə, bütün potensial imkanlardan maksimum səmərəli istifadə edərsə, biz müstəqillik yolunu nisbətən asan keçə bilərik».

Klassik alman fəlsəfəsinin görkəmli nümayəndəsi Hegel «Tarixin fəlsəfəsi» əsərində göstərmişdir ki, «Dövlət ağılla qurulan, özünü obyektiv surətdə dərk edən və özlüyündə mövcud olan Azadlıq deməkdir». Filosofun fikrincə, dövlət ağılın, zəkanın məhsuludur. Belə intellektdən məhrum olan xalqların yeni dövləti də olmayacaqdır.

Müstəqil, süveren dövlət uğrunda mübarizənin genişlənməsi məqsədilə Heydər Əliyev yazırdı: «Azərbaycanda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının, söz, vicdan azadlığının, siyasi plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olunması dövrün tələb etdiyi prinsiplərdir və bu prinsipləri biz ardıcıl olaraq həyata keçirməliyik» (28).

Söz azadlığının, siyasi plüralizmin təşəkkül tapdığı zamanda Bakıda «Naxçıvan» həftəlik qəzetinin (10

oktyabr 1992-ci il) ilk nömrəsi çapdan çıxdı. Bu münasibətlə Heydər Əliyev təbrik məktubunda yazırdı:

«Bu gün Naxçıvan Muxtar Respublikası çox böyük çətinliklə üz-üzə dayanıb. Bu çətinlikləri aradan qaldırmaq üçün biz çox iş görməliyik. İndi Naxçıvanın çox şeyə ehtiyacı var, ancaq bu gün naxçıvanlılar çörəkdən, ətdən, yağdan, elektrik işığından qabaq xeyirxah sözə, həqiqəti və ancaq həqiqəti deyən jurnalist qələminə möhtacdır» (52, 1).

Həqiqət yolunu tapmaq, «həqiqət və haqq tanrıdan ucadır» deyən Heydər Əliyev böhtan, yalan yazan jurnalistlərə həmişə düzgün və doğru yol göstərirdi.

«Yalan danışmaq, böhtan yazmaq, insanın pak fitrətinə, əzəmətli şəxsiyyətinə zidd olub, əslində Allahtaala ilə düşmənçilik etməkdir. Çünki Ulu Tanrı dünyanı həqiqət və düzgünlük əsasında yaratmışdır. Belə ki, mütəal Allah buyurur: Göyləri və yeri haqq olaraq yaradan ODUR! (25).

1992-ci ilin oktyabr ayının 6-da Bakıdan gələn jurnalist qrupunu qəbul edən Heydər Əliyev 15 müxtəlif qəzetin nümayəndəsi ilə geniş mətbuat konfransı keçirmişdir. Konfransda iştirak edən «Səhər» qəzetinin nümayəndəsi tədbirin çətinliklə baş tutduğuna dair yazır:

«Naxçıvan blokada vəziyyətində idi. İşıq yox, çörək yox, yanacaq yox. Heydər Əliyev vəziyyətdən çıxış yolu tapmaq üçün gecə-gündüz çalışırdı. İşi çətinləşdirən amillərdən biri o idi ki, sərhəd kəndlərdə atışma gedir, günahsız adamlar şəhid olur, əsir götürülürdü. 15 nəfərdən ibarət Azərbaycan jurnalisti qərara gəldik ki, yubanmadan Naxçıvana uçaq. Bilet tapmaq problem idi. Camaat, qadın, uşaq, qoca günlərlə aeropotda gecələyirdi: «Azal»ın rəhbəri də bizə kömək edə bilmədi. Türk





dostumuz İlham İşbilənlə əlaqə saxladıq. Heydər Əliyevə dərin hörmət və ehtiram bəsləyən İlham bəy tərəddüd etmədən bütün xərclərimizi öz boynuna götürdü. «Zaman» qəzetinin adından müvafiq rəsmi məktub verdi. (62).

Müxtar Respublikaya gələn jurnalistlər qrupunun müxtəlif səpkili suallarına cavab verən Müxtar Respublikanın Ali Məclisinin sədri Naxçıvanın mövcud durumu haqqında deyir:

«Bizim Sədərək və Şərur rayonlarının bəzi kəndlərində, Ermənistanla Naxçıvan arasında olan sərhədlərdə may ayının 1-dən atışmalar gedir. Dağıntılar vardır, insan itkisi olub. 40 nəfər yaralanıbdır. Bunu siz xüsusi qeyd etməlisiniz ki, mayın 18-dən başlayaraq, Naxçıvana xarici müxbirlər gəliblər, ən çox müxbirlər Türkiyədən gəlibdir - siz bunu qeyd etməlisiniz. Eyni zamanda İngiltərənin, Amerikanın, Fransanın, Almaniyanın, Rusiyanın, yəni Moskvanın müxbirləri gəliblər, döyüş yerlərində olublar. Məlumat veriblər... Mənə elə gəlir ki, siz bir temanı da mütləq öz yanınızda qeyd etməlisiniz ki, Naxçıvanla əlaqədar olaraq Türkiyənin bu məsələyə xüsusi qayğı göstərməsi, çox narahat olması ilə əlaqədar dünya informasiya orqanlarında, xüsusən Ermənistan tərəfindən, erməni lobbisi tərəfindən cürbəcür şaiyələr yayılır ki, guya Türkiyə bura müdaxilə edəsə, guya Rusiya da ayın 15-də Daşkənddə bağlanmış müqaviləyə (MDB kollektiv təhlükəsizlik müqaviləsi nəzərdə tutulur) əsasən Ermənistana kömək edəcəkdir. Dünən mənə müxbirlər dedilər ki, - onu da qeyd edim, - dünyanın 17 dövləti Ermənistanı qınayıbdır.

*Müxbir*: Sabah qəzetdə bunların hamısı çıxır.

Heydər Əliyev: Bunların hamısına baxmayaraq yazın ki, Naxçıvanda Müstəqil Dövlətlər Birliyinin qoşun-

ları durur.

*Müxbir*: Diviziyanı deyirsiniz...

Heydər Əliyev: Bəli, bəli, diviziya dayanıbdır Naxçıvanda...

Bu arada köməkçi otağa daxil olub deyir:

- Türkiyədən müxbirlər gəliblər...

Heydər Əliyev: Qoy gözləsinlər...

Sonra da əlavə edir: Görürsünüzmü, xaricdən dalbadal gəlirlər. Sizin kimi deyillər...» (Oktyabr 1992-ci ildə lentəə alınan bu söhbət 21 iyul 1995-ci ildə «Səhər» qəzetində çap olunub).

Heydər Əliyev Naxçıvanın xilası naminə 15 nəfərdən ibarət Azərbaycan müxbirini məlumatlandırdığı həmin gün – 1992-ci il oktyabrın 22-də Naxçıvan qadınları MDB-nin diviziyası qarşısında mitinq keçirirdi. Ölkəni siyasi böhrandan çıxarmaq həyati tələbata çevrildi.

Yeni Azərbaycan Partiyasını yaratmaq, Azərbaycan dövlətçiliyini qurmaq istəyi məhz həmin zərurətdən doğdu. Məqsədə çatmaq üçün siyasi, güclü bir təşkilat lazım idi.

Bakıda, Azərbaycanın müxtəlif bölgələrində isə hakimiyyət böhranı getdikcə daha da dərinləşirdi. Belə bir zamanda yeni, müstəqil Azərbaycan uğrunda mübarizə aparan qüdrətli hakimiyyət partiyası yaradlmasına kəskin ehtiyac duyulurdu. Belə bir partiyanı yaratmaq, onun rəhbərliyinə isə Heydər Əliyevi gətirmək istəyilə Azərbaycanın 91 nəfər ziyalısı xalqın əksəriyyətinin iradəsini ifadə edərək Heydər Əliyevə rəsmi müraciət etdilər (63).

Geniş məzmunlu müraciətdə deyilirdi:

«Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət





quruculuğu təcrübəsinə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəldik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz».

Heydər Əliyev Respublikanın adlı-sanlı, tanınmış ziyalılarına öz cavabını göndərir. Dolğun, siyasi cəhətdən yetkin mülahizələrə əsaslanan cavab məktubu yeniləşən Azərbaycanın tərəqqisi və inkişafı naminə böyük fəaliyyət proqramı kimi səsləndi. Heydər Əliyevin Azərbaycan ziyalılarına ünvanladığı bu tarixi, gələcək fəaliyyət üçün istiqamətləndirici cavab məktubunda eksplikasiyadan istifadə edərək Azərbaycan və Azərbaycan xalqını ağır durumdan, börandan xilas olmaq yolunu, açıqlayaraq mövcud vəziyyəti dürüst elmi müddəalarla aydınlaşdırdı və görüləsi başlıca vəzifələr müəyyənləşdirildi.

«Səs» qəzetində çap olunmuş cavab məktubu əslində Milli dövlətçilik konsepsiyası kimi səsləndi. Azərbaycanın sivil ölkələr sırasında mövcud olmasının əsas yolunu müstəqilliyimizin möhkəmləndirilməsində, demokratiya, siyasi plüralizm və modernləşdirmə prosesində görürdü. Heydər Əliyev Yeni Azərbaycanın qərarlaşmasının əhəmiyyətli amillərindən birini eləcə də müstəqil siyasi mətbuatın təşəkkülü və inkişafında görürdü. Heydər Əliyev «91-ci-lər»ə cavabınında bildirirdi ki, «Azərbaycanın müstəqilliyini əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatla-

rın, ayrı-ayrı şəxslərin, o cümlədən də xalq cəbhəsinin xidməti saymaq olmaz. Bu tarixi-obyektiv proseslərin nəticəsidir. Fikrimizcə, yeni müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesinə vətəndaşın hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni, müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Bu işdə heç bir məhdudiyyət qoyulmamalıdır» (48, 356).

Mətbuatda çap olunan cavab məktubu milli-mənəvi dəyərlərimizi özündə əks etdirən əsl açıq söz, azad fikir prinsiplərinin dolğun ifadəsi idi. Xalqımızın qarşısında duran iqtisadi, siyasi, mənəvi-əxlaqi xarakterli vəzifələrin həllinə vətənpərvər münasibətin formalaşmasında cavab məktubu əhəmiyyətli rol oynadı, xalqın mənafeyini ifadə edən siyasi mətbuatın məzmun səviyyəsinin xeyli yüksəlməsinə ciddi təsir göstərdi. Şəxsiyyətin mənəvi yetkinliyinin təzahür formaları müxtəlifdir. Əlbəttə, yüksək mənəvi-idraki qabiliyyət prinsip etibarilə həyat fəaliyyətinin hər hansı formasında üzə çıxa bilər. Çünki mənəviyyat, eləcə də siyasi mənəviyyat ilk öncə insanın öz fəaliyyətinə münasibətində daha aydın təzahür edir, ən başlıca isə insanı həmin fəaliyyətə hansı maraq, mənafe və tələbat sövq edir. Əgər bu və ya digər şəxsin fəaliyyəti harada, o cümlədən mətbuatda nəzərə çarpmasından asılı olmayaraq məhdud fərdi mahiyyət daşımırsa, millətə qarşı çevrilən məqsədlərin «təntənəsinə» istiqamətlənmirsə və yalnız xalqın, vətəndaşların mənafeyi ilə uzlaşırsa belə fəaliyyət milli ləyaqətin əsl təcəssümüdür. Heydər Əliyevin fəaliyyəti, mətbuatda əksini tapan milli-mənəvi tərəqqi konsepsiyası məhz bu mənada böyük milli dəyərləri ilə seçilir. Yeni Azərbaycan Partiyasının təsis konfransında Heydər Əliyev açıq səsvermə yolu ilə yekdilliklə partiyanın sədri seçilmişdir. Konfransda Azərbaycan xalqına bəyanat qəbul





olunmuşdur. Həmin gün partiya sədri Heydər Əliyev «Naxçıvan» qəzetinin müxbirinə demişdir:

«Respublika ziyalılarının, geniş xalq kütləsinin təklif və istəyi ilə mən bu partiyanın sədri olmağa razılıq verdim. Partiyanın siyasi məqsədi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, demokratiyanın, aşkarlığın inkişafına təkan verməkdir. Partiyanın proqramında qanunlarımızın aliliyinin qorunmasına xüsusi diqqət yetirilir. Partiya Azərbaycanı düşdüyü çətin vəziyyətdən çıxarmaq üçün bütün siyasi qüvvələrlə birgə mübarizə aparmaq niyyətindədir» (53).

Yeni Azərbaycan Partiyasının yaranması bütün Azərbaycanda geniş əks-səda doğurmuşdu. Mütərəqqi fikirli azərbaycan vətəndaşları Heydər Əliyev partiyasına ümummilli və xilaskar partiya kimi baxırdı. Bir neçə gün ərzində minlərlə insanlar Yeni Azərbaycan Partiyasına üzv yazıldılar.

Heydər Əliyevin özü bu barədə deyirdi:

«Yeni Azərbaycan Partiyası parlaq, işıqlı partiyadır və qəbul etdiyimiz proqrama uyğun olaraq aşağıdakıları özümüzün məqsədləri hesab edirik:

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlara malik olduğu sivilizasiyalı, demokratik hüquqi dövlət yaradılması!

Lakin ön planda Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli dayanır – hər şeydən əvvəl respublikanın genişmiqyaslı xarakter almış müharibə vəziyyətindən çıxarılması. Qarabağ probleminin həll olunması, habelə, sosial-iqtisadi böhranın dəf edilməsi!»

Yeni Azərbaycan Partiyasının yaradılması prinsip

etibarilə yeni siyasi mətbuatda Heydər Əliyev mərhələsinin başlanması idi.

Mətbuat cəmiyyətdəki yeniləşmənin, azadlıq və müstəqillik uğrundakı mübarizənin, mənəviyyatın zənginləşməsinin və dərinləşməsinin ən mühüm və etibarlı siyasi təsir vasitəsidir. Cəmiyyətdə baş verən hadisələrə vaxtında, düzgün, obyektiv qiymət verilməsi və onların xalqa çatdırılmasında, eləcə də mövzuların düzgün seçilməsi, onların təsir dairəsinin məqsədyönlü müəyyənləşdirilməsi kütləvi informasiya vasitələrinin nüfuzunu, ictimai hadisə və proseslərə təsir gücünü xeyli yüksəldir. Siyasi uğurların, siyasi liderlərin, partiyaların, ictimai-siyasi təşkilat və birliklərin məqsədyönlü, səmərəli fəaliyyətinin mətbuatda öz əksini tapması çox dəyərli haldır. Sağlam tənqidə geniş yer vermək, siyasi həyatın əhəmiyyətli və neqativ məqamlarına mətbuatda aydınlıq gətirmək cəmiyyətin demokratik, sivil inkişafının rəhnidir. Heydər Əliyev böhran içində olan Azərbaycanın o zamankı bəlalarını görür və bundan xilas olmaq yollarını siyasi mətbuatın vasitəsi ilə xalqa cəsarətlə açıqlayırdı:

«Respublikanın daxili siyasi həyatında bütün hakimiyyət strukturları üzərində əslində hakim AXC-nin inhisarı hökm sürür, xalq isə bu hüququ ona verməmişdi. Bütün vasitələr bircə prinsip – AXC-yə mənsub olmaq prinsipi əsasında bölüşdürülür» (93).

Yeni Azərbaycan Partiyası 1993-cü il aprel ayından öz siyasi orqanı olan ictimai-siyasi qəzetini - «Yeni Azərbaycan»ın ilk sayını nəşr etməyə başlamışdır. Partiyanın sədri qəzetin ilk nömrəsinin çıxması münasibəti ilə redaksiyanın kollektivini, partiya üzvlərini və Azərbaycan xalqını təbrik etmişdir. O, qəzetə həqiqət carçısı və Azərbaycanın müstəqillik yollarında mayak olmağı arzı etmişdir.





Heydər Əliyevin fəal vətəndaşlıq mövqeyi, Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sferalarında, xüsusilə xilaskarlıq sahəsindəki əsl siyasi liderliyi artıq qabarıq surətdə nəzərə çarpırdı. Müstəqilliyimizin ilk dövrlərində siyasi mətbuata dərin nüfuz edən Heydər Əliyev fikirləri, ideyaları artıq öz bəhrəsini verməkdə idi.

Mətbuatda siyasi çeviklik artırdı. Azadlıq, müstəqillik uğrundakı Heydər Əliyevin demokratik fikir və düşüncələri, ideyaları bütün siyasi mətbuatımızı fəallaşdırırdı.

«Moskosskie novosti» qəzetinin müxbirinin sualına Heydər Əliyevin münasibəti məhz bu baxımdan diqqəti cəlb edirdi:

- «Çörçilin dediklərini xatırlayın: «İngiltərənin mənafeləri tələb edərsə mən öz dünya baxışlarımı üç dəfə dəyişməyə hazıram». Təkcə dövlət xadimi adlanmağı deyil, həm də dövlət xadimi olmağı istəyən şəxslər, bax, bunu əsas tutmaladırlar».

Müxbir: «Siz son sözünüzü deməyən siyasətçi kimi tanınırsınız... Amma Sizə elə gəlmirmi ki, nəzərdə tutduğunuzu həyata keçirmək üçün tarix Sizə minimum vaxt ayırıb... Üzr istəyirəm, mən yaşınızı nəzərdə tuturam».

- «Məndən dəfələrlə soruşublar ki, hakimiyyətə gələ bilərəmmi? Demişəm, bir də deyirəm «Mənim buna iddiam yoxdur». Mən öz borcumu bacardığım qədər yerinə yetirmişəm. Tarix hələ bundan sonra haqq-hesab edəcək ki, kim öz xalqına necə xidmət göstərib. Xalq öz iradəsini ifadə edib məni çağırsa, onda mən xalqın iradəsinə tabe olaram. Mənim yaşıma gəldikdə isə heç kimə məlum deyil ki, Allah-taala ona nə qədər ömür payı ayırıb!» (92).

Heydər Əliyev uzun illər ərzində qazandığı zəngin

təcrübə və siyasi səriştəsindən çıxış edərək özünüdərketmə və milli şüurun geniş yayılma prosesinə təkan verərək siyasi uzaqgörənliklə mətbuatda yazırdı:

- «Mən o kəslərdən biriyəm ki, 1991-ci ildə Sovet İttifaqının dağılmasına tərəfdar çıxdım. Onda Sovet İttifaqının hələ saxlanılmasına cəhd göstərilirdi və Sovet İttifaqının saxlanması xeyrinə ölkədə referendum keçirilmişdi. Lakin bu referendum Sovet İttifaqının mümkünlüyü barədə qərar çıxarsa da, ictimai-tarixi inkişafın gedişi sübuta yetirdi ki, sovet ittifaqı öz imkanlarını tükəndirmişdir. Bu belə də olmalı idi və bu Azərbaycan xalqına öz milli azadlığı və dövlət müstəqilliyini əldə etməyə imkan verdi» (29, 350).

Heydər Əliyev fenomeni Azərbaycanda yeni dövrün başlanması prosesini uğurla sürətləndirir, inkişaf etdirirdi. Nəhayət, Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ikinci dövrü başlayırdı. Bu zaman etibarilə 1989-2003-cü illəri əhatə edir. Məhz həmin zaman kəsiyində Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə müstəqil Azərbaycan dövlətçiliyini daha da möhkəmləndirdi. Eləcə də siyasi mətbuatın inkişafında əvvəllər mövcud olan bütün maneələri aradan qaldırdı, hakimiyyətin dördüncü qolunun siyasətlə, hakimiyyət strukturları ilə məqsədyönlü və səmərəli əlaqəsini təmin etdi.

Kütləvi informasiya vasitələri siyasi həyatın həm subyekti və eləcə də obyektidir. Bu cəhət ondan irəli gəlir ki, KİV-nin özü və təbii ki, mətbuat da sosial gerçəkliyin komponentidir. O sosial reallığı bütün mürəkkəbliyi və ziddiyyətləri ilə birlikdə bu və ya digər formada təkrar istehsal edir. Heç də təsadüfi deyil ki, informasiya axını bütövlükdə KİV-də və ayrılıqda mətbuatın xüsusi komponenti kimi səciyyələnən siyasi mətbuatda xeyli ziddiyyətlərdən, bir-birinə qarşı çevrilən məlumat və ma-





teriallardan ibarət olur. Müəyyən məqamlarda KİV-in həmin məlumat və materialları bütövlükdə ictimai rəyin formalaşmasına təsir göstərir. Kütləvi informasiya vasitələrinin pozitiv və ya neqativ rolu onunla əsaslanır ki, bu informasiya vasitələrindən hansı qüvvələr istifadə edir, özü də hansı məqsədlərlə. (23, 199-200)

Kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturlarının qarşılıqlı münasibəti müxtəlif forma və vasitələrlə reallaşdırılır. Siyasi liderlərlə, siyasi xadimlərlə KİV nümayəndələrinin əlaqəsində mətbuat konfransları əhəmiyyətli rol oynayır. İlk mətbuat konfransının keçirilməsi öz xalqı və dövləti üçün xeyli siyasi, iqtisadi uğurlara nail olan ABŞ prezidenti T.Ruzveltin adı ilə bağlıdır. ABŞ-da vətəndaşlıq hüququ əldə edən mətbuat kofransları sonralar dünyanın digər ölkələrinə, o cümlədən müstəqil Azərbaycana da nüfuz etmişdir. Heydər Əliyevin siyasi lider kimi fəaliyyət göstərdiyi müddət ərzində dünyanın böyük dövlətlərinin rəhbərləri keçirdiyi çoxsaylı görüşlərin nəticələrinə həsr edilən mətbuat konfransları siyasi əhəmiyyətini hər zaman saxlayır. Həmin mətbuat konfransları, Heydər Əliyevin kütləvi informasiya vasitələrinə, eləcə də mətbuata verdiyi müsahibələr və belə səciyyəli digər tədbirlər birmənalı olaraq hakimiyyətin KİV ilə qarşılıqlı səmərəli əlaqələrinin yaranmasına xidmət etmişdir. Siyasi mətbuatda Heydər Əliyev mərhələsinin səciyyəvi və əhəmiyyətli məqamlarından biri məhz hakimiyyətlə mətbuatın qarşılıqlı münasibətinin genişlənməsidir. Televiziya, radio və mətbuat vasitəsilə sosial-iqtisadi və siyasi-mənəvi xarakterli çox mühüm problemlərin izah edilməsi KİV ilə hakimiyyət dairələrinin, xüsusilə siyasi xadimlərin əlaqəsinin fasiləsizliyinə yönələn əhəmiyyətli amildir. Məlum olduğu kimi, hakimiyyətdə olanların məşhurlaşmasında, həyata ke-

çirdikləri siyasətin beynəlxalq aləmdə nüfuz qazanmasında departamentlər (ali dövlət idarələri) əhəmiyyətli rol oynayırlar. Lakin gündəlik praktika dönə-dönə təsdiqləyir ki, bu məsələdə mətbuat xidməti müstəsna əhəmiyyətə malikdir. Prezidentin, baş nazirin, hökumətin siyasəti və «siyasi imici» kütləvi informasiya vasitələrinə və onların vasitəsilə hər yerə məhz, mətbuat xidməti vasitəsilə çatdırılır. Heç də təsadüfi deyil ki, Heydər Əliyev mətbuat xidmətinin, eləcə də siyasi mətbuatın rolu və əhəmiyyətini həmişə yüksək qiymətləndirirdi.





# II FƏSİL

# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ MİLLİ-SİYASİ DƏYƏRLƏRİN BAŞLICA MEYARIDIR

## § Müasir, demokratik dövlətin yaradılmasında Heydər Əliyevin rolu

1993-cü ilin iyunun 9-da Bakıya gələn Heydər Əliyev iki gün sonra Azərbaycan Elmlər Akademiyasının rəyasət heyətinin binasında Azərbaycanın elm xadimləri ilə görüşmüşdür. Bu gəliş qüdrətli müstəqil, müasir Azərbaycan dövlətinin yaradılmasına böyük təkan verdi.

Ölkə paytaxtına gələn kimi Heydər Əliyevin ilk görüşünü Azərbaycan Elmlər Akademiyasında ziyalılarla keçirməsi heç də təsadüfi deyildi. Alimlərlə görüşünün vacibliyini onlara açıqlayaraq, indi elm adamlarına və ziyalı sözünə böyük ehtiyacı olduğunu qeyd edən Heydər Əliyev "respublikanın bu ağır vaxtında bütün imkanlardan maksimum istifadə edəcəyəm" – dedi.

1993-cü il iyunun 15-də xalqımızın və vətənimizin tarixində Qurtuluş günü kimi qalacaq böyük bir hadisə baş verdi: Həmin gün Milli Məclisin iclasında Heydər Əliyev böyük səs çoxluğu ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Azərbaycan Respublikası Ali Sovetinin iclasındakı tarixi xarakterli çıxışında Heydər Əliyev dedi: "Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə gəlisin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq. Müstəqilliyi və suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Erməni-

stan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır, ərazi bütövlüyü təmin olunmalıdır.

...Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat və mətbuat azadlığı bərqərar olunmalıdır".

Heydər Əliyev bütün xalqı vətəndaş birliyinə, birləşməyə, Azərbaycanın işğal olunmuş ərazilərini geri qaytarmağa, ölkəni ağır, böhran vəziyyətindən çıxarılmağa çağırmışdır (12).

Həmin çıxış qüdrətli müstəqil Azərbaycan dövlətinin yaradılmasına təkan verdi.

Ali Sovetin sədri Heydər Əliyev iyunun 20-də mətbuat üçün böyük bir brifinq keçirdi. O, ölkədə yaranmış ictimai-siyasi vəziyyət haqqında müfəssəl məlumatları jurnalistlərə çatdırdı. Onların çoxsaylı, müxtəlif məzmunlu suallarını cavablandırdı. Dünyanın və MDB ölkələrinin mətbuat işçiləri Bakıya yığışmışdılar. Ölkədəki böhran, xüsusilə Gəncə hadisələri və Ermənistan silahlı qüvvələrinin Yuxarı Qarabağa hücumlarının genişləndirilməsi qəzetlərin əsas mövzularına çevrilmişdi.

Belə ağır, böhranlı günlərə baxmayaraq, siyasi lider Heydər Əliyev artıq yeni, müstəqil Azərbaycan dövlətçiliyinin sükanını əlinə keçiridi.

Siyasi lider yalnız siyasi hadisələri izləyən, onlara istiqamət verən, insanlara rəhbərlik edən, bir neçə siyasi birlikləri, partiyaları birləşdirərək ideoloji cəhətdən özünə tabe etdirən siyasi xadim deyildir. Siyasi lider əslində, cəmiyyətdə baş verən olayları qabaqcadan hiss edən, tədbir görməyi bacaran, təşkilatçılıq və siyasi fəaliyyətlə bağlı olan hadisələri xalqın, vətənin mənafeyinə istiqamətləndirən şəxsiyyətdir.





Heydər Əliyevi siyasi lider kimi səciyyələndirən bütün keyfiyyətləri təhlil edərək ona xas olan iki başlıca cəhəti qeyd etmək olar: birinci onun fəlsəfi, tarixi və siyasi konsepsiyalarla mənalanan görüşlər sistemi, milli-ideoloji dəyərlərlə cilalanan təfəkkür tərzi, ikincisi isə insanları öz ardınca aparmaq, təşkilatçılıq qabiliyyəti, dərin praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr işləyib hazırlamaq, uzaqgörənlik qabiliyyəti. Akademik Ramiz Mehdiyevin dediyi kimi, "tarixi şəxsiyyət kimi Heydər Əliyev Azərbaycanın dövlət quruculuğunda, müstəqil inkişafının fundamental bazası olan əzəli və ədəbi dəyərlərin daşıyıcısı və yaradıcısıdır" (50, 44).

Öz parlaq siyasi zəkası, xalqı ətrafında birləşdirmək bacarığı, insanları vətənin, xalqın xilası və tərəqqisi naminə vahid ideya ətrafında səfərbər etmək qabiliyyəti Heydər Əliyevi böyük siyasi xadim və ümummilli lider kimi təsdiqləyən keyfiyyətlərdir. Qüdrətli müstəqil Azərbaycan dövlətinin qərarlaşması məhz belə keyfiyyətlərə yiyələnən liderin fəaliyyəti sayəsində mümkündür.

Marqaret Hermann yazırdı: "Liderlik çox cəhətli anlayışdır. Onun təzahür formalarını nəzərdən keçirərək, birincisi, liderlərin öz xarakterini, ikincisi, onun tərəfdarlarının və ardıcıllarının səciyyəvi cəhətlərini, üçüncüsü, liderlə onun tərəfdarları arasındakı qarşılıqlı əlaqələri, dördüncüsü isə liderliyin həyata keçirildiyi konkret situasiyanı nəzərə almaq lazımdır".

Bu mənada böyük alman sosioloqu Maks Veberin harizmalı lider anlayışı məhz Heydər Əliyevin siyasi simasında aydın nəzərə çarpır. "Rəhbərin şəxsi xarakterli və xalqın ona fantastik məhəbbəti və sədaqəti bir-birini tamamlayır" (69, 214).

Qərb politoloqlardan Robert Takker yazır ki, F.Trumen fövqəladə zəkaya və başqalarının rəyini nəzə-

rə almaq qabiliyyətinə malik olan siyasi lider idi. Tedor Ruzvelt sanballı mütəxəssislərdən ibarət olan komandası ilə özünəməxsus "beyin tresti" yarada bilmişdi. Bununla yanaşı, o, ölkəni ən dərin iqtisadi böhrandan çıxarmağa qadir olan proqram həyata keçirmişdi. Bu mənada F.Trumen T.Ruzvelti "Amerikanın yenidən qurulmasının atası" adlandırmağa mənəvi haqqı olduğunu yazırdı. Heydər Əliyev isə qüdrətli, müasir, müstəqil Azərbaycanın yaradıcısı, Yeni Azərbaycan Partiyasının banisi kimi tarixə əbədi həkk olunmuşdur.

Müasir, müstəqil Azərbaycanın yenidən qurulmasının ilk dövrləri çətinliklə üzləşsə də, Heydər Əliyevin düzgün və səmərəli siyasi xətti sayəsində uğurla davam etdi.

Həmin tarixi məqamı səciyyələndirərək Heydər Əliyev demişdir: "İnanıram ki, xalqımız tarixin bu çətin sınağından da çıxacaq, ərazi bütövlüyünü qoruyacaq və tezliklə respublikamızda sülh, əmin-amanlıq bərpa olunacaqdır. Bundan ötrü mən parlamentin rəhbəri kimi əlimdən gələni edəcəyəm" (48, 435).

Azərbaycan Respublikasının mürəkkəb ictimai-siyasi hadisələrlə üzləşdiyi dövrdə zəngin siyasi platformaya malik olan Heydər Əliyev ictimai hadisələr fonunda hakimiyyət və təşkilat qaynaqlarında siyasi liderliyin dairəsini genişləndirirdi. İctimai və siyasi həyatımızda, dövlətçilik səhnəsində siyasi Lider öz qətiyyətli mövqeyini təzahür etdirir, bacarığını, vətəndaşlıq ləyaqətini bir daha xalqa nümayiş etdirdi. Heydər Əliyev hətta sovet dövründə milli-mənəvi dəyərlərimizə sadiq siyasi lider kimi fəaliyyət göstərirdi.

"Xatırımdadır, mən hələ MK-nın birinci katibi seçildiyim ərəfədə Dağlıq Qarabağ, Şuşa haqqında bir kitab çıxmışdı. Səhv etmirəmsə, müəllifi Firudin Şuşinski





idi. Bu kitabı çox gözümçıxdıya salmışdılar. Təəssüf ki, Bakıda olan bəzi ziyalılar da bu kitabın əleyhinə çıxmışdılar. Mən o zaman ermənilərin hücumunun qabağını aldım. Hələ 1968-ci ildə DTK-də sədr olarkən ermənilər tərəfindən azərbaycanlı Ərşad müəllimin yandırılması ilə əlaqədar dərhal Şuşaya gəlmişdim. Əgər yadınızdadırsa, Qarabağ məsələsi mən Moskvada hakimiyyətdən gedəndən cəmi bir həftə sonra başladı. Deməli, ermənilər mənim siyasi fəaliyyətdən kənar olmağımı gözləyirdilər" (48, 219).

"Heydər Əliyevin Azərbaycan siyasi səhnəsində artıq ikinci dəfə dan ulduzu kimi parlaması", onun qətiyyətli dövlətçilik fəaliyyəti respublikamız üçün obyektiv və çoxşaxəli bir hadisə idi (47, 99).

Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev Azərbaycanın ən böhranlı dövründə hər iki vəzifənin – həm parlament sədrliyinin, eləcə də prezident məsuliyyətinin ağırlığını öz üzərinə götürərək, yorulmadan fəaliyyət göstərirdi. Elə bu ağır, məsul dövrdən başlayaraq, Azərbaycan Respublikasında siyasi demokratik mətbuatın təşəkkül tapmasında keyfiyyətcə yeni mərhələ başlayırdı.

"Məhz bu zamandan – 1993-cü ilin ortalarından etibarən respublikamızın müstəqilliyinin, Avropa inteqrasiya proseslərinə qoşulmasının növbəti, üçüncü mərhələsi başlandı. Bu mərhələ XX əsrin nəhəng siyasi xadimi Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır" (36, 59).

Beləliklə, həqiqi dövlət və vətəndaş cəmiyyətinin təşəkkülünə yeni imkanlar açılır və belə cəmiyyətin inkişafında demokratiyanın inkişaf səviyyəsi böyük əhəmiyyətə malik idi. Təbii ki, demokratik inkişaf prosesi qurulmaqda olan müstəqil Azərbaycan dövlətinin gələcək si-

masına və siyasi varlığına xidmət etməli idi. İctimai həyatı təşkil edən və tənzimləyən vətəndaş cəmiyyəti kimi qüdrətli sferanın cəmiyyətimizə nüfuzu böyük hadisədir.

Azad, müstəqil mətbuatı, siyasi plüralizmi qərarlaşdıran vətəndaş cəmiyyəti demokratik dövlətin ən mühüm tərəfidir. Vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi demokratiyanın inkişaf səviyyəsini ifadə edir. Elə buna görə Heydər Əliyev cəmiyyətimizdə demokratik dəyərlərin və prinsiplərin bərqərar olmasına böyük əhəmiyyət verirdi, bunu həm də qüdrətli müstəqil dövlətin formalaşmasının meyarlarından biri kimi mənalandırırdı. O bildirirdi ki, vətəndaş cəmiyyətinin təşəkkülü cəmiyyətin mütərəqqi qüvvələrinin uzunmüddətli mübarizəsində əldə olunmuş məqsədyönlü dəyişikliklərin nümunəsidir.

1993-cü ilin oktyabrın 3-də respublikada Azərbaycan Respublikası prezident seçkiləri keçirildi. Bu seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev andiçmə mərasimində demişdir: "Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı bir qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz!

Dövlət müstəqilliyimizi möhkəmləndirmək, müstəqil dövlət quruluşunu formalaşdırmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək Azərbaycan Respublikasının ərazi bütbvlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublika əhalisinin rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim prezidentlik fəaliyyətimdə əsas istiqamətləri olacaqdır".

"Yolumuz demokratiya yoludur" deyən Heydər Əliyev çoxpartiyalı sistemin, hüquqi vətəndaş cəmiyyəti-





nin yaranmasına münbit şərait yaradır, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasına, respublikada demokratik dəyişikliklərin, mətbuatda azad sözün, açıq fikrin, həmçinin Azərbaycan Respublikasının demokratik, hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağına and içir.

Dövlətçilik problemini tədqiq edən görkəmli alim Nikolay Sedıx bildirir ki, "Beynəlxalq hüquq və siyasi aspekt nöqteyi-nəzərindən dövlətin xarakteristikası üçün onu təşkil edən üç başlıca ünsür: ərazi, əhali və hakimiyyət böyük əhəmiyyətə malikdir" (94, 119).

Heydər Əliyev andiçmə mərasimində həmin üç ünsürü ön plana çəkərək, öz dövlətşünaslıq baxışlarını belə açıqlamışdır:

- "Respublikanın daxilində nisbi sakitlik və sabitlik yaransa da biz hələ təhlükə altındayıq. Azərbaycan torpaqlarının təxminən 20 faizi işğalçıların əlinə keçmişdir.

Ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikaın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı – bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır".

Respublika əhalisinin təhlükəsizliyinə, vətəndaşların rifah halının yaxşılaşdırılmasına xüsusi diqqət yetirən prezident daha sonra demişdir: "Respublikanın böyük iqtisadi-sosial, elmi texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondlar respublikanı ağır böhrandan çıxarmağa imkan verəcəkdir!"

Dövlətçiliyin üçüncü başlıca ünsürü sayılan hakimiyyətin möhkəmləndirilməsi ilə bağlı dövlət başçısı de-

mişdir:

- "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət, hakimiyyət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır" (6).

Dövlət müstəqilliyini təşkil edən başlıca əlamətlərlə əlaqədar görkəmli maarifçimiz Yusif Vəzir Çəmənzəminli hələ 1919-cu ildə "Azərbaycan" qəzetində yazmışdı:

"Dünyada hər bir dövləti təşkil edən üç amildir: Torpaq, Millət və Hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir" (6). Heydər Əliyevin bütün siyasi fəaliyyəti müstəqilliyimizin rəhni hesab edilən həmin üç atributu möhkəmləndirilməsinə, qorunub saxlanmasına və təkmilləşdirilməsinə istiqamətlənmişdi.

Dövlətin müstəqilliyinin təmin olunması sosial-iqtisadi və hərbi siyasi xarakterli xeyli amillərdən asılıdır. Əlbəttə, dövlət hakimiyyəti daxili ziddiyyətlərlə yanaşı, xarici ziddiyyətləri, yəni digər ölkələrlə münasibətlərdə təzahür edən münaqişəli vəziyyəti aradan qaldırmağa, meydana çıxan dövlətlərarası ziddiyyətləri tənzimləməyə səy göstərməlidir. Bununla bağlı dövlət hakimiyyətini həyata keçirən siyasi elita eləcə də müdafiə vəzifələrini həll etməli, diplomatik münasibətlərin həyata keçirilməsini reallaşdırmalıdır. Heydər Əliyevin dövlətçilik fəaliyyəti məhz bu nöqteyi-nəzərdən milli-tarixi hadisədir.

Müasir şəraitdə dövlətin inkişafında çoxsaylı meyillər təzahür edir. İqtisadi və siyasi həyatın inteqrasiyası, xüsusi ideologiyaya malik olmaq və s. bu qəbildəndir. Lakin müstəqilliyini yenicə elan etmiş ölkə üçün ilk öncə cəmiyyətin əsl birliyinin təminatçısı kimi mövcud olan





xüsusi ideologiyaya malik olmaq çox dəyərlidir. Əgər cəmiyyətin vahid şəkildə birləşdirilməsi ideyası mövcud deyilsə belə halda hər hansı dövlət öz inteqrasiya funksiyasını itirir. Nəticə etibarilə bu və ya digər dövlət cəmiyyətin ümumi mənafeyini ifadə etmək, müxtəlif sosial qrupların və təbəqələrin maraqlarını uzlaşdırmaq imkanından məhrum olur.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə məhz belə milli mənsubiyyət mövqeyindən çıxış etmişdir. İdeoloji meyar bugünkü Azərbaycan üçün olduqca zəruridir. Vahid milli ideologiyanın mövcudluğu vətənimizdə bütün xalqın dövlət ətrafında sıx birləşməsinin, milli birliyin, əsl vətəndaşlığın və vətənpərvərliyin qərarlaşmasını reallaşdırmış olardı. Yeri gəlmişkən qeyd edək ki, "vətəndaşlıq" və "vətənpərvərlik" anlayışlarını eyniləşdirmək olmaz. Vətənpərvərlik daha geniş anlayış olmaqla məhz vətənə münasibəti (hərtərəfli), vətəndaşlıq isə dövlətə münasibəti ifadə edir. Bütün vətənpərvər insanlar əsl vətəndaşdır, lakin bütün vətəndaşlar vətənpərvər olmaya da bilər. Bu mənada ümummilli lider respublikamızda insanlarda, ilk öncə isə gənclərdə əsl vətənpərvərliyin formalaşdırılmasına xüsusi diqqət yetirirdi. Çünki qüdrətli müstəqil Azərbaycanın varlığı məhz bu qüdrətli amillə bağlıdır.

Ölkənin müstəqilliyi üçün daxildən və xaricdən təhlükə yarandığı məqamlarda dövlət başçımız əzmkar, qətiyyətli mövqe nümayiş etdirərək yaranmış təhlükələri, məsələn, 1995-ci ilin mart ayında ölkə daxilində dövlət çevrilişi cəhdlərini aradan qaldırmağa müvəffəq oldu. Yeri gəlmişkən qeyd edək ki, bu işdə mətbuat da böyük rol oynadı. Heydər Əliyev KİV-in, xüsusilə mətbuatın xalqın, dövlətçiliyin mövqeyindən çıxış etməsini dəfələrlə yüksək qiymətləndirmişdir. Təsadüfi deyil ki, onun vax-

tında dövri mətbuat növlərinin sayı çoxalırdı. Ölkədə yaranmış demokratiya hər bir vətəndaşa öz rəyini, fikrini sərbəst ifadə etmək hüququ və imkanları verdi. Siyasi plüralizmin geniş inkişafı demokratik cəmiyyət quruculuğunun vacib göstəricilərindən biri kimi dəyərləndirilməlidir.

Heydər Əliyevin dövlətçiliyimizi təkmilləşdirmək və möhkəmləndirmək səylərini, analitik siyasi təfəkkürə və zəngin siyasi təcrübəyə malik olmasını aşağıdakı fikirlər bir daha sübut edir:

Bill Klinton: (ABŞ-ın keçmiş prezidenti). Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı yox, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir (5).

Jan Düre (fransız sovetoloqu)

"- Cənab Heydər Əliyev, Siz canlı əfsanəsiniz!"(51,141)

Çingiz Aytmatov:

"- Heydər Əliyev XX əsirin görkəmli Liderlərindən biri kimi müasir, demokratik Avrasiyanın yeni tarixinin bu günkü qurucularındandır" (58).

Belə fikirlər çoxsaylıdır.

### § Demokratik milli dəyərlərin təşəkkülünə və inkişafına siyasi partiyaların, siyasi mətbuatın təsiri

İctimai fikir və isyasi elm tarixində "demokratiya" anlayışı uzun müddət və əsasən, antik yunan fəlsəfəsinin ensiklopedik nümayəndəsi Aristotelin bu anlayışı açıqladığı səpkidə başa düşülmüşdür. Yeni dövrdə Avropada mövcud olan siyasi baxışlar demokratiya anlayışının məzmununu siyasi təşkilin forması prinispi ilə zənginləşdirdi. Demokratiya anlayışının məzmununun dəyişikliyə məruz qalması ilə bağlı həmin anlayışdan yalnız dövlətə münasibətdə deyil, həmçinin, lokal sosial-siyasi birliklə-





rə münasibətlə bağlı məqamlarda da istifadə edildi.

"Demokratiya" yunan dilində üç söz birləşməsindən yaranıb: demos-xalq, kratos-hakimiyyət, kratein-ağalıq etmək və xalqın hakimiyyəti mənasını əks etdirir. Müasir demokratiya məhz mənafelərin nümayəndəliyi nöqteyi-nəzərindən başa düşülür. Demokratiya idarəetmənin və cəmiyyətin siyasi təşkilinin başlıca formalarından biri kimi səciyyələnir. Müasir şəraitdə demokratik prosesin mühüm istiqamətlərindən biri məhz nümayəndəli demokratiyanın formalaşması və inkişafıdır, başqa sözlə seçki hüququnun daim təkmilləşdirilməsidir. Demokratiyanın ən əhəmiyyətli təminatı və eləcə də nəticəsi vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qərarlaşması prosesidir.

Demokratik prosesin inkişafına təkan verən çoxsaylı amillər mövcuddur. Həmin amillər sırasında siyasi təsisatlar, eləcə də siyasi partiyalar və siyasi mətbuat özünəməxsus əhəmiyyət kəsb edir. Demokratiya aşağı səviyyədə məhz siyasi partiyalar sistemi vasitəsilə müəyyənləşir, özü də iki variantda: tək və çoxpartiyalılıqla. Çoxpartiyalı sistem demokratik hesab olunur.

Siyasi partiyalar müasir demokratik cəmiyyətin siyasi sisteminin ayrılmaz komponentidir.

Demokratik, sivil ölkələrin siyasi həyatını partiyalarsız təsəvvürə gətirmək çətindir. Məhz bu mənada, siyasi partiyaların görkəmli ingilis tədqiqatçısı R.Douz haqlı olaraq bildirir ki, ictimai təşkilatlar sırasında "ən siyasiliyə malik olan partiyadır".

İlk siyasi partiyaların mövcudluğu zaman etibarilə antik dövrə, orta əsrlərə və yeni dövrə təsadüf edir. Görkəmli ispan politoloqu Sanisteban qeyd edir ki, "tarix boyu mövcud olmuş siyasi sistemlərdə insanlar öz xüsusi maraqlarını qorumaq və öz iradəsinin hakimliyini yeritmək üçün təşkilatlanmışlar. Bu mənada siyasi partiyalar

artıq Qədim Yunanıstan və Romada, orta əsr Avropasında və dirçəliş dövrlərində mövcud idi" (65, 36). Hazırda elə bir ölkə təsəvvür etmək çətindir ki, orada partiya mövcud olmasın. Cəmiyyətdəki yeri və roluna görə, siyasi proseslərə təsiri və demokratik dəyərlərin formalaşdırılması baxımından tədqiqatçılar siyasi partiyaları müxtəlif mövqedən qiymətləndirirlər. R.J.Şvartsenberq bildirir ki, "siyasi partiya fasiləsiz fəaliyyət göstərən təşkilat olub həm milli, həm də yerli səviyyədə mövcudluğu ilə səciyyələnir, hakimiyyəti ələ almağa və ya yola salmağa istiqamətlənir və bu məqsədlə xalq tərəfindən müdafiə olunmasına cəhd göstərir".

Siyasi partiya anlayışına münasibətdə başlıca cəhəti seçkilərlə, seçki prosesi ilə bilavasitə əlaqələndirən müəlliflərə də təsadüf olunur. Məsələn, C.Sartori siyasi partiyaları "seçkilərin keçirilməsində fəal iştirak edən və bunun sayəsində öz namizədlərini dövlət təsisatlarına göndərmək imkanına malik olan siyasi qrup" kimi qiymətləndirir. Rusiyanın tanınmış politoloqları V.P.Puqaçev və A.İ.Solovyev iddia edirlər ki, "partiya tarixən formalaşmaq nəticəsində özünü ixtisaslı, təşkilati cəhətdən tənzim olunan, bu və ya digər məqsədlərə daha fəal meyil göstərən, adamları birləşdirən, hakimiyyətin əldə edilməsi və siyasi hakimiyyətdən istifadə olunması uğrunda mübarizə aparan təşkilat kimi təzahür etdirmişdir" (96, 213).

Averyanovun redaktorluğu altında çap olunan politologiyaya aid ensiklopedik lüğətdə isə partiyaya belə tərif verilir: "Siyasi partiyap xalqın bir hissəsinin maraqlarını ifadə edən dövlət hakimiyyətini əldə etməklə və ya onun həyata keçirilməsində iştirak etməklə onun mənafeyini reallşaşdırmağa çalışan həmfikirlərin mütəşəkkil qrupudur" (95, 245).





Respublikamızda siyasi elmin yorulmaz tədqiqatçısı olan Məcid Əfəndiyev yazır: "Siyasi partiyaların formalaşmasının spesifikliyindən, onların inkişaf tarixindən asılı olmayaraq, bütün hallarda bu proseslər kütlələrin dövlətin idarə olunmasına cəlb edilməsinin obyektiv tələbatını, cəmiyyətin demokratikləşməsinin qanuna uyğun meyilini, xeyli regionda isə xalqların milli müstəqilliyə can atmasını ifadə edir" (21, 417). Respublikamızda partiyaların formalaşması prosesinin mahiyyəti, xüsusilə ölkəmizin hakim partiyası hesab olunan Yeni Azərbaycan Partiyasının yaranması müəllifin bu fikrini aydın təsdiqləyir. Azərbaycanda siyasi partiyaların təşəkkülü və inkişafı prosesini tədqiq edən Aydın Mirzəzadə bildirir ki, "Bu gün siyasi partiyalar dünyanın praktiki olaraq bütün ölkələrində mövcuddur və onların siyasi həyatında fəal rol oynayırlar. Eyni zamanda, təcrübə göstərir ki, partiya və partiya sistemləri heç bir ölkədə əbədi deyildir və daima inkişafdadır. Bu inkişaf prosesi partologiyaya yeni nəzəriyyələrin və elmi fikirlərin gəlməsinə və bununla bağlı siyasi partiyalar haqqında elmi mübahisələrin güclənməsinə səbəb olur" (16, 16).

Yeni Azərbaycan Partiyasının Proqramının politoloji təhlili belə qənaətə gəlməyə əsas verir ki, o ölkə daxilindəki digər partiyalardan bəzi məsələlərə münasibətdə əhəmiyyətli dərəcədə fərqlənir. Müəyyən partiyalarla müqayisədə sinfi əlamətlərə üstünlük verməyən YAP "demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılması üçün... respublikanın bütün ictimai-siyasi qüvvələrindən, intellektual potensialından istifadə olunmasını" təklif edən partiyadır. Digər partiyaların proqramlarında isə sosial, iqtisadi və s. xarakterli məsələlərə diqqət yetirilir. Məsələn, iqtidaryönlü «Ana Vətən» Partiyası da elan etdiyi Proqramda iqtisadiyyat məsələsini daha çox

mənalandırır, bazar iqtisadiyyatının təşəkkülü və inkişafına xüsusi diqqət yetirir.

YAP-ın Proqramının mənəvi dəyərləri isə bununla səciyyələnir ki, xalqın milli, mədəni, mənəvi irsinə, maarifçiliyə, ağıllı varisliyə əsaslanan ümumbəşəri dəyərlər təməlində yaradıcı təkamül yolunun inkişaf etdirilməsi prinsipini səsləndirir (YAP Proqramı (ilk variantda "Partiyanın əsas prinsipləri" bölməsi).

YAP-ın Proqramında müxalifətə münasibət, sosial, iqtisadi və digər xarakterli məsələlər də diqqətdən yayınmır. Müxalifətə münasibətlə bağlı YAP-ın sədri Heydər Əliyev bu partiyanın beşillik yubileyində səmimi və qətiyyətlə bildirmişdi ki, Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirlər.

Güclü sosial bazaya, praqmatik proqrama, güclü təşkilati strukturla və nüfuzlu liderə malik olan Yeni Azərbaycan Partiyasının meydana gəlməsi ilə 1992-ci ilin sonunda Azərbaycan Respublikasında çoxpartiyalı siyasi sistem əsasən, formalaşmış oldu (9).

Partiyaların funksiyalarını ümumi formada səciyyələndirərkən tədqiqatçılar həmin təsisatın mahiyyətindən çıxış edirlər. Bu ümumi funksiyalar sırasında xüsusi yer tutanı siyasi sistemdə müxtəlif sosial qrupların mənafelərinin müdafiə olunmasının ümumiləşmiş formada təzahürü və ifadəsi sayılır (85, 287). Digər əhəmiyyət kəsb edən ümumi funksiya isə ictimai qrupların sosial mənafelərini əks etdirən ideologiyanın və siyasi doktrinanın işlənib hazırlanmasıdır (85).

Ümumi funksiyalar sistemində məlumatların kommunikativ kanallarının strukturunun təşkili də əhəmiyyətli yer tutur. Siyasi partiyaların ümumi funksiyalarının məcmunda, eləcə də idarə edən elitanın formalaşması spesifik məna kəsb edir. Bu sadaladığımız ümumi funksiyalar YAP-ın fəaliyyətində ardıcıl, rasional və optimal aspektdə aydın nəzərə çarpır. YAP-ın fəaliyyətinin bütün istiqamətləri respublikamızda demokratik proseslərin təşəkkülü və inkişafına faydalı təsir göstərir.





Əlbəttə, demokratiyanın formalaşmasında iqtidaryönlü və digər partiyalar da özünəməxsus rol oynayırlar. Partiyalar müxtəlif səviyyələrdə və dərəcədə demokratik siyasi proseslərdə əməli surətdə iştirak etməklə siyasi sistemə uyğunlaşmağa zəmin yaradır, siyasi sistemin daha da təkmilləşdirilməsinə ciddi təsir göstərir və ya əksinə, onun sarsılması məqsədilə ictimai rəyin müvafiq istiqamətini formalaşdırırlar. Bəzi müxalifət partiyaları, xüsusilə AXCP və Müsavat Partiyaları məhz siyasi sistemin zəiflədilməsi istiqamətində təbliğati fəaliyyəti ilə diqqəti cəlb edirlər. Əlbəttə, respublikamızda demokratiyanın ardıcıl və qətiyyətlə formalaşdırılmasına töhfə baxımından bütün partiyaların hakim YAP-la və hakimiyyət strukturları ilə fasiləsiz rasional fəaliyyəti daha məqsədəuyğundur.

Partiyanın daha zəruri funksiyası bundan ibarətdir ki, o hakimiyyət orqanlarının formalaşmasına, onlara nəzarət etmək məqsədilə partiyaların sayının çoxluğuna və bunların dövlət orqanlarına seçkilərdə iştirakına, sosial münaqişələrin sülh yolu ilə həllinə əlverişli şərait yaradır, cəmiyyətin idarə olunmasının daha səmərəli yollarının axtarılmasına faydalı təsir göstərir. Bütün bunlar öz növbəsində demokratik proseslərin güclənməsini təmin edir.

Azərbaycan Respublikasında çoxpartiyalı sistemin

yaranması XX əsrin əvvəllərinə təsadüf etsə də, bu tarixi ənənənin yenidən təzahürü əsasən Azərbaycanın ikinci dəfə öz müstəqilliyini əldə etməsi ilə əlaqədardır. Həmin dövrdən etibarən demokratik prinsiplərin genişlənməsi, siyasi plüralizmin təzahürü çoxpartiyalı sistemin təşəkkülü və inkişafı üçün etibarlı və əlverişli zəmin yaratdı.

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyinə qovuşandan sonra təkpartiyalıq sisteminə son qoyuldu. Obyektiv tarixi tələbatın ifadəsi olaraq yeni siyasi sistemin yaranması başladı. 1990-1992-ci illər ərzində kəmiyyət və siyasi keyfiyyət baxımından yetkin səviyyədə olmadıqları üçün yeni yaranan partiyalar hakimiyyət uğrunda mübarizədə xalq tərəfindən dəstək almaq, kütləviləşmək səviyyəsində deyildilər. Ölkə daxilində nəzərə çarpan kəskin ziddiyfətlər, AXC-Müsavat cütlüyü cəmiyyətdə dağıdıcı mənəvi-psixoloji mühit yaratmışdı. Azərbaycanın dövlət müstəqilliyi təhlükə ilə üzləşmişdi. Belə vəziyyətdə xalqı, vətəni xaosdan xilas etmək üçün mütəşəkkil, avanqard bir partiyaya ciddi ehtiyac duyulurdu. Yeni Azərbaycan Partiyası məhz belə bir tarixi şəraitdə xalqın təkid və xahişi ilə Heydər Əliyev tərəfindən yaradıldı.

Görkəmli Azərbaycan ziyalılarından ibarət məşhur "91-lər"in Heydər Əliyevə müraciətində deyilirdi:

"Mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqdan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur.

... Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz!

Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim





təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq, belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına yeganə mütləq lider Siz ola bilərsiniz!" (64).

Sözün əsl mənasında Xalqın müraciəti, tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası (YAP) Heydər Əliyevin liderliyi ilə vətəni, xalqı xilas etmək missiyasını öz üzərinə götürdü. O, az müddət içində on minlərlə Azərbaycan vətəndaşını öz ətrafında birləşdirdi.

Beləliklə, demokratik prinsiplərin möhkəmləndirilməsinə, həm də yenicə qurulmaqda olan Azərbaycan dövlətinin ictimai-siyasi fəaliyyətində nəzarət imkanlarının etibarlı zəmində təşəkkülü təmin edildi.

YAP-ın qəbul etdiyi nizamnamədə onun təşkilati fəaliyyətinin demokratik prinsiplər əsasında qurulduğu bildirildi. Həmin sənəddə təsbit olunmuş demokratik prinsiplərlə yanaşı, partiyanın fəaliyyətində daha iki prinsipial müddəa bildirilir:

"-İlk təşkilatların öz hüquqlarından və özünü idarəetməsindən tam sərbəst istifadə etməsi – seçki orqanlarının əlaqələndirici rolu (YAP nizamnaməsi: (ilk variantda), III bölmə).

YAP "Yeni müstəqil Azərbaycan uğrunda" çağırışını irəli sürdü. YAP proqramında sözün əsl mənasında demokratik prinsiplər və dəyərlər öz ifadəsini tapdı. Bu cəhəti təhlil edərək Heydər Əliyev deyirdi: "Yaranandan onun ən üstün, müsbət cəhəti ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyasının amalı, məqsədləri, qəbul etdiyi proqram müstəqil Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycanda demokratik prinsipləri bərqərar etmək, Azərbaycanı dünya iqtisadiyyatına bağlamaq, Azərbaycanda iqtisadi-siyasi islahatlar həyata keçirmək və Azərbaycanı inki-

şaf etdirmək olubdur" (2).

Bütün bunlarla yanaşı, bir sıra müxalifət partiyalarının və onların orqanı olan ictimai-siyasi qəzetlərin əksəriyyətinin siyasi fəaliyyət proqramı real, yetkin deyildi. Xalq müstəqilçiliyimizlə bağlı dünyəvi maraqlar üzərində bərqərar olmayan belə siyasi təşkilatların düşünülməmiş siyasi fəaliyyətini qəbul etmirdi. Özlərini "dördlük" adlandıran həmin partiyalar – Müsavat, AXCP, ADP, AMİP radikal müxalifətçilik mövqeyi ilə fərqlənirdi. Nəzarətlərində olan "Yeni Müsavat", "Azadlıq", "Hürriyyət", "Millət" qəzetlərində hakimiyyəti daha kəskin tənqid etməyi qarşılarına məqsəd qoymuşdular. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyev bu barədə yazırdı:

"Bu dörd partiyanın fəaliyyətində davakarlıq və barışmazlıq notlarının güclənməsi, onların hakimiyyətə qarşı fasiləsiz ideoloji hücumları, öz mətbuatlarının səhifələrində iqtidar haqqında yaydıqları şayiələr və böhtançılıq, beynəlxalq qurumlara müraciət və s. bununla bağlıdır" (51, 86).

Dünyanın sivil siyasi həyatının axarına uyğun olaraq, təbii ki, iqtidar müxalifətin böhtançılıq hücumlarına siyasi plüralizm, demokratik prinsiplər nöqteyi-nəzərdən yanaşır, transformasiya şəraitinin qanunauyğunluqlarını nəzərə almaqla müstəqil Azərbaycan cəmiyyətinin yeniləşməsi prosesini tənzimləyirdi. Ətrafında yüz mindən çox Azərbaycan vətəndaşını birləşdirən Yeni Azərbaycan Partiyası elitar partiya kimi tanınır, Yeni Azərbaycanın inkişaf mərhələsinə qədəm qoyurdu, öz siyasi orqanını – "Yeni Azərbaycan" qəzetini nəşr edirdi. Bu siyasi qəzet yeni müstəqil Azərbaycanın möhkəmləndirilməsi naminə ictimai-siyasi inkişafımızın istiqamətverici interpretativ modelini – Heydər Əliyev ideologiyasını ge-





niş təbliğ edirdi.

Köhnə ideologiyanı kökündən dəyişmək, yeni mütərəqqi ideologiyanın milli fəlsəfi istiqamətini formalaşdırmaq missiyası məhz Heydər Əliyevin üzərinə düşmüşdü. Amerika Birləşmiş Ştatlarının görkəmli politoloq və nəzəriyyəçisi Piter Draker yazır: «Böyük təbii fəlakətlərin qarşısını almaq mümkün deyil, amma döyüşə hazır, yüksək mənəviyyata malik, həmçinin böhran zamanı özünü necə aparmağı bacaran, özünə inanan və adamların bir-birinə inandığı təşkilat yaratmaq mümkündür». (118)

Yeni Azərbaycan Partiyası yaranarkən bütün üzvlərinin bir-birinə inamı bir siyasi əqidə üzərində bərqərar olmuşdu: Azərbaycan Respublikasını böhrandan xilas etmək! Düzdür, o zaman Azərbaycanda ayrı-ayrı şəxslərin siyasi fəaliyyəti və şəxsi təşəbbüsü ilə yaranan partiyalar da mövcud idi. Lakin Yeni Azərbaycan Partiyası xalqın böyük hissəsinin istəyi və tələbi ilə yaranmışdı.

Bu barədə sonralar ətraflı söz açan Heydər Əliyev belə deyirdi:

"Bu partiya keçmişdə, məsələn, vaxtilə çar Rusiyası dövründə bir çox partiyalar kimi gizli, qeyri-leqal şəraitdə yaranmasa da, tam gizli olmasa da, hər halda müəyyən dərəcədə gizli, çətin şəraitdə yaranmışdır. Ona görə də bu partiyanın yaranması çox qiymətlidir" (72).

Yeni Azərbaycan Partiyasını çox yüksək qiymətləndirən Heydər Əliyev digər siyasi partiyaların və siyasi qəzetlərin də siyasi aləmə qədəm qoymasını dəyərləndirirdi. "Yeni Azərbaycan" qəzetindən başqa "Naxçıvan", "Aydınlıq", "Səs", "İki sahil" və başqa ictimai-siyasi qəzetlərin ideya və məqsədlərini Azərbaycanın inkişafı üçün faydalı hesab edirdi. Heydər Əliyev dəfələrlə ölkəmizdə çoxpartiyalı sistem haqqında öz fikirlərini söyləmişdi. Azərbaycan Konstitusiyasında öz əksini tapan

belə fikrə uyğun olaraq müstəqil respublikamızda demokratik prinsip zəminində açıq söz, azad düşüncə, fikir müxtəlifliyi, siyasi plüralizm geniş inkişaf edirdi.

Demokratiya və plüralizm Azərbaycan cəmiyyətində getdikcə daha da dərinləşməyə başladıqca vətəndaşlara geniş hüquqlar verilir, ictimai-siyasi hərəkatlar çoxalırdı. Əlbəttə, hakimiyyətə müxalif fikirli partiyalar, siyasi qəzetlər də öz fəaliyyətini azad şəkildə davam etdirirdi: Azərbaycan xalq cəbhəsi partiyası, ("Azadlıq" və "Cümhuriyyət" qəzetləri), Müsavat partiyası ("Yeni Müsavat" qəzeti), Azərbaycan Milli İstiqlal Partiyası ("Millət" qəzeti), Sosial-Demokrat partiyası ("İstiqlal" qəzeti).

Bu barədə söz düşərkən müxalifət partiyalarına münasibətlə bağlı Prezident Heydər Əliyev "Utro Rosii" qəzetinin müxbiri ilə söhbətində demişdi:

"Müxalifət partiyalarına münasibətim müxtəlifdir. Azərbaycan demokratik ölkədir və müxalifətin öz fikrini söyləməyə haqqı var. Bütün ölkəyə və xalqa ziyan vurmadan qüvvədə olan qanunvericilik çərçivəsi daxilində həyata keçirilməsi isə başqa məsələdir. Müxalifətdə olanlarımız üçün milli-dövlət mənafeyinin kifayət qədər qiymətli olmasına səmimiyyətlə ümid bəsləyirəm və hesab edirəm ki, onlar bu mənafeləri ancaq şəxsi ambisiyalarından üstün tuta biləcəklər. Əgər belədirsə, onda hər şey qaydasında olacaq" (101).

Təəssüf ki, belə olmadı. Müxalifətdə olan bəzi siyasi partiyaların təkidi ilə onların nəşr etdirdiyi siyasi qəzetlər şəxsi ambisiyalarından çıxış edərək dövlətçilik və azərbaycançılıq mənafelərinə xələl yetirməyə ciddi səy göstərirdilər. Bütün bunlara baxmayaraq, iqtidar yenə də qarşılıqlı anlaşmaya cəhd edir, milli həmrəylik üçün güzəştə gedir, demokratik prinisplərə sadiq olduğunu, bütün mətbuata rəğbət bəslədiyini bir daha nümayiş et-





dirirdi. Yüksək mənəviyyat prinsipindən, siyasi etikadan çıxış edən iqtidar səmimi təklif edirdi ki, Azərbaycan Prezidentinə, Prezident Aparatına, Milli Məclisə və başqa vəzifəli şəxslərə qarşı böhtan kampaniyasına son qoysunlar, təhqirə yol verməsinlər, tənqidin özü isə haqlı və ədalətli olsun.

Bəzi müxalifət qüvvələrinin, xüsusilə, AXC-nin hətta xarici ölkələrdə iqtidar əleyhinə təbliğatını necə qiymətləndirirsiniz sualını Heydər Əliyev siyasi alicənablıqla belə cavablandırmışdı:

- "Bilirsiniz, mən bunların heç birinə əhəmiyyət vermirəm və heç də düşünmürəm ki, bunlar Türkiyədə Azərbaycan Prezidentinin əleyhinə aparılan təbliğatdır. Ayrı-ayrı adamlar gücləri çatırsa, qoy təbliğat aparsınlar. Amma gücləri çatmaycaaq!" (19, 408).

Müasir, demokratik və hüquqi dövlətimizin banisi və qurucusu olan Heydər Əliyevin ölkədə yaratdığı sağlam ictimai mühitdən sui-istifadə edən bəzi qüvvələr öz "fəaliyyət"lərini əsasən, siyasi mətbuat vasitəsilə davam etdirirdilər.

Ölkəmizdə o zaman transformasiya prosesi yeni mərhələyə daxil olurdu. Bu mərhələ tənzimlənən bazar iqtisadiyyatına keçid, Azərbaycanın dünyanın sivil ölkələri ilə demokratik zəmində beynəlxalq əlaqələri və əmkdaşlığı ilə səciyyələnirdi.

Demokratik dəyişikliklər sürətlənirdi. Müstəqil dövlətimizin milli, mənəvi dəyərlər əsasında identifikasiyasının əsas sütunları təşəkkül tapmağa başlayırdı. Təbiidir ki, bütün bunlar demokratik, siyasi milli mətbuatımızda öz geniş əksini tapırdı. Uğurlu iqtisadi siyasətin nailiyyəti hesab olunan "Əsrin müqaviləsi" hazırlanmışdı.

Əsasən, iqtisadi xarakter kəsb etməsinə baxmaya-

raq, siyasi motivlərlə bağlı olan "Əsrin müqaviləsi" həmçinin, hakimiyyət strukturlarında qarşılıqlı əlaqələrin təşəkkülünə imkan yaratdı. Əlbəttə, bu işdə KİV-in, xüsusilə mətbuatın xidməti də az deyildir.

"Əsrin müqaviləsi"nin iqtisadi və siyasi faydası Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin o zamankı birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin uğurlu fəaliyyəti ilə birbaşa bağlı idi.

O "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə demişdir:

"Azərbaycana təzyiq o qədər güclü idi ki, xarici ölkələrin neft şirkətləri bu tezisi (Xəzərin statusu problemini) kontraktın şərtlərinə daxil etmişdilər... Bu əslində, o demək idi ki, kontrakt imzalanacaq, lakin qüvvəyə minməyəcəkdir. Bu şəraitdə Azərbaycan Respublikasının Prezidenti məni o vaxt yekun danışıqların aparıldığı Nyustona və ABŞ-a Energetika Nazirliyinin rəhbəri ilə görüşmək üçün Vaşinqtona ezam etməyi qərara aldı. Yalnız Amerika hökuməti ilə məsələyə müdaxilə edəndən sonra xarici neft şirkətləri həmin bəndi kontraktdan çıxarmağa razılıq verdilər" (41, 11-12).

Güclü diplomatik fəaliyyəti ilə Azərbaycan dövlətinin və xalqının taleyüklü bu probleminin həllini başa çatdıran İlham Əliyev dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsinin fundamental təməlini qoydu.

Azərbaycanda siyasi mətbuatın demokratikya yoluna yönümü intensiv xarakter daşıyırdı. Dövlət başçısının xarici ölkələrə etdiyi səfərlərdə KİV nümayəndələrinin sayı çoxalır, tərkibi getdikcə genişlənirdi.

Siyasi mətbuat nümayəndələri prezidentin daim ətrafında olur, ölkəmizin daxili, xarici siyasətini geniş miqyasda işıqlandırırdılar.

Tükənməz enerjiyə malik olan Prezident Heydər





Əliyevin çoxşaxəli dövlətçilik və siyasi fəaliyyətini başlıca informasiya mənbəyi kimi dəyərləndirmək olar.

Həm iqtidaryönlü mətbuatın və eləcə də müxalifət partiyalarının orqanı olan qəzetlərin, müstəqil mətbuatın nümayəndələrinin heç birinə fərq qoymadan Heydər Əliyev onların hər birinin suallarına təmkinlə, diqqətlə yanaşırdı.

Yeri gəlmişkən qeyd edək ki, müəyyən hallarda ölkəmizin bəzi məmurları hər vəchlə KİV-in müxbirlərindən yayınır, hətta rəsmi yığıncaqlarda ölkədəki qəzet bolluğundan şikayətlənir, müxbir suallarını cavablandırmaqdan çəkinirlər. Prezident Heydər Əliyev isə həmişə hər yerdə mətbuat işçilərini səmimi qəbul edir, çox vaxt yollarda, dar, qısa məqamlarda, hətta təyyarə salonlarında belə onların çoxsaylı suallarına geniş, əhatəli cavablar verirdi.

Hazırda ölkəmizin dövlət və hökumət idarələrində, hüquq-mühafizə orqanlarında mətbuat xidmətləri fəaliyyət göstərir. Prezidentin, Baş nazirin, Milli Məclis sədrinin, eləcə də hökumət nazirlərinin, komitə sədrlərinin mətbuat katibləri mövcuddur və fəal iş aparır, qəzet, jurnal, teleradio şirkətləri ilə müntəzəm əlaqə saxlayırlar. Belə səciyyəli çevik qarşılıqlı iş üsulu məlumat və informasiyaların xalqa vaxtında və obyektiv çatdırılmasına xidmət edir. Hazırda siyasi mətbuatın başlıca məlumat mənbəyi mətbuat konfransları sayılır. Burada qarşılıqlı fikir mübadiləsi və münasibətlər canlı, birbaşa təşkil olunur. Dünyanın ən böyük ölkələrindən biri sayılan Amerika Birləşmiş Ştatları bu baxımdan daha önəmli yer tutur. Təkcə Vaşinqtonda fəaliyyət göstərməsinə icazə verilən müxbirlərin sayı 16 min nəfərdən çoxdur. Ağ Evdə hər gün bu müxbirlərin əksəriyyəti mətbuat üçün informasiya işi ilə məşğul olur. "Assoşieyted Press" və

"Yunayted Press İnterneşnl" agentlikləri nəinki ABŞ qəzet və jurnallarını, radio və şirkətləri, həmçinin, dünya mətbuatını şəffaf və operativ informasiya ilə təmin edirlər.

Ağ Evdə müxbirlər üçün ayrılmış xüsusi mətbuat xidməti konturu hazırlanmışdır. Burada çalışan müxbirlər dəstəsi prezidentin siyasi xəttini daim təbliğ etmiş, ictimai rəyi öyrənmiş və dünyaya yaymışlar.

Təməli Amerika Birləşmiş Ştatlarında qoyulan bu təcrübə getdikcə nüfuz dairəsini genişləndirmiş, hüquqi haqq qazanaraq dünyanın sivil ölkələrinə də yayılmışdır.

Azərbaycanda prezident aparatında mətbuat xidməti 1993-cü ilin payız aylarında fəal iş rejiminə başlamışdır. Mətbuat orqanlarında tez-tez belə bir başlıqda xəbərlərə rast gəlinirdi. "Azərbaycan Respublikası Prezidentinin mətbuat xidməti xəbər verir". Sonra bu ənənə genişləndi, siyasi partiyalarda, nazirlik və dövlət komitələrində də mətbuat xidməti yarandı. Yeni Azərbaycan Partiyasının mətbuat xidməti fəal ictimai-siyasi iş aparır, vaxtaşırı yüksək vəzifəli dövlət məmurları, bütün ölkə müxbirləri ilə mətbuat konfransları keçirir. Artıq ənənəyə çevrilən bu hal demokratiyanın müəyyən ünsürü kimi yüksək əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-ci il iyun ayının 29-da Sofiya şəhərində Bolqarıstan Respublikasının Prezidenti Jelye Jelevlə birgə keçirdikləri mətbuat konfransında həm Bolqarıstanın Şərqi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü kimi fəaliyyəti və eləcə də Azərbaycanın Dağlıq Qarabağın azad edilməsi ilə bağdı problemləri öz əksini tapmışdı. Müzakirəyə çıxarılan məsələlərin əhəmiyyəti baxımından mətbuat konfransı bütün dünya kütləvi informasiya vasitələri tərəfindən diqqətlə izlənilirdi.





Konfransda geniş məzmunda çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Şərqdə ilk müstəqil Demokratik Respublika olan, lakin cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının devrilməsindən 77 ildən sonra yenidən öz müstəqilliyinə qovuşan ölkəmizin ərazi bütövlüyünün Ermənistan Respublikası tərəfindən pozulmasından söz açmışdır. Prezident Dünya İnformasiya Vasitələrinin nümayəndələrinin diqqətini xüsusi olaraq ölkəmizə edilən hərbi təcavüzə son qoyulmasına, işğal olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz geri qaytarılmasına yönəltmişdir.

Demokratik hüquqi dövlət quruculuğu sahəsində Azərbaycanda aparılan işləri bir daha müxbirlərin nəzərinə çatdıran Heydər Əliyev 1995-ci il noyabrın 12-də yeni, tam demokratik əsaslarla parlament seçkilərinin keçiriləcəyindən söz açmışdır. Azərbaycan prezidenti bir daha bütün dünyaya bəyan etmişdir ki, "biz hərbi əməliyyatların davam etməsini istəmirik, biz bu məsələnin sülh yolu ilə həll olunmasını istəyirik".

Milli mentalitet hər xalqın milli-mənəvi dəyərlərinin ən parlaq təcəssümü və təzahürü kimi qiymətləndirilir. Bu mənəvi dəyərlər xalqımızın sosial sərvətlərinin qorunub saxlanılması və nəsildən-nəslə ötürülməsinə xidmət etmişdir. Bütün bunlar Heydər Əliyevin azərbaycançılıq ideologiyasına bəxş etdiyi siyasi mahiyyətli nəzəri fəaliyyətində öz təcəssümünü tapmışdır.

Azərbaycan xalqının mentalitetini milli həmrəylik müstəvisində araşdıran və bu konteksdə Heydər Əliyev fəlsəfəsinin nəzəri-praktik əsaslarını dərindən təhlil edən professor Qoşqar Əliyev yazır:

"Heydər Əliyev fəlsəfəsi milli düşüncəmizin feno-

menidir. Xalq onun müdrik kəlamlarına, milli həmrəylik fəlsəfəsinin milli təfəkkürümüzü mənalandıran mülahizələrinə dəfələrlə müraciət edəcəkdir. Heydər Əliyevin həyatı müdrikliklə zəhmətkeş bağbanı xatırladır. O, bilir ki, bu gün əkdiklərindən sonrakı nəsillər də bəhrələnəcəkdir" (21, 245).

Professor Qoşqar Əliyev ümummilli liderimizin milli ləyaqət fəlsəfəsini, milli mentalitet fəlsəfəsini, azərbaycançılıq, hakimiyyət və milli dövlətçilik fəlsəfəsini siyasi təfəkkürün intellektual forma və incəlikləri ilə araşdırır, bugünkü müasir, yeni müstəqil Azərbaycan dövlətçiliyinin yaranmasında, möhkəmlənməsində və inkişafında Heydər Əliyevin daxili və xarici siyasət fəlsəfəsinin də gələcək oriyentirlərini bütün gerçəkliyi ilə göstərir.

Bütün ictimai-siyasi və dövlətçilik fəaliyyəti prosesində milli mentalitet anlayışına həmişə hörmətlə yanaşan Heydər Əliyev başqa xalqların da bu vacib, milli-mənəvi dəyərlərinə ehtiramla yanaşmağı tövsiyə edirdi. "Heydər Əliyev fəlsəfi metodologiyaya aid ayrıca əsər yazmasa da, onun siyasi, fəlsəfi baxışları bu istiqamətdəki fəaliyyəti müstəqilliyimizin əbədiləşməsi konsepsiyasının əsasını təşkil etmişdir" (37).

Siyasi və demokratik mətbuat xalqın baxışlarına, ictimai rəyə arxalanaraq, cəmiyyətdə baş verən hadisə və proseslərə obyektiv, vicdanlı münasibət bildirməlidir. Eləcə də mətbuat qayda-qanunları pozanlara, fəaliyyətində saxtakarlıq edənlərə, vəzifə səlahiyyətlərini aşanlara qarşı qətiyyətli, barışmaz mövqedən çıxış etməlidir. KİV, xüsusilə siyasi mətbuat cəmiyyətdə baş verən olaylara, hüquqi və fiziki şəxslərə, ümumiyyətlə insanlar, baş verənlər haqqında yazarkən sağlam, mənəvi və əxlaqi mövqedən uzaqlaşmamalıdır.





Siyasi mətbuat nəinki vətəndaşların müxtəlif siyasi olayları və prosesləri anlamasına, eləcə də onların demokratik dəyərləri və prinsipləri mənalandırmaq qabiliyyətinin təşəkkülünə, demokratik proseslərdə fəal və şüurlu iştirakına ciddi təsir göstərir. Vətəndaşların demokratik cəmiyyət quruculuğunda siyasi passivliyi və ya kütləvi siyasi fəallığı mətbuatın mövqeyindən xeyli asılıdır.

Hazırkı şəraitdə KİV-in, xüsusilə siyasi mətbuatın insanların siyasi görüş dairəsinə və fəaliyyətinə bilavasitə təsiri məhz onunla şərtənir ki, hakimiyyətin dördüncü qolunun" müasir informasiya cəmiyyətində rolu getdikcə artır. Lakin bununla əlaqədar bəzi tədqiqatçıların KİV-in getdikcə yüksələn roluna münasibəti birmənalı nəzərə çarpmır, bu istiqamətdə mübahisələr çoxalır. Belə ki, müəlliflərin müəyyən qismi televiziya, radio və mətbuatın rolunun durmadan artmasını yeni, daha yüksək və humanist sivilizasiyanın təşəkkülü ilə əsaslandırmağa cəhd edirlər. Bu fikri, xüsusilə, O.Toffler əsaslandırmağa çalışır. Əksinə, bəzi tədqiqatçılar və mədəniyyətşünaslar belə qənaətə gəlirlər ki, KİV mədəniyyətə, insanlara çox neqativ-dağıdıcı təsir göstərir. Tarixi təcrübə dönə-dönə təsdiqləyir ki, KİV, eləcə də mətbuat sosial sistemə, cəmiyyətin bütün sferalarına, insanlara iki başlıca səviyyədə təsir göstərir: əvvəla, insanların siyasi cəhətdən savadlanmasına, insanın şəxsiyyət kimi formalaşmasına, cəmiyyət üzvlərinin azadlıq, sosial rifah və sosial ədalət uğrunda mübarizəsinə yardım göstərir, ikincisi isə inam hissinin itirilməsi, yalan məlumatlandırma, kütləvi nifrət hissi oyatmaq və digər neqativ cəhətlərin yayılmasına istiqamətlənir.

Sosioloji tədqiqatlar təsdiqləyir ki, mətbuat səhifələrində sosial mədəni normalardan kənarlaşan insanlar

barədə tez-tez məlumat verilməsi oxucunu narahat edir. Neqativ hadisələri törədənlərə vətəndaşların müxtəlif qisminin münasibəti heç də birmənalı təzahür etmir. Qayda-qanunun, demokratik prinsiplərin pozulması və s. barədə dönə-dönə məlumat verilməsi belə təsəvvürün təşəkkülünə imkan yaradır ki, artıq cəmiyyətdə demokratiyanın qərarlaşması naminə güclü şəxsiyyətə, dəmir əllərə ehtiyac vardır. Belə hallarda siyasi lider ölkədə hərc-mərcliyə, mənfi hallara son qoyacağına dair müəyyən şüarlarla çıxış edirlər. ABŞ-ın sabiq prezidenti R.Reyqan, eləcə də İngiltərənin keçmiş baş naziri Tetçer məhz belə hərəkət etmişlər. Nəticəsi isə başqa cür alındı.

Siyasi partiyalar, ictimai birliklər öz proqram və məqsədlərini xalqa çatdırmaq, fəaliyyətdə olan ideyalarını əlaqələndirmək və birləşdirmək üçün əsasən mətbuatdan məqsədyönlü istifadə edirlər, onun köməyilə inteqrativ funksiyalarının fəaliyyət sferasını çoxcəhətli istiqamətlə genişləndirirlər. Bu təbii fəaliyyət istiqaməti mahiyyət etibarilə siyasətin subyektlərinin müxtəlif mövqelərinin əlaqələndirilməsinə yönlədilir. Siyasi partiyaların, ictimai birliklərin ideyalarının ictimai-siyasi mətbuat orqanların səmərəli, məqsədyönlü nüfuz etməsi nəinki demokratiyanın göstəricisi kimi səciyyələnir, ən başlıcası demokratiyanın inkişafına ciddi təsir göstərir.

Heç də təsadüfi deyil ki, demokratik prinsipləri dəyərləndirən "Yeni Azərbaycan Partiyasını yaradanlar özlərinin üçüncü prinispi kimi əsas mövqelər üzrə razılıq əldə olunan bütün ictimai təşkilatlarla və partiyalarla fəal əməkdaşlıq etməkdən, partiyalararası bloklar yaratmaq və bütün səviyyələrdə ümumi mənafeləri razılaşmaqdan, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoqa hazır olmağı həyata keçirirdi" (73).

Siyasi mətbuatın təsiri altında bütün sivil ölkələri





də olduğu kimi, Azərbaycanda da təfəkkürün demokratikləşməsi prosesi getdikcə güclənir, xalqın həyatının və tarixinin keçmişi, bu günü, sabahı haqqında reallıqlar mətbuat səhifələrində obyektiv zəmində və demokratik əsaslarla mənalandırılır.

Fikir və düşüncələrdə fəallıq, mütərəqqi milli-mənəvi həyat tərzi vərdişlərini geniş şəkildə açıqlamaq, fəal vətəndaşlıq mövqeyinin meyarlarını təbliğ etmək məhz mətbuatda siyasi təfəkkür mədəniyyətinin və mənəviyyatının formalaşması sayəsində mümkündür.

Vətənin, dövlətin təhlükəsizliyi naminə xalqın tarixində və taleyində baş verən ziddiyyətli olayları vaxtında üzə çıxarmaq, bunlardan obyektiv, reallığa əsaslanan nəticə hasil etmək demokratik, sivil cəmiyyət quruculuğunun mühüm şərtidir. Həyat həqiqətlərini, ictimai-siyasi vəziyyəti və onun inkişaf meyilini vətəndaşlara düzgün, inandırıcı səviyyədə çatdırmaq üçün mətbuatın funksiyalarından, xüsusilə, səfərbəredici funksiyasından bəhrələnmək zəruridir.

Məlum olduğu kimi, müxtəlif məqsədlər uğrunda mübarizə aparan sosial-siyasi qrupların, partiyaların siyasi məqsəd və proqramları bir-birindən nəzərə çarpacaq dərəcədə fərqlənir. Həmin qruplar və təsisatlar siyasi məramnamələrini həyata keçirmək üçün KİV-in, xüsusilə siyasi mətbuatın məlumatlandırma funksiyasından səmərəli və geniş istifadə etməlidirlər. Əlbəttə, bu məqsədlə KİV-in digər vasitləri ilə də müntəzəm, sıx əlaqə saxlanmalıdır.

Azərbaycan Respublikasının inkişaf tarixində yeni siyasi mərhələni, yeni təfəkkür dövrünü qiymətləndirən görkəmli dövlət xadimi İlham Əliyev demişdir:

"Azərbaycan rəhbərliyinin apardığı siyasət yeganə düzgün siyasətdir. Bunu həyat da sübut etmişdir. Azər-

baycan çox böhranlardan şərəflə çıxmışdır. Vətəndaş müharibəsi və cəmiyyətin parçalanması təhlükəsindən qurtarmışdır. İndi Azərbaycanda sabitlikdir. Güclü iqtisadiyyat yaradılır, demokratikləşmə yolunda çox işlər görülür. Buna görə də, mən qəti əminəm ki, hazırda yeridilən xətt davam etdirilməlidir. Buna şəkk-şübhə olmamalıdır! İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda Azərbaycan yenə də hansısa hərc-mərcliyə məruz qala bilər" (89).

Dövrün tələbləri əsasında demokratikləşmə təfəkkürə nüfuz etdikcə, xalqın dünəni, bu günü, gələcəyi barədə reallıqları, proqnozları əhatəli yaymaq cəhdləri gücləndikcə cəmiyyətin sosial-iqtisadi, siyasi-əxlaqi, demokratik-hüquqi vəzifələrinin reallaşdırılması imkanları daha da artır. Xalqın bütün təbəqələri arasında milli-mənəvi dəyərləri, adət və ənənələri geniş inkişaf etdirmək və möhkəmləndirmək, ləyaqətli vətəndaşlıq mövqeyini ictimai-siyasi amallarla düzgün əlaqələndirmək bu günkü mətbuatın qarşısında duran əsas vəzifələrdən biridir. Dünya, həyat, vətən, millət və ictimai-siyasi olaylar haqqında olan həqiqətləri siyasi reallıqlar prizmasından işıqlandırmaq, xalqa çatdırmaq mətbuatın daimi başlıca fəaliyyət prinsipinə çevrilməlidir. Məhz bu yolla cəmiyyətdə əsl demokratiyanı qərarlaşdırmaq, siyasi plüralizmi bərqərar etmək mümkündür. Şübhəsiz, həmin prosesdə partiyaların və siyasi mətbuatın rolu və əhəmiyyəti getdikcə daha da yüksəlir.





# III FƏSİL

# SİYASİ PLÜRALİZMİN TƏŞƏKKÜLÜNDƏ SİYASİ LİDERİN ROLU

## § Plüralist siyasi informasiyanın reallaşmasına Heydər Əliyevin töhfəsi

Siyasi proseslərin formalaşmasında kommunikasiya aparıcı yerlərdən birini tutur. Latın dilində "communication" sözündən götürülən kommunikasiya məlumat vermək üsulu kimi mənalanır. Kommunikasiya insanlar, qruplar, siyasi partiyalar və dövlətin qarşılıqlı fəaliyyətinin zəruri elementidir. Onun gedişində informasiyanın, hisslərin, fikirlərin, dəyərlərin, qiymətləndirmə mövqeyinin çatdırılması və qarşılıqlı mübadiləsi həyata keçirilir. Kommunikasiyasız siyasi partiyaların və onların fəaliyyətlərinin, siyasi sistemin, siyasi təsisatların, təşkilatların və s. təşkili mümkün deyildir, eləcə də cəmiyyətin siyasi sferasının mövcudluğu qeyri-mümkündür. Kommunikasiya cəmiyyətin siyasi həyatının bütün tərəflərinə nüfuz edir.

Siyasi kommunikasiya barədə o zaman söhbət açılır ki, siyasi həyatın subyektləri, eləcə də dövlət və vətəndaşlar arasında informasiya mübadiləsi baş verir. Alimlər müxtəlif siyasi kommunikasiya növləri içərisində kütləvi siyasi kommunikasiyaya daha çox diqqət yetirirlər. Bu, onunla şərtlənir ki, müasir dünyada kütləvi kommunikasiya və ya informasiya daha çox siyasət sisteminin və onun yaradıcılarının elementinə çevrilir. Bu mənada Heydər Əliyev siyasətin ən görkəmli yaradıcılarından hesab olunur. Siyasəti yaradanların siyasi infor-

masiya mənbəyi kimi çıxış etməsi tamamilə təbii və qanunauyğun haldır. Heç də təsadüfi deyil ki, respublikamızda plüralist siyasi informasiyanın aşkarlıq şəraitində obyektiv, elmi cəhətdən əsaslandırılmış səviyyədə təzahürü və inkişaf etdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Plüralist siyasi informasiya elə bir mexanizmdir ki, onun vasitəsilə hakimiyyət reallaşır.

1948-ci ildə Amerika politoloqu Rassuell özündə beş elementi birləşdirən kommunikasiya (informasiya) prosesinin sadə və əyani modelini təklif etmişdir (97,326):

1) Kim məlumat verir – məlumatı olan.
2) Nə verilir – məlumat
3) Məlumat necə həyata keçirilir – kanallarla
4) Məlumat kimə istiqamətlənir – auditoriyaya.
5) Hansı effektlə – səmərəliliyinə görə.

Həmin elementlərdən hər biri çoxsaylı tədqiqatların obyektinə çevrilmişdir. Əlbəttə, bu elementlərin araşdırılması bizim tədqiqat üçün də əhəmiyyətlidir.

Demokratik kütləvi informasiya vasitələrinin, xüsusilə siyasi informasiyanın cəmiyyətin siyasi həyatının müxtəlif tərəflərinə təsiri əhəmiyyətli və çoxcəhətlidir. Belə ki, televiziyanın inkişafı seçkiqabağı kampaniyanın strukturunun xeyli dəyişməsinə gətirib çıxarmışdır. Azərbaycanın müasir siyasi həyatı göstərir ki, plüralist siyasi informasiya səsvermənin nəticələrinə bilavasitə təsir göstərir. Heydər Əliyevin fəaliyyəti ilə şərtlənən siyasi informasiya öz təsirini məhz bələdiyyə orqanlarına və Milli Məclisə demokratik seçkilərin nəticələrində aydın göstərdi. Aydındır ki, siyasi informasiyanın seçkilərə təsiri yalnız seçkiqabağı kampaniya dövrü ilə məhdudlaşmır, eləcə də əhalidə daim siyasi reallıq haqqında az-





çox müəyyən təsəvvürlər sistemi formalaşdırılması yolu ilə də həyata keçirilir.

Plüralist siyasi informasiya siyasi liderlərin və təsisatların fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin formalaşmasına əhəmiyyətli töhfə bəxş edir. Kütləvi siyasi informasiyaya xas olan tənqidi oriyentasiya partiyaların fəaliyyətində və həyata keçirilən siyasətdə təzahür edən neqativ hallarla, nöqsanlarla əlaqədardır. Kütləvi siyasi informasiyanın həyata keçirdiyi başlıca funksiyalar bunlardır: ətraf aləmi müşahidə etmək (baş verən siyasi hadisə və proseslər barədə məlumat vermək); müxtəlif problemlərin həlli naminə hadisələrin şərhi ilə cəmiyyətin siyasi strukturunun qarşılıqlı əlaqəsini təmin etmək; cəmiyyət haqqında biliklərin, eləcə də siyasi biliklərin bir nəsildən digərinə verilməsi (siyasi sosiallaşma və təlim);

Həmin funksiyalar spektri KİV-nin tədqiqinin konseptual əsası, mühüm yanaşma kimi səciyyələnir.

Yüksək mənəviyyata, şəffaflığa əsaslanan plüralist siyasi informasiya sosial həyatın yeniləşməsinə və demokratik prinsiplərə əsaslanan sağlam mühitin qərarlaşmasına ciddi təsir göstərir.

Memarı Heydər Əliyev olan Azərbaycan Respublikasının ilk Konstitusiyası plüralist siyasi informasiyanın təzahürü və zənginləşməsinə təkan verdi. Siyasi plüralizm ictimai-siyasi həyatımızın bütün sahələrinə nüfuz etdi. Konstitusiyada təsbit olunan maddələrin əksəriyyətinin insan hüquqları və azadlıqlarına aid edilməsi əsl siyasi plüralizmin təşəkkülünə, aşkarlığın genişlənməsinə, bir sözlə, sivil müasir cəmiyyətin qərarlaşmasına real zəmin yaratdı. Bununla bağlı, Heydər Əliyev müstəqil Azərbaycanın ilk Konstitusiyası haqqında demişdir:

"Bu, bizim müstəqil Azərbaycanın Konstitusiyasıdır və belə hesab edirəm ki, dünya təcrübəsində olan bir

çox şeyləri əks edirsə də, heç bir başqa Konstitusiyaya bənzəmir. Bu, bizim Konstitusiyamız – Azərbaycanın Konstitusiyasıdır və mən bunu çox mühüm tarixi nailiyyət hesab edirəm.

Konstitusiyanın yaradılmasına öz töhfəmi verməyə imkanım olduğuna görə sevinir və özümü xoşbəxt sayıram. Ümidvaram ki, bu Konstitusiya üzünömürlü olacaq və bir çox illər onilliklər ərzində Azərbaycan Respublikasının, Azərbaycan xalqının demokratiya yolu ilə, hüquqi demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləməsini, inkişafını müəyyən edəcəkdir" (8).

Demokratik cəmiyyət üçün səciyyəvi olan və demokratik təsisatların, siyasi plüralizmin formalaşmasına zəmin yaradan hüquqi-demokratik Konstitusiyamız azad söz, sərbəst düşüncə və siyasi mətbuatın müstəqil fəaliyyəti üçün hər cür əlverişli şərait təmin etmişdir. Ölkəmizin tarixində ilk dəfə olaraq çoxpartiyalılıq şəraitində parlament seçkilərinin keçirilməsi reallaşdı. Siyasi plüralizm mühitində azad, demokratik informasiyanın təşəkkülü, hər bir vətəndaşın hüquqlarının qorunması, müdafiə edilməsi, ən başlıcası isə qanunvericilik yolu ilə demokratiyanın, həyat qanununun (Konstitusiyanın) xalq tərəfindən qəbul edilməsi tariximizin xüsusi əhəmiyyət kəsb edən səhifələrindəndir.

Siyasi informasiya bir tərəfdən cəmiyyətin intellektuallaşmasında əhəmiyyətli rol oynayır, digər tərəfdən isə yeni informasiya texnologiyalarının dövlət idarəçiliyində tətbiqi ölkədə siyasi və iqtisadi sabitliyin möhkəmlənməsinə, dövlət idarəetmə strukturlarında səmərəliliyin yüksəlməsinə böyük təsir göstərir. Bu isə milli strategiyamızın qəbul olunub həyata keçirilməsi imkanlarını əhəmiyyətli dərəcədə təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər





Əliyevin 2002-ci il yanvarın 9-da imzaladığı 865 saylı sərəncam BMT-nin inkişaf proqramı səviyyəsində hazırlanmışdır. Təsadüfi deyil ki, bu sərəncam milli və beynəlxalq qurumlar tərəfindən müsbət qiymətləndirilmişdir.

"Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya" (2003-2012) Heydər Əliyev tərəfindən təsdiq edilmiş və informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda geniş şəbəkəsinin yaradılması başlıca vəzifə kimi qarşıya qoyulmuşdur.

Milli strategiyada "elektron hökumət" adlanan informasiya texnologiyası siyasi mətbuatın, ümumiyyətlə, kütləvi informasiya vasitələrinin yüksək və hərtərəfli inkişafına, qlobal informasiya mühitinin yaradılmasına güclü təkan vermişdir.

Ölkənin idarə edilməsində bu sahəyə ekspansiya vətəndaşların iştirakını gücləndirmək, yeni mərhələyə çatdırmaq üçün ənənəvi hökumət fəaliyyətini yeni zəmin üzərinə keçirir.

«Elektron hökumət» fəaliyyətinin tərkib hissəsi sayılan elektron sənəd dövriyyəsi sistemidir. Ona görə də bu işlər üçün ictimai həyatın bütün sahələri əhatə olunmaldır. Həm də ənənəvi dövlət idarəçiliyi ilə işləməyə adət etmiş hökumət yeni, mütərəqqi kommunikasiya məkanında öz yerini, rolunu və vəzifələrini təkmilləşdirməlidir.

Fransa alimi və tədqiqatçısı R.Albert yazır: «Yazılı mətbuat ideyalardan daha çox həyat tərzini müdafiə edir, daha çox hissləri çatdırır, nəinki əqidələri, daha çox münasibətləri istiqamətləndirir, nəinki davranışları. Bununla da yazılı mətbuat oxucuların gündəlik həyatında təsirə malik olsa da, siyasi həyatda geniş mənada öz təsirini itirir» (116).

Bizim ölkəmizdə də bu təzahürlərin qismən şahidi oluruq. Əhalisinin sayı 9 milyona yaxınlaşan bir respublikada nəşr olunan qəzetlərin tirajı 8-9 mindən çox olmur. Elektron kütləvi informasiya vasitəsi isə öz sərhədlərini günü-gündən genişləndirir.

Ona görə də torpaqlarının 20 faizi düşmən işğalında olan ölkə üçün bu məsələ başqa bir aktuallıq da kəsb edir. Hərbi sirlərin elektron kütləvi informasiya vasitələri ilə yayılmasının qarşısı qətiyyətlə alınmalıdır, ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi kimi qəbul edilən informasiya təhlükəsizliyinə ciddi əməl olunmalıdır. İnformasiya kanallarının gündən-günə sürətlə inkişaf etdiyi dövrdə, elmi-texniki tərəqqinin təsiri sayəsində qərarlaşan infokratiya şəraitində hərbi informasiya sektorunun fəaliyyəti daha diqqətli və əsaslı olmalıdır. Məlum olduğu kimi, informasiya əldə etmək hüququnu məhdudlaşdıran hallar da mövcuddur. Belə hallar mətbuat kodekslərində də öz əksini tapmışdır. Mətbuat haqqında qanun qəbul etmiş bir sıra ölkələrdə milli təhlükəsizliyə və xüsusilə dövlətin müdafiə qabiliyyəti ilə bağlı bütün informasiyaların məxfi saxlanıb qorunmasına mətbuatda xususi diqqət yetirilir. Təəssüf ki, bəzən müxalifət mətbuatı siyasi-hərbi sirlər barədə uydurma məlumatlar yaymağa səy göstərir. Hakimiyyət barədə əsası olmayan təxribat xarakterli xəbərlər ötürürlər, əhalinin sadəlövh hissində yanlış təsəvvürlər yaratmağa çalışırlar. Siyasi informasiyanın obyektiv, sağlam ruhda çatdırılmasının zəruriliyini qətiyyətlə və dəfələrlə bildirən Azərbaycan Prezidenti Heydər Əliyev bu məsələyə münasibətini bildirərkən verballaşmadan istifadə etmişdir:

"Mənim bir neçə tövsiyəm var. Birincisi ondan ibarətdir ki, bizim mətbuatda gərək Azərbaycanın milli mənafelərinə zərər gətirən şeylər dərc olunmasın. Amma





təəssüf ki, bunlar dərc olunur.

Məsələn, bu yaxınlarda hansı qəzetdə idi, yadımda deyil – Usubov da ANS kanalında danışanda bunu dedi – yazıblar ki, Azərbaycan İsraildən 100 dənə tank alıbdır. Bilmirəm, deyəsən, çox qəzetlərdə gedibdir. Mənə elə gəlir ki, deyəsən, bunu "TURAN" agentliyi yayıbdır.

Bilirsiniz, mən daha araşdırmaq istəmirəm ki, haradan götürüblər. Ermənilər bunu yaza bilərlər. "Nezavisimaya qazeta" da bunu yaza bilər. Başqa yerdə də yaza bilərlər. Amma bizim qəzetlər gərək bunu yazmasınlar. Mən sizə və bütün qəzetlərə bəyan edirəm, birincisi, biz İsraildən nəinki tank, heç bir tapança da almamışıq. Sizə bəyan edirəm ki, biz son 7-8 ildə heç bir yerdən bir dənə də tank almamışıq. Mən bunu sizə açıq-aydın bəyan edirəm. Bu, birincisi. İkincisi, əgər hardansa tank almışıqsa, bunu iqtidar özünü qorumaq üçün alıbdır, ya babası üçün alıbdır, ya atası üçün alıbdır? Bu bizim ordunun silahlandırılması üçün alınıbdır. Bunu kimsə yazır, bəs siz niyə bunu yazırsınız? Nədər ötrü yazırsınız? Bundan nə məqsəd daşıyırsınız? Qardaşlar, dostlar, axı olmaz. Bu, yeganə hal deyil, belə faktlar çoxdur".

Məlumdur ki, internet saytlarının fəaliyyəti ilə hazırda yüz milyonlarla adama informasiya ötürmək olur. Belə məlumatlara bircə anın içində bir milyon adam sahib ola bilir.

"İnformasiya funksiyası hazırda dövlətin funksiyaları içərisində ən aparıcılarından sayılır. Bu funksiyanın məzmunu çoxplanlıdır. Buraya informasiya-təbliğat, informasiya-idarəetmə, informasiya-istahsal və informasiya-mədəniyyət sahəsindəki fəaliyyət aiddir. İdeoloji aparat isə dövlət təsisatlarının ayrılmaz ünsürünü təşkil edir. İctimai-siyasi informasiyanın idarə olunması məhz dövlət təsisatlarının fəaliyyəti ilə bağlıdır" (100).

Gündən-günə genişlənən və kəskinləşən qlobal informasiya müharibəsi şəraitində öz mövqeyimizi elə müəyyənləşdirməliyik ki, strateji aspektdə Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərlə zənginləşmiş ictimai-siyasi və iqtisadi həyatı, elmi təhsili informasiya təhlükəsizliyi ilə etibarlı və davamlı mühafizə olunsun.

Elitar özəl və kütləvi məktəblərdə bilik hazırlığı səviyyəsinin yüksəlməsində informatikanın böyük rolu "internet" beynəlxalq rabitə sisteminə qoşulmaqla qlobal yüksəlişə səbəb olacaqdır" (39).

Müasir mərhələdə qlobal transkontinental informasiya ərazisinin mövcudluğu informasiya mübarizəsinin vacibliyini daha da artırmışdır. Təbliğat və təşviqat sistemi üzrə fəaliyyət göstərən texnologiyalar düzümünə daxil olan marketinq tipli avtomatlaşdırılmış avadanlıqlar, yəni informasiya və kommunikasiya texnologiyaları vasitəsi ilə bəzən siyasi qarşıdurma yaradıla bilər. Söz, böhtan, yalan müharibəsinə də şərait yaradılar. Təbii ki, belə informasiyalar, məlumatlar qəzetlərə dərhal yol tapır, münasibətləri mürəkkəbləşdirir.

Məlum olduğu kimi, informasiya bir növ soyuq müharibə vasitəsi sayılır. Bu müharibədə düşmən tərəfindən hər hansı bir ölkə hədəfə və nəzarətə götürülür. Həmin ölkənin əvvəlcə əhalisinin şüuru dərindən öyrənilməyə başlanır. Gənclərin, orta yaşlı insanların ovqatı, Vətən, Xalq, Torpaq haqqında duyğu və düşüncələrinin tutumunu, başəriliyini, milliliyini araşdırmağa səy göstərirlər. Düşmən adətən bilmək istəyir ki, əks tərəfin adamlarında döyüş əhval-ruhiyyəsi hansı səviyyədədir? İnformasiya cəmiyyətində telekanallardan, radio dalğalarından, internetə düşən məlumatlardan, qəzet və jurnallardakı yazılardan hər cür istifadə edilə bilər. Əsasən





siyasi, hərbi, iqtisadi və eləcə də mənəvi, psixoloji sferalarda əks tərəfin müqavimət gücü araşdırılır, diqqətlə öyrənilir və ölçülür. Bundan sonra düşmən informasiya müharibəsində bütün gücü ilə, hərtərəfli hücuma keçir. Əks tərəf üçün "informasiya casusları" formulundan məharətlə istifadə edilir. Napoleonun dediyi kimi, "Dörd düşmən qəzeti, dörd min düşmən nizəsindən daha təhlükəli ola bilər".

İnternet informasiya inqilabının ən uca zirvəsinə yüksəlməklə lokal, regional və qlobal kommunikasiya vasitələri artıq dövrümüzün, həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir.

15 yanvar 1997-ci ildə Parisdə yayımlanan "Yevronyus" beynəlxalq telekanalın əməkdaşı ilə keçirilən müsahibə zamanı müxbirin "Siz indicə mətbuat azadlığından danışdınız. Lakin məsələn, "Reportajlara sərhəd yoxdur" təşkilatı kimi təşkilatlar var və onların nümayəndələri iddia edirlər ki, 1996-cı ildə müxalifət qəzetlərinin 90 nömrəsindən sonra çoxu senzuraya məruz qalmışdır" kimi qeyri-obyektiv və həqiqətə əsaslanmayan sualına Heydər Əliyev belə cavab vermişdir:

- "Bəlkə də hansısa hallar olubdur. Lakin yenə də hesab edirəm ki, sizdə olan məlumat həqiqətə tam uyğun deyildir. Azərbaycanda mətbuat azaddır, heç bir senzura yoxdur. Dövlət sirrini açan hansısa materiallar hazırlandıqda isə, şübhəsiz ki, bunların dərc edilməsinə yol verməkolmaz" (28, 103).

Əvvələ, ən radikal müxalifət qəzetləri olan "Yeni Müsavat"ın çap olunmuş sayı nəinki 90-nı, artıq 1500-i, "Azadlıq" qəzeti 2011-i, "Bakı Xəbər"in sayı isə 1000-i keçmişdir. Hələ çap olunan sayı yüzlərlə olan digər müxalifət qəzetlərinin adını çəkmirik. İkincisi isə prezident Heydər Əliyev bütün dünyanın sivil beynəlxalq

qayda-qanunlarına uyğun olaraq, dövlət sirlərinin (bunun sırasında yəqin birinci olaraq, ehtimal ki, ilk növbədə hərbi və dövlət təhlükəsizliyi ilə bağlı sirlər gedir) mətbuatda yayılmasının yolverilməz olduğunu çox haqlı olaraq bildirir.

Əslində, Heydər Əliyev kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsi kimi vacib məsələni bütün hallarda gündəmə gətirir, konkret siyasi mühitdə onların vəhdətini ölkənin ictimai sabitliyinə, dövlət quruculuğunun, xüsusilə, dövlət təhlükəsizliyinin qorunmasına yönəldirdi. Təsadüfi deyildir ki, Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibəti ilə Respublika Prezidentinin yanında təşkil olunan görüşdə (Bakı, Prezident Sarayı, 21 iyul 2000-ci il) çıxış edən "Yeni nəsil" jurnalistlər birliyinin sədri A.Əliyev etiraf etməli oldu ki, "Mətbuat, informasiya milli təhlükəsizliklə bağlı məsələdir. Burada ölkənin təhlükəsizliyi ilə oynamaq imkanı yaranır. O yerdə ki, kütləvi informasiya vasitələrini pul ilə ələ almaq, onu yönəltmək imkanı var, ondan istifadə edənlər yəqin ki, tapılacaqdır. Necə ki, tapılır və bundan istifadə edirlər. Məni narahat edən məsələlərdən biri budur" (12).

Uzun illərin sosial-siyasi, dövlətçilik fəaliyyəti və harizmalı siyasət təcrübəsi ilə zənginləşmiş Heydər Əliyev şəxsiyyətinin mənəvi gücünün, xalqına, vətəninə bağlı milli qüdrətinin çoxlu təzahür formalarının şahidi olmuşuq.

Xalqımızın ümumi mənafeyi, vətənin inkişafı və firavanlığı ideyalarına, xüsusi ilə ərazi bütövlüyünün bərpası sahəsindəki məqsədyönlü, qətiyyətli fəaliyyətinə, siyasi mətbuatda demokratiya və plüralizmin, - azad sözün, sərbəst düşüncənin tərəqqisi naminə həyata keçirdiyi tədbirlər bir daha göstərdi ki, ölkəmizdə vətəndaş-





dövlət, insan-cəmiyyət münasibətləri inkişaf etdikcə, respublikasızın siyasi həyatı daha rəngarəng və yetkin səviyyə kəsb edir.

Dünya ictimai-siyasi və dövlətçilik tarixində mətbuatda siyasi manipulyasiyanın həmişə nəzərə çarpan zərərli fəsadları mövcud olmuşdur. Demokratik dövlət quruculuğunda və onun sivil qaydalarla idarə olunmasında həmişə maneçilik yaradan insanları, partiyaları, siyasi qrupları bir-birinə qarşı qoyan bu zərərli siyasi amil mətbuatda cəmiyyəti parçalamaq üçün siyasi vasitəçi kimi istifadə olunmuşdur.

Biri digərinin üzərində, bir siyası partiya başqa bir siyasi qrupun ideya və siyasi düşüncələrinə hakim kəsilmək, qalib gəlmək üçün, öz məqsədlərini həyata keçirmək naminə riyakarlığa, yalan üzərində qərarlaşan metoda əl atırlar. Özü də bu ziyanlı iş üsulu çox vaxt gizli, bəzi hallarda isə açıq həyata keçirilir.

Azərbaycanda 1992-95-ci illərdə gizli şəkildə, ünvanı, mətbəəsi bilinməyən "Çeşmə" adlı qəzet buraxılırdı və gizli yayılırdı. Yalana, böhtana əsaslanan bu qəzet xalqın əksəriyyəti tərəfindən hiddətlə qarşılanırdı. Nəhayət ki, onun 6 nəfərdən ibarət yaradıcı kollektivi tapıldı və ifşa olundu. Hətta Azərbaycan Respublikasının mövcud qanunları ilə həmin şəxslər həbs olundular. Onlar müstəqilliyimizə və Azərbaycan dövlətçiliyinə nankor münasibət bəsləyirdilər. 12 noyabr 1995-ci ildə jurnalistlərlə keçirilən mətbuat konfransında Azərbaycan Prezidenti yenə yüksək humanist mövqeyindən çıxış edərək onları bağışladığını bəyan etdi (9).

Çoxsaylı belə humanist münasibətlər nümayiş etdirən Heydər Əliyev mürəkkəb, ziddiyyətli, hətta şər siyasi informasiyanın da qarşısına sədd çəkilməsinin əleyhinə çıxırdı. Bu cür demokratik mövqe plüralist informasiyanın

daha geniş təzahürünə və yayılmasına əsl töhfə kimi qəbul olunmalıdır.

Ümummilli lider dəfələrlə bildirmişdir ki, "müxalifət olmalıdır. Biz tənqidsiz yaşaya bilmərik. Müxalifət qəzetlərində, yaxud dövlət qəzetlərində başqa jurnalistlərin tənqidi fikirlərini mən çox hörmətlə qarşılayıram. Çünki hər bir tənqidi fikirdə müəyyən bir nöqsanın aşkara çıxmasına və onun düzəlməsinə şərait yaranırsa, bu bizə gərəkdir».

Mətbuatda obyektiv, vicdanlı tənqidin cəmiyyətimizə gərəkli olduğunu vurğulayan Heydər Əliyev, hətta "Biz tənqidsiz yaşaya bilmərik" deməklə demokratik mətbuatın, saf həqiqətin meyarlarından qidalanan tənqidin ölkəmiz üçün vacibliyini xüsusilə qeyd edirdi:

"Ancaq tənqidin həddini keçib, böhtanla məşğul olmaq və təhqirə keçmək heç bir kəsə yaraşmaz. Həqiqətən jurnalistlər də gərək çalışsınlar ki, özləri özlərini hörmətdən salmasınlar. Gərək jurnalistlər tərbiyəli, ziyalı jurnalistlər olsun, hər şeyin həddini həqiqətən də bilənlər olsun" (30).

"Müxalifət hakimiyyəti tənqid edə bilər və etməlidir. Müxalifət olmalıdır" - deyən siyasi liderimiz müxalifət partiyalarını, onların nəzarətində olan ictimai-siyasi qəzetləri sağlam əqidəyə, obyektiv düşüncə tərzinə əsaslanmalarını bildirirdi.

Onun Parisdə "Mond Diplomatik" qəzetinin müxbiri ilə keçirdiyi çox geniş müsahibəni kütləvi informasiya vasitələrinin insanların geniş məlumatlandırılması funksiyasının dəyərli mahiyyətinə, dövlət başçılarına məxsus ən vacib, ölkəsi və milləti üçün böyük əhəmiyyət kəsb edən dəlil və sübutların yayılmasına yönəltdi.

KİV-də ictimai rəy də özünəməxsus yer tutur. Tədqiqatçıların çoxu onu hətta güclü silaha bənzədirlər,





onun böyük əhəmiyyətini qeyd edirlər. İctimai rəyin gücü ictimai şüura təsir dərəcəsi ilə ölçülür. Onun səfərbər edilməsinə nail olmaq mətbuat siyasətinin əsas vəzifələrindən biridir. Lakin buna yol vermək olmaz ki, siyasi mətbuatda ictimai rəy siyasi manipulyasiyadan qidalana bilsin. Əsas məqsəd, fəaliyyət proqramı ideya aydınlığına, milli-siyasi gerçəkliyin obyektiv faktlarla xalq arasında geniş təbliğinə yönəlməlidir. Yalnız belə halda hər bir ziyalının, elm adamının, yaxud dövlət məmurunun fikirləri ictimai rəyə çevrilə bilər. İctimai rəyin dövrün reallığına çevrilməsində siyasi mətbuatın imkanları geniş, rolu böyükdür.

Demokratik cəmiyyətdə siyasi mətbuatdakı ictimai rəy müxtəlif səviyyədə, eləcə də müxtəlif pilləli hakimiyyət strukturlarında, ictima-siyasi həyatın bütün sahələrində dəyərli, fəal ideyaların səmərəli oriyentasiyasını şərtləndirən mühüm amil kimi səciyyələnir. Kütləvi informasiya vasitələri ictimai rəyin və ictimai şüurun formalaşmasına dərindən nüfuz edə bilir.

Siyasi marketinqin reallığa doğru yönəlməsi, vacib siyasi element və güclü alət sayılan ictimai rəy bütün proseslərdə həmişə öz mühüm rolunu göstərmişdir.

Tarix sübut etmişdir ki, nəinki tək-tək insanlar, həm də ətrafında çoxlu insanlar birləşdirən partiyalar, siyasi təşkilatlar obyektiv plüralizm şəraitində mətbuatda ictimai rəydən səmərəli və məqsədyönlü istifadə etmədən öz məqsəd və vəzifələrini reallaşdırmağa nail ola bilməzlər.

İctimai inkişafın ümumi qanunauyğunluqları ilə şərtlənən ictimai rəy də formalaşır. Siyasi proqnozların özü geniş ictimaiyyətin rəy və təkliflərindən bəhrələnərək gücünü və əhəmiyyətini artırır. Siyasi mətbuatda ictimai rəyin aktuallığında, ən başlıcası isə çevikliyində siyasi

şüurun obyektivliyi özünü daha operativ və qabarıq surətdə göstərir.

Bu mənada siyasi mətbuatı qüdrətli siyasi təsir vasitəsi kimi dəyərləndirilməlidir.

Heydər Əliyev milli dövlətçilik ideologiyasının inkişafında demokratik prinsiplərə böyük əhəmiyyət verir, zorakılığa, qanunsuzluğa qarşı çıxırdı.

1998-ci il avqust ayının 8-də Ukrayna Respublikasının İnformasiya Vasitələrinin nümayəndələri ilə görüşdə "Komsomolskaya pravda na Ukraine" qezetinin müxbiri İrina Balalinanın sualını cavablandıraraq demişdir:

"Hər hansı demokratik dövlətdə müxalifətin olması normal haldır. Müxalifət olmasa demokratiyadan danışmaq olmaz. Bizim barışmaz radikal müxalifətə gəldikdə, təəssüf ki, o, bizdə bir vaxtlar əldə silahla, öz silahlı dəstələri ilə, silahlı birləşmələri ilə meydana çıxmışdı. Xalq Cəbhəsinin öz silahlı dəstələri vardı. Həmin Xalq Cəbhəsi hakimiyyətə gəldikdə, onun nümayəndəsi prezident seçildikdə, prezidentin sərəncamında ordu, polis, Daxili İşlər Nazirliyi olduğu halda o, Xalq Cəbhəsinin silahlı dəstələrini saxlayırdı" (29, 63).

Yüksək demokratik prinsiplər və siyasi plüralizm əsasında keçirilən prezident seçkiləri öz nəticələrini rəsmi şəkildə elan etdi: Heydər Əliyev 76,11 faiz səslə qalib gəldi. Beləliklə, demokratik cəmiyyət quruculuğunu uğurla davam etdirmək üçün əsl siyasi lider fenomeni bir daha reallaşdı. Heydər Əliyevin prezident seçilməsinin dərin mənasını təhlil edərək, İlham Əliyev demişdir:

"Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veriblər. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veriblər. Bu siyasətə Azərbaycanda alternativ yoxdur" (20, 5).





Heydər Əliyev həmin ildə oktyabr ayının 13-də Bakıda Prezident Sarayında yerli və xarici jurnalistlər üçün böyük mətbuat konfransı keçirmişdir.

Beynəlxalq müşahidəçilərin də qatıldığı bu tədbir yüksək işgüzarlığı və açıq demokratik şəraitdə keçirilməsi ilə dünya mətbuatının diqqətini cəlb etmişdi.

Azərbaycan xalqı özünün plüralist siyasi iradəsini nümayiş etdirərək tamamilə demokratik prinsiplər şəraitində Heydər Əliyevi dövlət başçısı seçmək arzusunu, imkanını reallaşdırdı. Mətbuatda Azərbaycan vətəndaşları, görkəmli ziyalılar, elm, mədəniyyət xadimləri hələ seçkilərdən xeyli əvvəl artıq öz seçimini etmişdilər. Xalqın öncül və əsas təbəqəsinin böyük əksəriyyəti Heydər Əliyevi özlərinin və ölkəsinin "güvənc yeri" adlandıraraq seçkiləri boykot etmək xülyası ilə yaşayan müxalifətçilərə tutarlı sözlərini demişdilər.

Hələ seçkilərdən əvvəl "alternativsiz lider", "əvəzsiz dövlət xadimi" kimi dəyərləndirilən Heydər Əliyev şəxsiyyəti haqqında ictimai rəy geniş vüsət alırdı. Tarix elmləri doktoru, əməkdar elm xadimi, professor Seyfəddin Qəndilov "İllər, on illər keçəcək, biz gedəcəyik, yeni nəsillər gələcək. Azərbaycanda o qədər böyük işlər görüləcək ki, bəlkə də bugünkü işlərin çoxu unudulacaq, ancaq Heydər Əliyevin iki böyük xidməti: birincisi, müstəqilliyimizin qorunması və dövlətçiliyimizin möhkəmləndirilməsi, ikincisi vətəndaş müharibəsinin, Azərbaycanın parçanmasının qarşısının alınması sahəsindəki xidməti qədirbilən nəsillərin xatirində əbədi qalacaqdır".

Demokratik proseslərlə səciyyələnən sosial sistemdə siyasi mətbuat demokratiyanın fəaliyyətdə olan iş metodlarını gündən-günə inkişaf etdirərək siyasi həyatımızda öz konsepsiyasını təsdiqləyir.

Siyasi mətbuata qayğı və diqqətin artması mətbuatla

bağlı söz-söhbətlər, müzakirələr, mübahisələr, fərman və sərəncamlar prezident səviyyəsində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərman Azərbaycanın siyasi mətbuatında günü-gündən geniş vüsət alan demokratikləşmə prosesinin siyasi informasiyanın ümumi inkişafına və tərəqqisinə güclü təkan vermişdir.

Heydər Əliyev hakimiyyətə gələndən ömrünün son günlərinə qədər siyasi mətbuatımızın demokratik prinsiplər əsasında inkişafına qayğı göstərmiş, onun ictimai-siyasi dəyərinin artmasına, Azərbaycan cəmiyyətində gedən sivil olayların tərkib hissəsinə çevrilməsinə səy göstərmişdir.

Respublikamızda plüralist siyasi informasiyanın dövlət səviyyəsində inkişafına xüsusi diqqət ümummilli siyasi liderin dərin demokratik siyasi təfəkkürünün məntiqi nəticəsi kimi böyük məna kəsb edir.

Tanınmış ingilis politoloqu Robert Dahl «Demokratiya haqqında» adlı kitabında yazır: «Tamamilə aydındır ki, demokratik respublika fikir və söz azadlığı olmadan yaşaya bilməz! Buna görə 1800-cü ildə ABŞ prezidenti seçilmiş «Bərabər hüquqlar hamıya, xüsusi imtiyazlar heç kimə» məşhur kəlamı ilə tarixdə qalan Tomas Ceffersonun həyata keçirdiyi ilk tədbirlərdən biri də bu oldu ki, o, «sələfi» Con Adamsın prezidentliyi dövründə qəbul edilən və söz azadlığını məhdudlaşdıran «Qiyama təhrik etmə haqqında» bədnam qanunu ləğv etdi. Bu qanunu ləğv edərkən, Cefferson təkcə öz şəxsi əqidəsinə uyğun deyil, həm də görünür, həmin dövrdə Amerikanın sıravi vətəndaşlarının çoxunun tərəfdar çıxdığı baxışlara uyğun olaraq hərəkət edirdi». (119)

Qeyd etmək yerinə düşər ki, 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Aktı»





qəbul ediləndən sonra 1992-ci ilin aprel ayının 12-də Prezident səlahiyyətlərini həyata keçirən Y.Məmmədov hərbi senzura yaratmaq adı ilə yenidən mətbuatda və bütünlüklə KİV-də Dövlət Sirrlərini Mühafizə edən baş İdarəni yaratmış oldu. Mətbuat üzərində nəzarət gücləndirildi. Az vaxt keçməmiş 15 aprel 1993-cü ildə Xalq Cəbhəsinin silahlı üsyanı ilə hakimiyyətə gələn Əbülfəz Əliyev (Elçibəy) Y.Məmmədovdan daha irəli gedərək hərbi vəziyyətlə əlaqədar olaraq senzuranı daha da gücləndirdi və hətta jurnalistlərin sərbəst informasiya toplamaq fəaliyyətini tam məhdudlaşdırdı, idarənin fəaliyyətini sərtləşdirdi.

1995-ci ildən etibarən isə Azərbaycan Respublikasında insan hüquqları, söz və mətbuat azadlıqlarının bilavasitə reallaşması, bu məsələ ilə bağlı Prezident Heydər Əliyevin bir sıra fərman və sərəncamları, ölkəmizdə vaxtaşırı keçirilən beynəlxalq konfranslar, KİV-in nümayəndələrinin prezident səviyyəsində müxtəlif ölkələrə səfərləri demokratik siyasi informasiyanın məzmunca zənginləşməsinə pozitiv təsir göstərmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev söz və mətbuat azadlığının daha geniş təmin edilməsində, insan hüquqları ilə bağlı qanunvericilik bazasının yaradılmasında təşəbbüskarlıq və təşkilatçılıq funksiyasını məhz öz üzərinə götürmüşdür. Onun fərmanları və sərəncamları açıq söz, azad fikir, sərbəst düşüncə üçün maneələri ləğv edən qanunlar silsiləsinin qüvvəyə minməsinə səbəb olmuş, prezidentin özü isə sözün əsl mənasında siyasi plüralizmin təminatçısı olmuşdur. Təsadüfi deyil ki, hazırda Azərbaycanda 3500-dən çox müstəqil ictimai-siyasi, ədəbi-bədii qəzet və jurnallar, onlarla radio və televiziya şirkətləri ("Lider", "Space", İctimai Televiziya və İctimai Radio, "ANS" və s.), çoxsaylı informasiya agentlikləri ("Trend", "Şərq", "Turan", «Assa-İradə», "Azadinform" və s.)

müntəzəm və davamlı şəkildə fəaliyyət göstərirlər.

Plüralist siyasi inforasiyanın formalaşmasında "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli Fərmanı çox əhəmiyyətli rol oynamışdır.

15 noyabr 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Dövlət sirləri haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq edəndən sonra cəmiyyətimizdə əsl demokratik siyasi informasiyanın inkişafı üçün geniş imkanlar açılmışdır. Bu onunla bağlıdır ki, dövlət sirlərinə dair təsisatın nəzarət funksiyalarında nəzərə çarpacaq dərəcədə ciddi, böyük dəyişikliklər baş vermişdir.

Siyasi mətbuatda demokratik prinsiplərin daha möhkəm dayaqlar üzərində qurulmasına həmişə tərəfdar olan Heydər Əliyev bununla bağlı rəsmi dövlət sənədlərindən birində öz mövqeyini belə qeyd etmişdir:

"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsini və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir" (15).

Məlum olduğu kimi, cəmiyyətdə inkişafa və yeniliyə doğru müsbət dəyişiklik mütərəqqi ideoloji zəmində təkamül yolu ilə həyata keçiriləndə demokratik siyasi mətbuatın imkanları genişlənir. Bu baxımdan, siyasi mətbuat, eləcə də radio və televiziya daim milli ideologiyadan bəhrələnərək milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması-





na ciddi diqqət yetirməlidir.

Heydər Əliyev siyasi mətbuatda siyasi informasiya sistemində plüralizmi dəstəkləyərək yazırdı:

- "Jurnalistlərin peşəkar səviyyəsini artırmaq, vətəndaşlarda kütləvi informasiya vasitələrinə obyektiv münasibət aşılamaq, mətbuatın imkanlarından bacarıq və məsuliyyətlə istifadə etmək istiqamətində həm dövlət, həm də mətbuat orqanlarının özləri çox iş görməlidirlər. Bununla bağlı kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin və digər əməkdaşların vətənpərvərliyi yüksək vətəndaşlıq məsuliyyəti, peşə hazırlığı, təhsili, təmiz mənəvi siması xüsusi əhəmiyyət kəsb edir" (111).

### § Heydər Əliyev və KİV-də plüralist demokratiyanın formalaşması

Demokratiya cəmiyyətin siyasi təşkilinin, idarəetmənin başlıca formalarındandır. Bu anlayış müxtəlif siyasi idarəetmə formasına malik olan dövlətlər üçün daha ümumi addır. Demokratiya bütöv ictimai hadisədir. Əgər o cəmiyyət həyatının bir sferasına, yalnız bir məsələyə tətbiq olunub, ictimai həyatın digər sahələrinə şamil edilmirsə dəyərli ola bilməz. Demokratiya mahiyyət etibarilə bütün ictimai hadisələrlə, eləcə də kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqə kəsb edir. Demokratiya fəal, yaradıcı olmaqla əxlaqi və siyasi inam və hissləri, ideoloji məsləki təcəssüm etdirməlidir. Anlayış plüralist demokratiyanın mahiyyətini dürüst başa düşməyə imkan yaradır. Plüralist demokratiya konsepsiyası ümumi formada belə bir müddəadan çıxış edir ki, dövlət yalnız hakimiyyətin həyata keçirilməsində iştirak edən çoxlu təşkilatların, muxtar qrupların və təbii ki, hakimiyyətin "dördüncü qolu" kimi səciyyələnən KİV-in mövcudluğu şəraitində mümkündür.

"Plüralist demokratiya" nəzəriyyəsi əsasən, mövcud siyasi hakimiyyətin demokratik sistemini araşdırır. KİV-də təzahür edən plüralist demokratiya da məhz bu mövqedən çıxış etməlidir.

Siyasi sahədə isə plüralizm çoxsaylı partiyaların və siyasi təsisatların, müxtəlif ideya-siyasi istiqamətlərin, cərəyanların və s. mövcudluğu ilə üzə çıxır.

Kütləvi informasiya vasitələrində plüralist demokratiyanın təşəkkülünü şərtləndirən amillər çoxsaylıdır. Lakin bu prosesin reallaşmasına KİV-in funksional mahiyyəti daha əhəmiyyətli təsir göstərir. Başqa sözlə, KİV-in məzmununu ifadə edən funksiyaları plüralist demokratiyanın təşəkkülü və formalaşmasında mühüm rol oynayır. İndiki şəraitdə KİV demokratik mahiyyətli biliklərin və məlumatların yayılmasının başlıca daşıyıcısıdır. Heç də təsadüfi deyil ki, Heydər Əliyev Prezidentliyi dövründə demokratik KİV-in formalaşmasına xüsusi əhəmiyyət verirdi. Bununla bağlı, o, bir tərəfdən kütləvi informasiya vasitələrində plüralist demokratiyanın təzahürünü reallığımızın zəruri amili kimi dəyərləndirir, digər tərəfdən onların funksiyalarının reallaşmasına, həyat həqiqətlərini düzgün, obyektiv əks etdirmələrinə xüsusi diqqət yetirirdi.

Demokratik, sivill cəmiyyət quruculuğu ilə səciyyələnən ölkələrdə, o cümlədən, Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin həyata keçirdikləri başlıca funksiyalar bunlardır: vətəndaşların məlumatlandırılması, təhsil, tərbiyə, siyasi sosiallaşma, nəzarət, inteqrasiya, səfərbəretmə.

Həmin funksiyalar bütövlükdə və qarşılıqlı əlaqə prosesində KİV-in demokratikləşməsinə ciddi təsir göstərirlər. Əlbəttə, hakimiyyət səviyyəsində demokratik cəmiyyət quruculuğuna maraq göstərilməsi prinsip etibarilə KİV-in plüralist demokratiyanın daşıyıcısı kimi çıxış





etməsinə real imkanlar yaradır. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövr ərzində KİV-in demokratik dəyərlər və prinsiplər əsasında fəaliyyət göstərməsini, həmin təbliğat vasitələrinin siyasi plüralizmin formalaşmasına səmərəli və məqsədyönlü təsirini ən vacib məsələlərdən biri hesab edirdi. Bu məsələ onun keçirdiyi mətbuat konfranslarında, jurnalistlərlə söhbətində başlıca diqqət mərkəzində dururdu.

KİV-in plüralist demokratiyanın formalaşmasına ciddi təsir göstərən funksiyalarından biri əhalinin (vətəndaşların) məlumatlandırılması funksiyasıdır. Həmin funksiyanın mahiyyəti bundan ibarətdir ki, nəinki dövlət orqanları üçün vacib məlumatların alınmasına və yayılmasına imkan yaradır, eləcə də əhalinin geniş təbəqələrinin əhatəli məlumatlandırılmasına istiqamətlənir. Məlumatlandırma funksiyasının köməyi ilə mənimsənilən informasiya zəminində insanların siyasi təsisatların, hökumətin və parlamentin fəaliyyəti haqqında rəyi təşəkkül tapır.

Kütləvi informasiya vasitələrinin təhsil funksiyası məlumatları düzgün mənalandırmağa yönələn biliklərin əldə olunmasına əlverişli imkan yaradır. Unutmaq olmaz ki, KİV müxtlif təhsil ocaqları ilə müqayisədə cəmiyyət üzvlərində siyasi, əxlaqi biliklərin sistemili səviyyədə formalaşmasına nail ola bilməz. KİV-in təhsil funksiyası təhsil müəssisələrinin müvafiq funksiyasından xeyli fərqlənir.

KİV-in sosiallaşma, xüsusilə siyasi sosiallaşma funksiyası vətəndaşların siyasi normaları, prinsipləri, dəyərləri və pozitiv davranış normalarına sahib olmağı təcəssüm etdirir. Sosiallaşma əhatəli anlayış olmaqla cəmiyyət üzvlərinin həyat fəaliyyətinin bütün sferalarını, eləcə də xüsusi sosial fenomen olan siyasəti özündə əks

etdirir. "Siyasi sosiallaşma" terminini siyasi leksikona ilk dəfə Q.Xaymen gətirmişdir. KİV öz fəaliyyətində nəzərə almalıdır ki, siyasi sosiallaşma siyasi şüurun, siyasi davranışın formalaşmasına təkan verir və son nəticədə ləyaqətli vətəndaşın, əsl siyasi şəxsiyyətin formalaşmasını təmin edir.

KİV-in nəzarət funksiyası da özünəməxsus təsir mexanizminə malikdir. Demokratik cəmiyyətdə kütləvi informasiya vasitələrinin nəzarət funksiyası həm ictimai rəyə və eləcə də qanunlara əsaslanır. İctimai rəy müxtəlif hakimiyyət strukturlarında, bütövlükdə isə cəmiyyətdə siyasətin səmərəli istiqamətini şərtləndirən vacib amillərdəndir.

Bir sözlə, KİV-in bu və ya digər funksiyaları plüralist demokratiyanın formalaşmasına özünəməxsus təsir göstərir. Yadda saxlamaq lazımdır ki, vətəndaşların siyasi passivliyi və kütləvi siyasi fəallığı KİV-in mövqeyi ilə birbaşa bağlıdır.

Azərbaycan Respublikası Milli Məclisində kütləvi informasiya vasitələrinin fəaliyyətinə dair qəbul olunan qanun bu təbliğat vasitələrinin ciddi siyasi məsuliyyət, siyasi etika və əxlaq prinsipləri əsasında, demokratik zəmində fəaliyyətini müəyyən edən əhəmiyyətli maddələrlə səciyyələnir.

Hazırda dövlətçiliyimizin möhkəmləndirilməsi naminə siyasi tədbirlərdə televiziya və radio kimi kütləvi kommunikasiya vasitələrindən siyasi məqsədlərlə istifadə edilməsinin zəruriliyi daim artır. Heydər Əliyev öz fəaliyyəti dövründə bu funksiyadan səmərəli və məqsədyönlü istifadə olunmasına böyük əhəmiyyət verirdi və demokratik idarəçiliyin zəruri amili hesab edirdi.

Cəmiyyətin müxtəlif təbəqələri arasında aparılan sosioloji tədqiqatlar və ictimai rəyi öyrənmə mərkəzləri-





nin gəldikləri nəticə göstərir ki, kütləvi informasiya vasitələrində, qəzet və jurnallarda, teleradioda sosial gerçəkliyin təbliği, cəmiyyətimizdəki bəzi ziddiyyətlərin üzə çıxarılıb araşdırılması, diskusiyalarda əldə olunan rəy və təkliflərin xalqa çatdırılması demokratik plüralizmin real təzahürüdür. Müxtəlif proqramlara malik siyasi partiyaların, ictimai-siyasi birlik və qrupların teleradio verilişlərində canlı müzakirələri çox vaxt ictimai rəyin formalaşmasına müsbət təsir göstərir, insanların fikir və düşüncələrində, şüurunda baş verən dəyişikliklərin səbəbi kimi səciyyələnir.

Başqa sivil ölkələrdə olduğu kimi, Azərbaycanda da gündən-günə genişlənən informasiya və telekommunikasiyanın inkişafı insanların bilik, savad və məlumat əldə etmək imkanlarını artırır, vaxt amilinin qənaətinə, ictimai-siyasi fəaliyyətində yeni meyillərin təzahürünə gətirib çıxarır.

Cəmiyyətdə ən vacib siyasi təsir vasitələrindən sayılan, insanların və hökumətin həmişə diqqət mərkəzində duran diskusiyaların mövzusunu müəyyənləşdirmək üçün əsas məqsədlərdən biri də siyasi mətbuatda aktual mövzunun dəqiqləşdirilməsi, müəyyənləşdirilməsi və geniş oxucu auditoriyasın da müzakirə çıxarılmasıdır.

Qəzet və jurnallarda, kütləvi informasiya vasitələrində plüralizm sferasında müəyyənləşdirilən təsir gücü insanların duyum və maraq dairəsinə uyğun seçilməlidir. Qəzet və jurnalların səhifələrində, televiziya və radionun verilişlərində hakimiyyət strukturlarının, xüsusilə prezidentin və eləcə də baş nazirin, Milli Məclis sədrinin fəaliyyətindəki vacib məqamlar geniş əksini tapmalıdır.

KİV-də Azərbaycan Respubilkasının bu günkü ictimai-siyasi, iqtisadi durumu ilə səsləşən, gündəlik həyat tərzi ilə bağlı mövzular ön plana keçməlidir. Əzəli və

əbədi torpaqlarımız olan Dağlıq Qarabağ üzərində Azərbaycan Konstitusiyası səlahiyyətlərinin bərpa edilməsi, Milli Ordumuzun daha da gücləndirilməsi, vətən torpaqlarının işğalçılardan təmizlənməsi, ölkəmizxin ərazi bütövlüyünün təmin olunması, işğaldan azad olunmuş rayonların, kəndlərin, şəhərlərin yenidən bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz dədə-baba torpaqlarında məskunlaşması...plüralist düşüncə tərzinin başlıca predmetini təşkil etməlidir.

Vətəndaşların əmin-amanlıqla yaşamasına, həyat üçün hər hansı təhlükə törədə biləcək hadisələrin qarşısının vaxtında alınmasına, terrorçuluğa, cinayətkarlığa qarşı mübarizə tədbirlərinin möhkəmləndirilməsinə həsr olunmuş yazılar, eləcə də elm, mədəniyyət, incəsənət haqqında məlumatlar vaxtaşırı çap olunmalıdır.

Xarici siyasətə, beynəlxalq əlaqələr sisteminə, dövlətlər arasında ortaq və əlverişli mənafeləri əks etdirən çoxşaxəli siyasi, iqtisadi, elmi-texniki və strateji əlaqələrə dair mövzular, silsilə yazılar daim dövriyyədə olmalıdır.

Milli dövlətçilik ideyaları və Azərbaycançılıq, Vətənçilik prinsipi, varislik, vətəndaş həmrəyliyi, sosial ədalət prinsipi, mədəni və mənəvi inkişaf proqramı, siyasi partiya və birliklərin, qrupların fəaliyyəti və siyasi liderlərin qazanlıqları uğurlar geniş işıqlandırılmalı, informasiya şəbəkəsinə qovuşdurulmalıdır. Heydər Əliyev bu mənada KİV-də plüralist demokratiyanın formalaşmasını həyati zərurət hesab edirdi.

Siyasətdə iştirakçılıq müasir siyasi sistemlərin demokratikləşməsini əks etdirən keyfiyyət xüsusiyyətlərindən başlıcası hesab olunur. Bu, demokratik cəmiyyətin azad, təşəbbüskar elementi kimi mənalanmaqla yanaşı, vətəndaşların siyasi mənafeyi ilə bağlı məsələlə-





rin həllində böyük rol oynayır. Sosial subyektlərin siyasi həyatda fəallığının digər mühüm göstəricisi seçkilərdə iştirak etməkdir.

Təəssüf ki, bəzən müxalifət partiyalarının siyasi mətbuatında vətəndaşları öz siyasi hüququndan geri çəkilməyə təhrik edən yazılara təsadüf olunur.

Lakin kütləvi informasiya vasitələrində, xüsusilə ictimai-siyasi mətbuatın bütün sferalarında Azərbaycan dövlətçiliyinin yeni sivil qaydalarla inkişaf etməsinə, möhkəmlənlirilməsinə, qanunvericilik tarixinin araşdırılıb öyrənilməsinə geniş təhlil aspektində diqqət yetirilən yazıların dərc edilməsi daha vacibdir. Azərbaycan Respublikasının tarixində daha əlamətdar siyasi hadisələr kimi yadda qalan yeni demokratik Konstitusiyanın qəbulu və müstəqil Azərbaycanda parlament seçkilərinin keçirilməsinə müəyyən müxalif qüvvələrin subyektiv münasibəti ilə əlaqədar KİV-in nümayəndələrinin çoxsaylı suallarını Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev belə cavablandırmışdır:

- "Bilirsiniz, hər kəs öz sözünü, öz fikrini deməkdə sərbəstdir. Ancaq bu, o demək deyildir ki, hər kəsin dediyi söz qanundur, - yaxud necə deyərlər, mütləq həqiqətdir. Sragün səhər Müsavat partiyasının qəzetini oxudum, orada yazırlar, xalqa müraciət edirlər ki, "Siz Konstitusiyanın ümumxalq referendumuna getməyin, səs verməyin". Bunun özü antidemokratik bir çağırışdır. Çünki əgər Müsavat partiyası və onun qəzeti demokratik yolda durursa, o deməlidir ki, "sən get, amma istədiyin səsi ver" (9).

Demokratik siyasi plüralizm heç də siyasi reallıqdan uzaqlaşmaq, həyat həqiqətlərinin inkarı deyildir. Obyektiv, müstəqil siyasi mətbuat isə Azərbaycan Respublikasının və xalqının taleyində çox mühüm hadisə

kimi dəyərləndirilən Azərbaycanın ilk milli Konstitusiyasının qəbulunu milli bayram kimi səciyyələndirib təbliğ etdi. Heydər Əliyevin sədrliyi ilə 35 nəfərdən ibarət olan Konstitusiya komissiyası 8 dəfə iclas keçirərək müstəqil Azərbaycanın ilk milli Konstitusiyanı yaratmışdır.

Həmin həyat qanununda komissiyanın sədri Heydər Əliyevin hüquqi, tarixi, fəlsəfi və dövlətşünaslıq baxışları və təklifləri əsas götürülmüşdür. Təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının memarı adlandırılır.

Plüralizm şəraitinə geniş meydan açan Konstitusiyamız ictimai rəydə "Heydər Əliyev Konstitusiyası" kimi formalaşmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinin 2-ci bəndində deyilir: "Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır" (1, 34).

Respublikamızda plüralist demokratiyanın vüsətlənməsi baxımından Prezident Heydər Əliyev tərəfindən 6 avqust 1998-ci ildə imzalanan fərman böyük əhəmiyyət kəsb etmişdir. Fərmanda demokratik dövlət quruculuğu şəraitində, ictimai-siyasi, fəlsəfi fikirli, azad, müstəqil mətbuatın inkişaf etdirilməsi üçün KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Nazirlər Kabinetinə bir vəzifə olaraq tapşırılmışdır ki, kütləvi informasiya vasitələrinin maddi, texniki vəziyyətinin yaxşılaşdırılması naminə öz əməli köməyini göstərsin. Mətbuata dövlət qayğısının artırılmasını nəzərdə tutmaqla söz, fikir, məlumat azadlığının təmin edilməsinə, qorunmasına, siyasi fikir müxtəlifliyinin əsas prinsiplərini rəhbər tutmaqla tədbirlər zərfini hazırlamaq və Azərbaycan Prezidentinə təqdim etmək tapşırılmışdır.





Ali qanunvericilik orqanı olan Milli Məclis isə bu məqsədlə müvafiq qanun layihələri hazırlamış, beynəlxalq konvensiya və sazişlərdə Azərbaycan Konstitusiyasında təsbit edilmiş vicdan və vətəndaşların fikir, söz və məlumat azadlığı müddəalarını əsas prinsiplər kimi iş planına daxil edərək, yeni təkliflərin layihələrini müzakirəyə çıxardı. 27 iyul 1999-cu ildə Milli Məclisdə Azərbaycan Respublikasının "Mətbuat haqqında" yeni Qanunun layihəsi geniş müzakirə obyektinə çevrildi.

Konseptual baxımdan yeni qanunun qəbul edilməsini şərtləndirən əsas səbəblərdən biri kimi də insanların şərəf və ləyaqətinin qorunması, azad mətbuatın formalaşmasında dövlət qayğısının gücləndirilməsi və xalqımızın tarixi adət-ənənələrinin, əxlaq dəyərlərinin qorunması və təbliğ olunması ön plana çəkilmişdir.

Maddi baxımdan başlıca amillərdən biri kimi, bütün informasiya vasitələrinin əlavə dəyər vergisindən azad edilməsi fərmanda öz əksini tapmışdı.

Beləliklə, mətbuatdan, ümumiyyətlə, bütövlükdə kütləvi informasiya vasitələri üzərindən senzura, nəzarət, hədə-qorxu götürüldü. Dövlətin mətbuata nəzarət mexanizmi ilə müdaxilə etmək hüququ aradan qalxdı. Bütün bunlar azad, müstəqil mətbuatın, kütləvi informasiya vasitələrinin fəaliyyət imkanlarının genişlənməsinə, siyasi plüralist kommunikasiya vasitələrinin milli dəyərlər ruhunda fəaliyyətinə Heydər Əliyevin əsl töhfəsi idi. "Mətbuat haqqında" Qanun demokratik mətbuatın inkişafına və formalaşmasına geniş meydan və imkanlar yaratdı.

Müstəqil Azərbaycanın Avropa söz azadlığına qoşulmaq səyləri Azərbaycan Respublikası üçün Avropa Şurasına yol açırdı.

Sərbəst düşüncə və demokratik siyasi plüralizm meyili gücləndi. İnsan hüquqlarının qorunması sahəsində Avropa şurası Nazirlər Kabinetinin "Söz və informasiya azadlığına dair" 29 aprul 1982-ci il tarixli məşhur bəyannaməsi Avropa Şurasının üzvlüyündə olan ölkələr üçün nəzərdə tutulsa da, Azərbaycan Respublikası həmin sənədin I bəndinə uyğun olaraq daha çox demokratiya və qanunun aliliyi prinsiplərini bu sahədə əsas fəaliyyət proqramı kimi qəbul etmişdi.

8 milyon əhalisi olan bir ölkədə 3500-dən çox informasiya vasitəsi qeydiyyatdan keçdi. Kütləvi informasiya vasitələrinin qeydə və yenidən qeydə alınması qaydalarını tənzimləyən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasını Qanunu qəbul edildi.

6 avqust 1998-ci il fərmanından sonra Azərbaycan Respublikasında mətbuata lisenziya verilməsi qanunla qadağan olundu. Onlar yalnız hüquqi şəxs kimi dövlət qeydiyyatından keçməli oldular.

Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli fərmanı isə Azərbaycan Respublikasının bütün dünyaya, əsasən Avropaya inteqrasiyası prosesinin daha da sürətləndirilməsinə və demokratiyanın inkişaf etdirilməsinə böyük şərait yaratdı.

Artıq ölkəmiz insan hüquq və azadlıqları sahəsində 125 beynəlxalq konvensiya və sazişə qoşulmuşdur. Bütün bunlar deməyə əsas verir ki, sosial gerçəkliyin praktiki təhlilindən doğan mətbuata, insana, onun hüquqlarına, şərəf və ləyaqətinə hörmət Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi mühüm tədbirlərin strateji sahəsinin tərkib hissəsi kimi qəbul olunmuşdur.

Əgər dövlət mətbuatda nəzarət funksiyasını ləğv edirsə deməli, mətbuat işçiləri, xüsusi ilə redaktorlar bu





vəzifəni əqidə və mənəviyyat senzurunun nəzarətinə çevirməlidirlər.

Prezident fərmanında göstərldiyi kimi "Kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin vətənpərvərliyi, yüksək vətəndaşlıq məsuliyyəti, peşə hazırlığı, təhsili, təmiz mənəvi siması olmalıdır".

Təəssüf ki, vətənpərvərliyi, təhsili, ən başlıcası isə təmiz mənəvi siması olmayan bir qrup adamlar mətbuata daraşaraq, jurnallistika sənətini gözdən, nüfuzdan salır, bu peşəyə ləkə gətirirlər. Bu isə sağlam demokratik plüralizmə qarşı çevrilən neqativ xüsusiyyətdir, mənəviyyata, mənəviliyə zidd haldır.

"Azərbaycanda mətbuat, söz azadlığı üçün bundan sonra da bütün imkanlar yaradılacaqdır" devizi altında 18 dekabr 2001-ci ildə Prezident Sarayında kütləvi informasiya vasitələrinin rəhbərləri ilə keçirilən görüşdə Heydər Əliyev demişdir:

"Bir neçə gün öncə, yenə ANS kanalında idi, - hansı partiyanınsa nümayəndəsi Yeni Azərbaycan Partiyasının nümayəndəsi ilə dialoq aparırdı. Bilirsiniz, Azərbaycan Prezidenti haqqında, onun ailəsi haqqında elə sözlər danışdı ki, vallah, heç insanlığa yaraşmayan şeydir. Mən bunu dinlədim. Amma bu məni heç də narahat etmədi. İndi əgər onun şüur dairəsi, yaxud tərbiyə, əxlaq səviyyəsi o dərəcədədirsə, qoy o dərəcədə danışsın. Mən bunu ona görə deyirəm ki, bizdə söz azadlığı var, insanlar azaddır, sərbəstdir...".

Prezident Heydər Əliyev heç bir mətbuatı heç vaxt məhkəməyə vermədi, hətta qəzet və jurnalları məhkəmələrə cəlb etdirib, cərimələr tətbiq etdirən məmurlara da tövsiyə etdi ki, bağışlamaq, günahdan keçmək yolunu tutsunlar.

Heydər Əliyevin məqsədyönlü fəaliyyəti gerçəkliy-

ini nəzəri və praktiki təhlilindən doğan açıq sözün, azad düşüncənin dərinləşməsinə, geniş yayılmasına istiqamətlənmişdi, milli-bəşəri dəyərlərin inkişafına yönəlmişdi. "Müasir dövrdə, bütün dünyada müşahidə olunan əsas tendensiyalardan biri də milli etnik və dini dəyərlərdən ümumbəşəri dəyərlərə doğru, əxlaq və adət-ənənədən hüquq və qanunçuluğa doğru yerdəyişmədir, hərəkətdir..." (38, 106).

Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanın dünya sivilizasiyasına qoşulmağına xidmət edirdi. Bu qoşulma və inteqrasiya həm də ona görə çox önəmli və mühüm əhəmiyyət kəsb edir ki, bu siyasətin tərkib hissəsi - hərəkət obrazı kimi daim inkişafda olan ideologiyamızın milliliyindən və azərbaycançılıqdan ibarət idi.

Milli ideologiya məhz mənsub olduğu xalqın şüurunda, fikir və düşüncələrində, ən başlıcası isə möhkəm iradəsində, mənəviyyatında formalaşır.

Bu mənada milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişaf etdirilməsində xalqımızın başlıca mənəvi sərvəti olan Azərbaycan dili böyük rol oynamışdır. "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır" deyən Heydər Əliyev 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Konstitusiyasının 21-ci maddəsi ilə ana dilimizin qanunvenricilik qaydasında rəsmiləşməsinə nail oldu.

18 iyun 2001-ci il tarixdə isə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı.

Fərmanda çox haqlı olaraq, tarixin müxtəlif mərhələlərində Azərbaycan dilinə qarşı həyata keçirilmiş təzyiqlər, haqsızlıqlar da yada salınmışdır. Bu mühüm dövlət sənədindən sonra 2004-cü il 12 yanvar tarixində isə İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı





ana dilimizin əbədiliyinə, gələcəyinə birdəfəlik təminat yaratdı.

Heydər Əliyevin öz təbiri ilə desək, çox təəssüf ki, Sovet dönəmində kommunist tədqiqatlarında milli ideologiya çox vaxt səhv olaraq millətçilik ideologiyası adı altında tənqidə və təqibə məruz qalırdı. Həyat həqiqətlərində isə sosial fəlsəfi ideya tutumuna görə Azərbaycan milli ideologiyasının bünövrəsi, təməli isə heç vaxt, millətçilik və etnik identifikasiya əsaslanmamışdı.

Bütün bunlara baxmayaraq, hətta vəziyyət o həddə gəlib çatmışdı ki, Azərbaycan xalqının intellektual mədəniyyətinin ən böyük abidəsi olan "Kitabi-Dədə Qorqud" eposuna böhtan da atılmışdır. Özü də öz ölkəmizdə, ən böyük tribunadan. Belə ki, 1951-ci ildə Azərbaycan Kommunist Partiyasının XVII qurultayının hesabat məruzəsində deyilmişdir:

"Dədə-Qorqud" kitabı başdan-başa soyğunçuluq və qarət məqsədi ilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təqəbəsinin təriflənməsinə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur".

Hər bir xalqın mövcudluğu onun mədəniyyəti ilə bağlı olduğu kimi inkişafı, tərəqqisi də köhnə mənəvi dəyərlərin mənimsənilməsi və qorunub saxlanılması ilə qırılmaz surətdə bağlıdır.

Heydər Əliyevin Respublikaya rəhbərliyə gəlişindən sonra Dədə Qorqud müdrikliyi xalqımızın mənəvi dünyasının əbədiyaşar dastanı kimi sanki yenidən kəşf edildi, geniş təbliğat obyektinə çevrildi, dərsliklərə salındı, xalq tərəfindən mənimsənildi.

1997-ci ildə 20 aprel tarixli prezident fərmanı ilə "Kitabi-Dədə Qorqud" eposunun yaranmasının 1300 illiyinə həsr olunmuş möhtəşəm yubileyin keçirilməsi üçün

dövlət komissiyası yaradıldı.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra isə Heydər Əliyevin ictimai-siyasi və fəlsəfi baxışları, məruzə və çıxışları tövsiyələri Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, cəmiyyətimizin sivilləşməsinə, siyasi cəhətdən zənginləşməsinə daha geniş və əlverişli şərait yaratmışdır. Bütün bunlar KİV-in, xüsusilə siyasi mətbuatın daha geniş inkişafına, plüralist demokratiyanın hüdudlarının genişlənməsinə təkan verdi.

Pluralist demokratiyanın prinsiplərinin nüfuz sferası çoxcəhətlidir. Keçən əsrin axırıncı onilliklərindən etibarən dünya politoloqları, xüsusilə Qərb siyasi elminin tədqiqatçıları plüralizm prinsiplərini hakimiyyətin icraedici qoluna yaymağa cəhd edirlər. XX əsrin 70-80-ci illərində nəşr olunan bəzi tədqiqat işlərində plüralizm çoxpartiyalı zəmində yalnız dövlətin nümayəndəli orqanlarının deyil, həmçinin nümayəndəli təsisatların təşkilini tələb edir. Sözün bu mənasında KİV-də demokratik plüralizmin formalaşması prinsiplərinin tədqiqi və təhlili həyati zərurətdir.

### § Keçid dövründə Azərbaycanda demokratik mətbuatın inkişaf xüsusiyyətləri

Keçid dövründə baş verən sosial, iqtisadi və siyasi dəyişikliklər demokratik mətbuatın bu və ya digər səviyyədə və dərəcədə inkişafına səbəb olur. İctimai həyatın müxtəlif sferalarında baş verən yeniliklər KİV-in və eləcə də mətbuatın sivil qaydalar zəminində formalaşması imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Sovet məkanından informasiya cəmiyyətinə, yeni sivilizasiyaya keçid dövrünün ən nəzərə çarpan proseslərindən biri də məhz mətbuatın funksiyalarının yeniləş-





məsidir, insanların ictimai şüuruna, düşüncə tərzinə rasional nüfuz etmək qabiliyyətinin güclənməsidir.

Keçid dövründə təzahür edən proseslərin təhlili və dərk edilməsi həmin prosesdə iştirak edənlərin şüurluluğu və sosial mövqeyi ilə bilavasitə bağlıdır. Təbii ki, bu prosesdə vətəndaşların mətbuatla, kommunikasiya vasitələri ilə qarşılıqlı münasibəti və əlaqəsi müəyyən problemlərin yaranmasını şərtləndirir.

Keçid mərhələsində həyata keçirilən siyasi və iqtisadi xarakterli islahatlar həyat şəraitini gərginləşdirsə də, bütövlükdə və nəticə etibarilə daha azad və müstəqil xarakterli düşüncə tərzinin və sosial münasibətlərin formalaşmasına zəmin yaradır.

"Şəxsiyyət-cəmiyyət" münasibətlərində üzə çıxan mürəkkəb məqamlar və ziddiyyətlər başlıca problemlərdən biri kimi nəzərə çarpır. Bu problemin həllinə təsir göstərən amillər çoxcəhətlidir. Lakin həmin amillər sistemində demokratik mətbuat özünəməxsus əhəmiyyətli rol oynayır. Heç də təsadüfi deyil ki, respublikamızda dövlət səviyyəsində bütün demokratik təsisatların və eləcə də KİV-in funksiyalarının təkmilləşdirilməsinə ciddi diqqət yetirilir, keçid dövrünün qanunauyğunluqlarından doğan mənəvi-mədəni və siyasi-əxlaqi məsələlərin səmərəli həllinə geniş zəmin yaradılır.

Transformasiya şəraitində Azərbaycan dövlətinin siyasi simasını səciyyələndirən demokratiya mətbuatın fəaliyyətinin və mahiyyətinin tərkib hissəsi kimi çıxış edir.

Yeni təfəkkür tərzini səciyyələndirən siyasi şüur, bütöv universal hadisə kimi mənalanan demokratiya mənəvi dəyərlər sisteminə sivil mahiyyətli və sosial-siyasi təsiri ilə səciyyələnməklə milli şüurun formalaşmasında müstəsna rol oynayır.

Ölkəmizdə müstəqil demokratik və hüquqi dövlət quruculuğunun uğurlu prosesi ictimai həyatımızın bütün sahələrində olduğu kimi, mətbuatda və informasiya məkanında da demokratik prinisplərin formalaşmasına real zəmin yaradır.

İnformasiya şəraitində mətbuat cəmiyyətdə gedən siyasi proseslərin, aşkarlığın, fikir, söz azadlığının və eləcə də sosial mühitin zənginləşməsinin xüsusi ünsürü kimi nəzərə çarpır, özü də Azərbaycan xalqının milli maraqları çərçivəsində.

Cəmiyyətin ümumi inkişaf səviyyəsi ilə üst-üstə düşən və bununla şərtlənən siyasi mətbuatımızın aktual problemləri, real vəziyyəti, milli-mənəvi səviyyəsi Azərbaycan dövlətinin daxili siyasətinin ən vacib sosial məqamları ilə aydın surətdə səsləşir.

Prezident Heydər Əliyevin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" 27 mart 2000-ci il tarixli məşhur fərmanı transformasiya şəraitində nəinki milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, eyni zamanda ümumbəşəri dəyərlərin sintezinə, inteqrasiyasına qoşulmaqla mədəniyyətimizin, milli mətbuatımızın, milli mənlik şüurunun, - azərbaycançılığın və milli mentalitetin formalaşmasında əhəmiyyətli rol oynadı.

"Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanının müddəaları milli siyasi mentalitetin formalaşması baxımından demokratik mahiyyətli böyük tarixi sənəddir, elə bir sənəd ki, ilk milli mətbuatımızın yarandığı vaxtdan indiki keçid dövrünə qədər mətbuatımızın bütün inkişaf məqamlarını özündə aydın şəkildə əks etdirir.

- "Milli özünüdərkin bərqərar olunmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsində öz böyük töhfəsini vermişdir".





Hazırkı şəraitdə Azərbaycan mətbuatının ictimai-siyasi və mədəni həyatımızın inkişafında mühüm rolunu və böyük əhəmiyyətini nəzərə alaraq, demokratik mətbuatın 125 illiyinin geniş surətdə və təntənəli şəraitdə qeyd olunması haqqında fərman imzalamaqla Heydər Əliyev bir daha sübut etdi ki, o, prezident kimi azad sözün, siyasi plüralizmin təminatçısıdır.

Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında 27 mart 2000-ci ildə imzalanan tarixi fərmanın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev elə həmin il 21 iyul fərmandan 4 ay sonra Prezident Sarayında uzun illər Azərbaycan mətbuatı tarixindən silinməyəcək həmin məsul tədbiri giriş sözüylə açaraq demişdir ki, "Mən çoxdan arzu edirəm ki, mətbuat nümayəndələri ilə görüşüm. Beləliklə, yenə də deyirəm bu gün mənim çoxdankı arzum yerinə yetir. Amma bilirəm ki, bu sizin də bəzilərinizin arzusu idi. Çünki bir neçə vaxt bundan öncə qəzet redaktorlarından bir neçəsi mənə müraciət edib, görüş istəmişdilər".

Bu səmimi etiraf demokratik mətbuatın gələcək inkişafının dəyərli meyarı kimi səslənir.

Həmin tədbirdə 1990-cı illərin əvvəllərində ilk azad, sərbəst qəzet kimi fəaliyyətə başlayan "Azadlıq" qəzetinin baş redaktoruna – G.Tahirliyə ilk söz verildi. Mətbuatı Azərbaycan Respublikasının həyatında ictimai sabitliyin, siyasi quruluşun, dövlət təhlükəsizliyinin təminatları sistemində vacib elementlərdən biri kimi izah edən baş redaktor bəzi dövlət məmurlarının "Kütləvi in-

formasiya vasitələri haqqında" Qanunun tələblərinə etinasız yanaşmalarını – qəzetin sorğularına cavab verilməməsini toplantı iştirakçılarının nəzərinə çatdırdı:

"Halbuki, sorğuya cavabın verilməməsinə görə məmurun məsuliyyət daşıması Azərbaycan qanunvericiliyində konkret maddələrlə nəzərdə tutulubdur".

"Azadlıq" qəzetinin baş redaktorunun daha sonra Prezident Heydər Əliyevin Azərbaycan qəzetlərinə, ümumiyyətlə Azərbaycan kütləvi informasiya vasitələrinə cəmi bir dəfə müsahibəsi olubdur deyə iradını da gizlətmədi: "Xarici kütləvi informasiya vasitələrində irili-xırdalı müsahibələrinizə rast gəlirik və bir sıra mühüm hadisələrlə bağlı Sizin açıqlamalarınız məhz xarici kütləvi informasiya vasitələrində səslənir" sözündən sonra ictimai-siyasi polemika praktikasında böyük dialoq ustası olan, hadisələrin gedişinə rəğmən işgüzar müzakirə ovqatı yaratmaqda mahir olan Heydər Əliyev xarici mətbuatda daha çox çıxış etməsini belə əsaslandırdı ki, həmin informasiya vasitələrindən istifadə etməklə müstəqil Azərbaycan dövlətinin ən vacib atributlarından olan ərazi bütövlüyünün bərpasına dair təbliğat imkanı əldə etməkdir:

- "Mən sizin iradınızı anlayıram və təbii ki, nəzərə alacağam. Ayrı-ayrı dövlətlərdə bir neçə xeyirxah adamlar deyirlər ki, Avropada, Amerikada, müxtəlif xarici ölkələrdə təbliğatımız yoxdur. Ermənilərin təbliğatı var! Ona görə də siz uduzursunuz, indi bizim təbliğatımız həqiqətən zəifdir. Ona görə də mənim bir prezident kimi və məndən başqa şəxslərin də o xarici ölkələrə müsahibə verməsi zəruri haldır" (10).

"Bir sıra mühüm hadisələrlə bağlı Sizin açıqlamalarınız məhz xarici kütləvi informasiya vasitələrində səslənir" iradına cavab olaraq Heydər Əliyev bir daha de-





mişdir:

"Bilirsiniz, siz bunu düzgün qiymətləndirməlisiniz. Ona görə yox ki, mən müsahibə vermək istəmirəm. Mən xarici mətbuat orqanlarının nə qədər müraciətini yerinə yetirə bilmirəm. Çünki, axı mənim işim çoxdur. Mən yenə də deyirəm, təsəvvür edin, bu gün saat 2-də "Tayms" qəzetinin müxbiri ilə görüşmüşəm, sonra "Ekonomist" jurnalı ilə, ondan sonra "Rifah" təşkilatının nümayəndə heyəti ilə. Mən bunların hər biri ilə görüşürəm, planlaşdırıram, deyirəm ki, məsələn, mən sənə 40 dəqiqə vaxt verirəm. Amma o danışır, danışır və deyir, bir beş dəqiqə də artırın, sonra deyir, beş dəqiqə də əlavə edin. Təsəvvür edin ki, vallah, mən saat 2-yə qədər cari işlərlə məşğul oluram, saat 2-dən indiyə qədər nəfəs almağa vaxtım olmayıbdır. Başa düşürsünüz?"

Beləliklə, Heydər Əliyev faktlarla sübut etdi ki, müasir şəraitdə gündən-günə genişlənən informasiya telekommunikasiya inqilabına qoşularaq, çoxtərəfli və dialoq şəklində informasiya əlaqələrini yaradaraq, Azərbaycan Respublikasının Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasını bəyən edərək bunu bir çox xarici dövlətlərin mətbuat orqanları ilə bütün dünyaya yaymışdır.

Kütləvi informasiya vasitələrinin rəhbərləri ilə canlı və işgüzar dialoq əsasında təşkil edilən böyük tədbirdə mətbuatın siyasətlə vəhdəti vurğulanaraq, qeyd olunmuşdur ki, kütləvi informasiya vasitələri siyasətin ayrılmaz və aparıcı tərkib hissəsidir. İctimai fəaliyyətin çoxlu müxtəlif növləri mövcuddur. Araşdırma və tədqiqatlar zamanı sübut olunmuşdur ki, siyasət məlumat mübadiləsi baxımından mətbuata daha çox bağlıdır.

Bu günkü politologiya elmi çox haqlı olaraq kütləvi informasiya vasitələrini hətta arbitr kimi səciyyə-

ləndirərək, radio və televiziyanın da siyasi təsir və ictimai rəy formalaşdırmaq vəzifəsini geniş dəyərləndirir. Radio və Televiziyanın kütləvi kommunikasiya proseslərindən siyasi məqsədlər naminə geniş istifadə olunması üçün öz imkanlarını günü-gündən artırması və genişləndirməsi aydın nəzərə çarpır. Ölkəmizdə kütləvi informasiya vasitələrinin ən əsas komponenti kimi üzdə olan və öz ətrafına çoxlu xalq kütlələri toplaya bilən televiziya ictimai-siyasi olayların, günün reallıqlarının, sosial gerçəkliyin aynası kimi fəaliyyət göstərir. Hətta 1952-ci ildən başlayan "Televiziya erası"ndan söz açan siyasi xadimlər belə bir təşbehdən də istifadə edərək deyirlər: "Televiziyaya nəzarət edən adam bütün ölkəyə nəzarət edir".

Mövzuların seçilməsi və müəyyənləşdirilməsində kütləvi informasiya vasitələri aşağıdakı bir neçə vacib ümumi prinsiplərə əsaslanır:

Birincisi, vətəndaşları maraqlandıran problemlərin seçilməsi. Bu problemlər sırasında vətəndaşların əmin-amanlığı, təhlükəsizliyi üçün qorxu yaradan amillər, xüsusilə hazırkı şəraitdə bütün ölkələr üçün təhlükə törədən terrorçuluq, ekoloji və demoqrafik partlayış xüsusi yer tutur.

İkincisi, qeyri-adiliyi ilə seçilən faktların nəzərə çatdırılması. Yəni aclıq, müharibə, münaqişələr, cinayətkarlıq və s. halların işıqlandırılması digər hadisələrlə müqayisədə ön plana keçir. Bu KİV-in, xüsusilə mətbuatın mənfi məzmun daşıyan məlumatları yaymağa meyilli olması ilə bağlıdır.

Üçüncüsü, yeni faktların çatdırılması. Başqa sözlə, cəmiyyət üzvlərinə ətraflı səviyyədə məlum olmayan informasiyanın televiziya, radio və mətbuat tərəfindən vətəndaşlara çatdırılması. Yeni faktlar iqtisadi, siyasi və





əxlaqi xarakterli ola bilər: iqştisadi inkişafın nəticələrinə, işsizliyə, siyasi təsisatların fəaliyyətinə dair və s.

Dördüncüsü, siyasi uğurlar. KİV-in, xüsusilə siyasi mətbuatın bu prinsiplə şərtlənən fəaliyyətində siyasi liderlərin, siyasi partiya və təşkilatların, bəzi dövlətlərin əldə etdiyi uğurlara dair məqamlar nəzərə çatdırılır.

Beşincisi, yüksək sosial status. Kütləvi kommunikasiya vasitələrinin statusu nə qədər yüksək olarsa, bununla bağlı məlumat mübadiləsi və verilişlər də daha çox əhəmiyyət kəsb edir. Yəni siyasi, hərbi xarakterli yüksək vəzifələrdə və digər təsisatlarda təmsil olunan insanlar televiziya, radio və mətbuata asanlıqla nüfuz edirlər. Məsələn, mətbuatın ilk səhifələrində ölkə başçısının, baş nazirin, spikerin, güc nazirliklərinin fəaliyyətinin ən önəmli cəhətləri öz əksini tapır.

Hazırkı şəraitdə dünyada demokratik, sivil cəmiyyət quruculuğu üçün real təhlükə yaradan spesifik siyasi amillərdən biri məhz televiziya, radio və mətbuatdan siyasi manipülyasiya məqsədilə istifadə edilməsidir. Siyasi manipulyasiya hər hansı qrupun, partiyanın, təsisatın öz mənafeyi ilə bağlı cəmiyyət üzvlərinin ictimai və fərdi şüuruna, fəaliyyəti və davranışına üstüörtülü, gizli səviyyədə təsir göstərməsini səciyyələndirir. Manipulyasiya yalnız qeyri-obyektivliyə, yalana əsaslanır. Ümumdövlət səviyyəsində isə siyasi manipulyasiyanın ümumi texnologiyası insanların kütləvi şüuruna sosial-siyasi miflərin yeridilməsinə nail olmaqdan ibarətdir. Heç də təsadüfi deyil ki, siyasi elita öz hökmranlığını qərarlaşdırmaq, hakimiyyəti qoruyub saxlamaq məqsədilə sosial-siyasi miflərdən istifadə edir.

Kütləvi informasiya vasitələrinin ən güclü siyasi təsir və nüfuz vasitələrindən biri ictimaiyyətin və hökumət dairələrinin həmişə düşündükləri, diqqət mərkəzində

saxladıqları mühüm məsələlərin, mövzuların istiqamətini dolğun və hərtərəfli müəyyənləşdirməsi məsələsidir.

Siyasi mövzuların tapılıb seçilməsi, gündəmə gətirilib müzakirəyə çıxarılması bir tərəfdən ictimai rəydən irəli gəlirsə, digər tərəfdən kütləvi informasiya vasitələrinin rəhbərliyi ilə bağlı ola bilər. İnformasiyanın azad, müxtəlif fikirliliyi şəraitindəki seçim - yəni diskusiyaların mövzusu spesifik qaydaların təsiri ilə müəyyən olunur. Belə tədbirlərin həyata keçirilməsində əsas məqsədi məhz kütləvi informasiya vasitələri özü üçün seçir: Uğur qazanmaq, populyarlığı öz ətrafında cəmləşdirmək.

Əslində kütləvi informasiya vasitələrinin rəhbərliyi müzakirə mövzularının araşdırılıb üzə çıxarılmasında, dövriyyəyə buraxılmasında bir neçə prinsipləri meyar kimi əsas tutmalıdır:

Hamını düşündürən, vətəndaşlar üçün taleyüklü məsələlər – əmin-amanlıq, həyat təhlükəsizliyi, qorxu yarada bilən hadisələr, terror, ekoloji sağlamlıq və s. Cinayətkarlığa qarşı mübarizə tədbirlərinə dair, faktların şəffaflığı, operativlik, siyasi partiyaların, ictimai birliklərin fəaliyyəti və digər bu kimi mövzular siyasi mətbuatın gündəlik mövzuları kimi yayımlanmalıdır.

Təcrübə təsdiqləyir ki, aktual mövzular sayəsində geniş oxucu auditoriyası əldə edən obyektiv siyasi mətbuat dövlətçiliyimizin möhkəmləndirilməsində və təkmilləşdirilməsində böyük rol oynayır.

62 respondent – kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatların rəhbərləri və ekspertləri arasında sorğu keçirilmişdir. Sorğunun yekun protokoluna əsasən qiymətləndirilənlərin ümumi sayı 63, ən aşağı bal 1, orta bal 18, ən yüksək bal isə 37 olmuşdur. Sorğuda 29 qəzet, 16 ekspert, 7 informasiya agentliyi, 6 jurnalist təşkilatı, 3 telerodio şirkəti və 1 jurnal nümayəndəliyi





iştirak etmişdir.

"Jurnalistlərin dostu" nominasiyası üzrə sorğunun nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev qalib elan edilmişdir. Sorğunun nəticələri "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin idarə heyəti iclasının protokolu ilə təsdiq olunmuşdur. Rəsmi məlumatda deyilir:

"Məqsəd ölkədə söz və mətbuat azadlığını dəstəkləmək, azad və müstəqil mətbuatın möhkəmlənməsinə yardımçı olmaq, medianın 4-cü hakimiyyət kimi formalaşmasında dövlət məmurlarının və siyasi xadimlərin dəstəyini qazanmaq, bir sözlə, Azərbaycanda demokratik proseslərin inkişafına təkan verməkdən ibarətdir. Qaliblər hər ilin sonunda media rəhbərləri və ekspertlər arasında keçirilən ənənəvi sorğu nəticəsində müəyyənləşdirilir, söz və mətbuat azadlığına daha çox töhfə verən şəxsə "Jurnalistlərin dostu" adı verilir və mükafat ona təqdim edilir".

2001-ci ildə Azərbaycan jurnalistikası çox ziddiyyətli və mürəkkəb bir dövr keçmişdir. Bu müddətdə baş verən qanun pozuntuları digər illərə nisbətən heç də az olmamışdır. Jurnalistlərdən bəziləri xidməti vəzifələrini yerinə yetirərkən döyülmüş, təhqir olunmuş, cərimələnmiş, hətta həbs olunmuşlar. İl ərzində 4 mətbu orqan bağlanmışdır.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan mətbuatının inkişafında çox mühüm hadisələr baş vermişdir. "Kütləvi informasiya vasitələri haqqında" Qanuna edilən əlavələr və dəyişikliklər nəticəsində kütləvi informasiya vasitələrinin hüquqi bazası tamamilə yeniləşmiş, demokratik prinsiplərə tam cavab verən qanun qəbul olunmuşdur. Müstəqilliyini Azərbaycanla eyni vaxtda qazanmış digər MDB ölkələrinin heç birində belə

demokratik və mütərəqqi qanun yoxdur. Hazırda "Televiziya və radionun fəaliyyəti haqqında" qanun layihəsi üzrə iş gedir. Yaxın günlərdə müasir tələblərə tam cavab verə bilən yeni bir qanuna malik olacağıq.

Kütləvi informasiya vasitələrinin iqtisadi bazasının möhkəmləndirilməsi istiqamətində də əməli addımlar atılmışdır. KİV-lərdən tutulan mənfəət vergilərinin 3 il müddətində dövlətin hesabına ödənilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları dondurulmuşdur.

Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatını və diplomunu alarkən demişdir:

- "Mən keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostu olacağam!"

"Jurnalistlik çətin sənətdir" deyən Heydər Əliyev təfəkkürün demokratikləşməsi prosesinin gündən-günə genişləndiyi hazırkı dövrdə xalqımızın keçmişi, bu günü və gələcəyi haqqında olan həqiqətləri qəzet səhifələrinə çıxartmaq, adamlara çatdırmaq, hadisələri subyektiv mülahizələrlə, emosiyalarla deyil, sağlam zəka, obyektiv reallıqla əsaslandıraraq yazmağı, doğru sözü əsl sənətin vəzifə borcu, həm də mənəvi borcu kimi səciyyələndirmişdir", prezident mərasim iştirakçılarının nəzərinə çatdırmışdır:

"Biz senzuranı ləğv etdik. Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır. Heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır!" (59).

Söz, fikir, mətbuat azadlığı şəraitində nəşr olunan qəzetlərin yazarları dərin təfəkkür mədəniyyətinə sahib olmalı, gündən-günə dəyişən ictimai həyatdan, təzadlarla





dolu hadisələrdən obyektiv nəticə çıxararaq, müstəqil qərar qəbul etmək, yalnız həqiqətlərə arxalanaraq oxucu üzünə çıxmalıdırlar.

Bütün bunların fonunda kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturları arasında qarşılıqlı əlaqənin vəhdəti yalnız siyasi müvəffəqiyyətə gətirib çıxara bilər. Mətbuatın inkişafı və tərəqqisi üçün qəzetlərin borclarının silinməsi məqsədilə tapşırıq verən prezident Heydər Əliyev həm də mətbuata uzun müddətli, az faizli kreditlər verilməsini təqdir edərək dedi:

"Ancaq gəlin həqiqi dost olaq. Mən sizinlə – jurnalistlərlə dost olmaq istəyirəm. Amma dostluq ikitərəfli şeydir. Gərək hər iki tərəf dost olmaq istəsin. İndi belə bir hadisə baş verib, iş elə gətirib ki, biz – iki tərəf də dost olmaq istəmişik. Amma gəlin danışaq ki, bu daha pozulmasın, biz dost olaq, axıra qədər dost olaq. Mən dost olmaq istəyirəm" (98).

Hakimiyyətlə mətbuatın qarşılıqlı əlaqəsi həm mətbuatın, həm də dövlətin bu sahədəki dinamik və yüksələn fəaliyyəti üçün zəruri olan digər vəzifələrin də həyata keçməsinə zəmin yaradır.

Beynəlxalq anlama əsasən «Media institutlarının hakimiyyətlə əlaqəli olan məntiqi azadlığı, əsasən demokratiyanın əsaslandığı liberal konsepsiyasının yüksəlişi ilə müşaiyət olunur: burada görüşlərin aktuallığı, individual müvəffəqiyyətlərin gücü, informasiyaların dolğunluğu üstünlük təşkil edir». (117)

Beləliklə, ictimai-siyasi hadisələrin, dövlət siyasətinin mediada ədalətli, obyektiv işıqlandırılması, beynəlxalq informasiya mübadiləsində yeni, müasir imkanlar açan elektron mətbuatın geniş tətbiqi hakimiyyətə mətbuatın, necə deyərlər, dost, birgə fəaliyyətinə geniş imkanlar yaradır.

Böyük siyasət və mədəniyyət dünyası ilə dostluq etmək, qarşılıqlı əlaqəni yaradıcılıqla inkişaf etdirmək təkcə jurnalistlərə deyil, bütövlükdə Azərbaycan oxucusuna milli-mənəvi, ictimai-siyasi dəyərlər bəxş edər.

Tanınmış Amerika jurnalisti Ceyms Reston "Mətbuat artilleriyası" kitabında yazır:

"Ağıllı məmurlar jurnalistləri idarə etməlidirlər. Ağıllı jurnalistlər də hökuməti çıxılmaz vəziyyətdə, zərbə altında qoymamalıdırlar. Hər iki tərəf cəmiyyətin get-gedə artan ağıllı azlığıyla və bir-biri ilə əməkdaşlıq etsə, udmuş olar. Kütləvi informasiya vasitələri ilə hökumət arasında qarşıdurma yalnız mətbuatın ziyanınadır" (40).

Hüquqi və demokratik dövlətin ən mühüm tərəfi sayılan vətəndaş cəmiyyətində müstəqil mətbuatın siyasi ideologiyası, mahiyyəti, səviyyəsi və ümdə vəzifələrinin əsas inkişaf istiqamətlərini aşağıda göstərdiyimiz amillər təşkil etməlidir:

- vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;
- fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;
- insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artılırması;
- ictmai və dövlət maraqlarının müdafiəsi;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimayyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi;
- Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;
- qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin işıqlandırılması;
- Azərbaycan dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği;
- azərbaycançılıq ideyasının təbliği;
- gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;
- regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;
- informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;
- diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;
- dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;
- elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;
- ekologiya və ətraf mühitinin mühafizəsi;
- gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;
- uşaq və gənclərin fiziki və mənəvi inkişafı.

Bu proqram xarakterli sistemdə siyasi mənafe ilə şəxsi mövqe də vəhdət təşkil edərək birləşməlidir. Şəxsi mövqe bütün xalqın, ölkənin siyasi mənafe ilə üst-üstə düşəndə hakimiyyət münasibətlərinin məzmununa da faydalı təsir göstərə bilər.

Milli-mənəvi dəyərlərin düzgün istiqamətləndirməsi dövlətin və dövlətçiliyin sarsılmaz meyarıdır.

Türkiyənin "Zaman" qəzetinin 28 iyun 2002-ci il tarixli sayında Azərbaycan Prezidenti Heydər Əliyevin söylədiyi fikir türk mətbuatında böyük əsk-səda doğurmuşdur:

"Biz yalnız milli və mənəvi dəyərlərimizi dünyəvi dəyərlərlə birləşdirərək, Avropa yolu ilə getsək, daha

güclü olarıq. Əks təqdirdə köklərimizdən qopmuş olarıq".

Öz siyasi fəaliyyətinin intellektual və mənəvi əsasını milli mənəvi dəyərlərimizlə səciyyələndirən Heydər Əliyev siyasi ideologiyada emosional məzmun kəsb edən simvollardan ən başlıcasını – soy-kökümüzə bağlı olmağımızı qətiyyətlə bildirirdi.

Heydər Əliyevin siyasi ideologiyası Azərbaycan dövlətinin, onun bu gününün, sabahının, gələcək illərinin fundamental ictimai-siyasi mənafeləri bütün mahiyyəti ilə ifadə edən müddəaları siyasi mətbuatda geniş yayılırdı.

Əsasən demokratik qaynaqlar üzərində təşəkkül tapan milli ideologiyamız Azərbaycan dövlətinin siyasi siması, varlığı kimi inkişaf edərək insan, vicdan azadlığına, söz və sərbəst düşüncənin mətbuatda öz əksini tapmasına geniş şərait yaradır.

Azadlıq və demokratiya kimi ümumbəşəri dəyərlərdən bəhrələnən Azərbaycanın siyasi, müstəqil mətbuatında kütləvi ictimai-siyasi rəydə və kütləvi siyasi şüurda tez-tez siyasi varisliyin tarixi zərurəti mövzusu gündəmə gətirilirdi.

Bu, təsadüfi deyildi. Ona görə ki, təkamül qanununun tərkib hissəsi sayılan və ən vacib elementlərindən biri kimi qəbul edilən sosial amillərdən biri məhz varislik prinsipi və ənənəsidir. Bu, bəzən müxalifət mətbuatında birmənalı qarşılanmasa da, xalqın əksəriyyəti reallıqla bağlı olan varisliyi dəstəkləyir, ictimai-siyasi qanunauyğunluq kimi dəyərləndirir.

Siyasi təfəkkürün getdikcə genişlənən dəyərli stereotivləri varislik ideyasında gələcək dövrün siyasətçi terminini mətbuatda obyektiv və operativ surətdə vurğulamağı həyati zərurətə çevirirdi.





Rusiya Federasiyasında nəşr olunan nüfuzlu "Jurnalist" jurnalında (2000-ci il № 2) "Heydər Əliyev və onun komandası" adlı geniş məqalədə baş redaktor Gennadi Maltsev yazırdı:

"Böyük siyasətçi Heydər Əliyev də gənc elitanı yeni dövrün sınaqlarına hazırlamaq üçün çox geniş iş görür".

Müəllif daha sonra ən əvvəl yeni dövrün ciddi siyasi sınaqlarına hazır olan İlham Əliyevi Avropa təhsili almış, geniş diapozonlu dünyagörüşünə malik şəxsiyyət kimi səciyyələndirir. Müəllif yazır ki, İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxumuş, alimlik elmi dərəcəsi almış və müəllimlik etmiş, Türkiyədə işləmişdir.

İlham Əliyevin qlobal iqtisadi lahiyələrinin – Azərbaycan neftinin və qazının işlənilməsi, hasilatı, nəqli üzrə hazırlanan 19 müqavilənı yada salır və həmin müqavilələrin həyata uğurla vəsiqə almasını, ölkəyə 150 milyon dollar səmərə gətirdiyini vurğulayır.

Məqalədə mükəmməl diplomatik təhsilə malik İlham Əliyevin Azərbaycan xalqının gələcək xoş rifahı, ölkəmizin yüksək intellektual potensialı, millətimizin mənəvi demokratik xarakteri ilə bağlılığı da səmimi vurğulanır.

Hələ 1998-ci ildə prezident Heydər Əliyevlə söhbət edərkən "Komsomolskaya pravda" (19 avqust 1998-ci il) qəzetinin müxbiri Andrey Vaydenkonun sualı siyasi varislik məsələsini ilkin olaraq mətbuata gətirmişdi:

"Oğlunuzun adı başqadır, əvəzində familiyanız eynidir. Bəlkə onu varis edəsiniz..."

Heydər Əliyev bu təklifi qəbul etməsə də, İlham Əliyevin siyasi varisliyi haqqında olan təklifə cavab kimi mətbuatda ilk dəfə belə ifadə işlətmişdi:

"Mənim oğlum ağıllı-kamallı, yaxşı, bacarıqlı, xeyirxah insandır, lakin həyatda onun öz yolu var" (87).

İlham Əliyev artıq Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışarkən "Hüquqi dövlət, vətəndaş cəmiyyəti yaradılmasında, sosial yönümlü bazar iqtisadiyyatına keçirilməsində, demokratik institutların yaradılması sahəsindəki xidmətləri onun artıq Lider imicini formalaşdırmışdır".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə mətbuatda dərc olunan "Azərbaycan xalqına müraciət"ində deyilirdi:

"2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır.

...Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram" (11).

Milli Lider Heydər Əliyevin xalqımıza olan müraciətində daha sonra deyilirdi:

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri, sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Yüksək siyasi fəallıq şəraitində keçən seçkilərdə bir milyon səkkiz yüz altmış min üç yüz qırx altı nəfər İlham Əliyevin Prezidentliyinə səs vermişdir. Bu da ən çox səs toplusu sayılaraq 76,84 faizi təşkil etmişdir.

İlham Əliyevin prezidentliyi dövründə respublikamızda həyata keçirilən dərin iqtisadi və siyasi islahatlar demokratik, sivil cəmiyyət quruculuğuna qüdrətli təkan vermiş, eləcə də KİV-in, xüsusilə demokratik siyasi mətbuatın formalaşması və inkişafına böyük təsir göstərmişdir.





"Cənab İlham Əliyevin fəaliyyətinin ilk bir ili Azərbaycanın qarşıdakı illər ərzində əldə edə biləcəyi inkişafın ilk nailiyyət mərhələsi kimi dəyərləndirilir. Prezident populizmdən, sözçülükdən uzaq iş metodu ilə səlahiyyətlərini həyata keçirdi, xalqa və dövlətə içdiyi sədaqət andını real və konkret uğurları ilə doğrultdu".

Əsasən, İlham Əliyevin ictimai-siyasi dövlətçilik fəaliyyətində ən çox nəzərə çarpan milli birlik ideyasının mahiyyəti və məzmunu yüksək qiymətləndirilir. Onun xarici və daxili siyasətindəki yeni və uğurlu özünəməxsusluğa daha çox diqqət yetirilirdi.

Amerika Birləşmiş Ştatlarının "Theall Street Journal" qəzetində dərc olunmuş analitik yazıda Azərbaycana aid göstəricilər ölkəmizdə son illərdəki çoxşaxəli və hərtərəfli irəliləyişlərin yekununa obyektiv münasibətin ifadəsidir:

"Azərbaycanda insan hüquqları ilə bağlı göstəricilər 70 faizə, siyasi dözümlülük sahəsində 62, dini tolerantlıq sahəsində 98,6, mətbuat azadlığı sahəsində isə 75, siyasi senzura sahəsində 92, qanunvericilik sahəsində 78, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi sahəsində isə 90 faiz yüksəlmişdir".

Azərbaycanda demokratik, uğurlu inkişaf istiqaməti yeni mərhələyə yol açırdı. Prezident İlham Əliyev KİV nümayəndələri ilə müsahibələrində cəmiyyətimizdə baş verən demokratik proseslərin yeni mərhələyə keçəcəyini qətiyyətlə bildirmişdir.

Rusiya Federasiyasında, Moskvada çıxan məşhur "İzvestiya" qəzetinin müxbirinin "Bəs Azərbaycanda elə obyektiv səbəblər və şərait varmı ki, prosesləri məhdudlaşdıra biləcək daha sərt idarəçilik formalarına gəlib çıx-

sın?" sualına siyasi reklam xatirinə deyil, proqnozlaşdırmanın hər iki aspekti seçimi ilə, - həm mümkün, yəni arzu olunan perspektivliklə, həm də mövcud vəziyyətin nəzəri cəhətdən dərk edilməsi və idarəetmə prinsiplərinə sadiq olacağı ilə cavab vermişdir:

"Yox, bu, mümkün deyildir. Cəmiyyət buna yol verməz. İqtidar da yol verməz. İqtidar son on ildə nə etmişdirsə, bunların hamısı məhz demokratik dəyişikliklər yolu ilə irəliləyişin dönməz xarakter almasına yönəldilmişdir. Ona görə də demokratik quruculuq prosesini dayandırmaq mümkün deyildir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demokratik siyasi lider kimi vətəndaş cəmiyyətinin hüquqi ləyaqətinə və dövlətimizin Heydər Əliyev tərəfindən formalaşdırılan demokratik siyasi simasına, varlığına sədaqətini bir daha aydın şəkildə nümayiş etdirmişdir.

İlham Əliyev gənc siyasi lider kimi mövcud situasiyanın təhlilini və dəyərləndirilməsini nəzərdə tutaraq siyasi diaqnozun, ictimai məsələlərin uğurlu həllinə xidmət edən istiqamətlərin və ən başlıcası əlverişli və uğurlu proqramları dəqiqiəşdirib, icra üçün müəyyənləşdirilmiş, demokratiyanın məqsədlərinin reallaşdırılması üçün siyasi səfərbərliyi möhkəmləndirməyə çağırırdı: "Demokratiya quruculuğu prosesini dayandırmaq mümkün deyildir".

İlham Əliyevin həyatda zəngin praqmatik, siyasətdə isə müdriklik təcrübəsi Heydər Əliyevin Azərbaycanın tərəqqisinə xidmət edən milli-mənəvi, vətənpərvərlik, dövlətçilik ideyaları və azərbaycançılıq ideologiyası ilə əbədi bağlıdır.

Bütün mənalı həyatını Azərbaycana, xalqına həsr edən Heydər Əliyevin əbədiyaşar ideyaları bütün





dolğunluğu və geniş imkanları ilə İlham Əliyev tərəfindən inkişaf etdirilmiş, onun təminatçısı olduğu demokratiya və milli ideologiyamız Azərbaycanın vətəndaş cəmiyyətində bərqərar olmuşdur.

Müasir qloballaşma şəraitində demokratik prosesin əhəmiyyətli yönümü nümayəndəli demokratiyanın inkişafıdır, seçki hüququnun təkmilləşdirilməsidir. Bununla yanaşı, demokratiyanın təminatı sisteminin, siyasi, hüquqi, ideoloji təminatın yaradılmasıdır. Müasir demokratiyanın ən əhəmiyyətli amili və təbii ki, nəticəsi dünyanın çoxsaylı ölkələrində hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesidir, elmi ədəbiyyatda göstərildiyi kimi, demokratik prosesin tərkib hissəsi kimi aşağıdakı demokratik qaydaların təşəkkülüdür:

- Yüksək qanunverici orqanın (parlamentin) xalq tərəfindən seçilməsi;
- hakimiyyətin seçkili orqanlarının mövcudluğu;
- seçicilərin bərabər hüquqlu olmasını reallaşdırmaq;
- seçicilərin hamısının bərabər seçki hüququna malik olması;
- çoxluğun qərarının azlığın hüququnu məhdudlaşdırması;
- demokratiyanın daim və ciddi ictimai nəzarətlə tənzimlənməsi;
- cəmiyyətin bütün üzvlərinin, sosial təbəqə və qrupların mənafelərinin bütün səviyyələrdə uzlaşdırılması;
- sosial-siyasi münaqişələrə yol verməmək məqsədilə düzgün fəaliyyət mexanizminin hazırlanması və bunun reallaşdırılması.

Bütün bu demokratik qaydalar prosesi gənc demokratik Azərbaycan Respublikasında özünə məxsus səviyyədə və istiqamətlərdə formalaşır və inkişaf edir. Elə-

cə də demokratik mətbuatın şəffaf səviyyədə inkişafına imkan yaradır. Belə prosesdə KİV-in bütün əməkdaşlarının, onun dinləyici və oxucularının sosial normalara məqsədyönlü qovuşmasını həyati tələbata çevirir. Sağlam siyasi, hüquqi, əxlaqi, ideoloji və digər normalara dərindən yiyələnmədən demokratik dəyərlərlə bəhrələnmək imkan xaricində olardı. Qayda yaratmaq zorakılıqla və məcburetməklə, cəmiyyətin siyasi, ideoloji və psixoloji manipulyasiyası vasitəsilə də əldə edilə bilər, lakin belə olduqda o mədəniyyət-mənəviyyat ölçüsündən kənara çıxır və bu səviyyəli məcburetmənin zorakılıq mənbəyinə özünün psixoloji reaksiyası ilə cavab verir. Bu mənada mətbuatda və əlbəttə, bütövlükdə KİV-də manipülyasiya həqiqi demokratik düşüncə tərzindən uzaqlaşmağa təhrik edir. Manipulyasiya inamsızlığın artmasına, riyakarlığa və mənəviyyatsızlığa gətirib çıxarır ki, həmin halın özü də qarşılıqlı sosial fəaliyyətin pozulması ilə tamamlanır. Bu nöqteyi-nəzərdən münasibətlərin səmərəli, fəal tənzimlənməsi cəmiyyət üzvlərinin sabit və şüurlu əməkdaşlığını reallaşdıran normalar vasitəsilə təmin edilir.

Normaların funksiyası bununla səciyyələnir ki, xalis subyektiv motivlərin və psixoloji vəziyyətin təsirini necə artırsın və etibarlı, hamının dərk etdiyi davranışı təmin etsin.

Sosial normalar əslində, qaydaları qoruyan və sərvətləri saxlayandır. Bir sözlə, normalar insanların davranış qaydasıdır. Demokratik mətbuat davranış normaları ilə sərvətlərin müqayisəsinə və əlaqələndirilməsinə ciddi və məsuliyyətli mövqedən yanaşmalıdır.

Müasir dünyada təzahür edən demokratikləşmə təcrübəsinin mənimsənilməsi və düzgün mənalandırılması aşağıdakı cəhətlərə ciddi diqqət yetirilməsini tələb edir: Birincisi, demokratik cəmiyyət quruculuğuna qədəm qoyan





ölkələrdə ilk öncə vətəndaşların qanun qarşısında real bərabərliyi həyata keçirilməlidir. İkincisi, cəmiyyət və vətəndaşlar hüquqa, qanuna zidd hərəkətlərdən müdafiə olunmalıdır. Üçüncüsü, demokratiyanın formaları, demokratik təsisatlar və insanların birgəyaşayış normaları təkmilləşdirilməlidir. Dördüncüsü, formal elan edilən və real fəaliyyət göstərən ictimai münasibətlər, hüquq, idarəetmə uyğunlaşdırılmalıdır. Beşincisi, insanlarda bir-birinə hörmət, vətəndaşlıq ləyaqəti, idarəetmə təsisatlarına inam hissi formalaşdırılmalıdır. Altıncısı, müxtəlif ictimai qrupların, əhalinin müxtəlif təbəqələrinin, hakimiyyət təsisatlarının və dövlət orqanlarının imtiyazları ləğv edilməlidir. Yeddincisi, hər cür əhəmiyyətli daxili və xarici hadisələr, proseslər barədə ardıcıl, sistemli və obyektiv məlumatlandırma həyata keçirilməlidir. Eləcə də cəmiyyət mədəniyyət yaradıcılıq sahəsində məcburi qəyyumluqdan imtina etməlidir. Səkkizinci, vətəndaşların yerli və hakimiyyət orqanları ilə müntəzəm əlaqəsi həyata keçirilməlidir. Ümumiyyətlə, demokratiyanın inkişafı KİV-in, xüsusilə, mətbuatın azad inkişafı ilə ahəngdarlıq təşkil etməlidir.

«Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 31 iyul 2008-ci il tarixli sərəncamı ölkəmizin sürətli sosial-iqtisadi inkişafını, ictimai həyatın bütün sahələrinin yeniləşməsini, fikir, söz və mətbuat azadlığının, plüralizmin daha geniş təmin olunmasını ön plana çəkir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsinə və Azərbaycan Respublikasının dünya informasiya məkanına daxil olması və informasiya tələbatlarının dövlət tərəfindən ödənilməsinə xidmət edən bu uzunmüddətli Konsepsiya dövlət və cəmiyyət üçün əhəmiyyətli problemlərin uğurlu həllinə yönəldilmişdir. Söz

və mətbuat azadlığı sahəsində mühüm rol oynayacaq bu tarixi Konsepsiyanın yekun müddəaları bir daha sübut edir ki, sənədin reallaşması jurnalistikanın keyfiyyətcə yeni texnoloji səviyyəyə yüksəlməsinə, KİV-in xarici təcrübədən faydalanmasına səbəb olacaq və dövlət, cəmiyyət üçün xüsusi demokratik əhəmiyyət kəsb edəcəkdir.

Demokratik dövlətdə hakimiyyətin mənbəyi olan xalq öz rəyinə əsaslanaraq nümayəndələrini seçir, onlara hər hansı məsələni həll etmək hüququ verilir. Demokratiya şəraitində qanun nəinki vətəndaşları hakimiyyətin özbaşınalığından eləcə də hakimiyyəti vətəndaşlardan müdafiə edir.

Vətəndaşların hüquq və azadlıqları, siyasi, demokratik mətbuatın formalaşması baxımından siyasi mədəniyyətin liberal-demokratik tipi özünəməxsus əhəmiyyətə malikdir. Siyasi mədəniyyətin bu tipinin tərəfdarları hesab edirlər ki, qanun şəxsiyyət azadlığını, şəxsi həyatın, mülkiyyətin toxunulmazlığını, mənəvi azadlığı xüsusilə söz, mətbuat, yığıncaq azadlığını təmin etməlidir. Bir sözlə, cəmiyyətdə qanunlar, azadlıq və bərabərlik hökmranlıq etməlidir.

Siyasi mədəniyyətin liberal-demokratik tipinə meyil edənlər hesab edirlər ki, əsl demokratiya vətəndaşlarının siyasi proseslərdə iştirak etmək hüququndan, hakimiyyətin bütün səviyyələrində ümumi seçkilər əsasında hakimiyyətin dəyişilməsindən, plüralist demokratiyanın mövcudluğundan və sairədən ibarətdir.

Qeyd etmək lazımdır ki, transformasiya şəraitində Azərbaycanda demokratik mətbuatın səciyyəvi inkişaf xüsusiyyətlərindən biri, məhz siyasi mədəniyyətin liberal-demokratik tipinin təşəkkülüdür. Qərb ölkələrində olduğu kimi, cəmiyyətimizdə də liberal-siyasi mədəniyyətin tərəfdarları bildirirlər ki, dövlət qanunun və əxlaqın təminatının əsl mənbəyidir. Onlar belə bir inam təzahür etdirirlər ki, güclü dövlət olmadan cəmiyyətdə hakimiyyət səviyyə-





sində hərc-mərclik hökm sürər. Lakin bununla yanaşı, dövlətin təzyiq alətinə və şəxsiyyətin və mətbuatın hüquqlarının pozulması vasitəsinə çevrilə biləcəyini başa düşürlər. Liberal-demokratik siyasi mədəniyyətin subyektləri arasında fərdlə cəmiyyətin, cəmiyyətlə hökumətin nisbəti məsələsinə müxtəlif mövqedən yanaşma halları da müşahidə olunur. Bu reallığı kütləvi informasiya vasitələri açıq şəkildə nəzərə çatdırır.

Araşdırmalar, sosiaoloji tədqiqatlar təsdiqləyir ki, respublikamızın vətəndaşlarının əksəriyyəti demokratik mətbuatın mahiyyətini məhz demokratiya anlayışı nöqteyi nəzərdən dərk edirlər. Məsələn, başa düşürlər ki, real demokratiya xalq tərəfindən seçilən insanların hakimiyyətidir və eləcə də bildirirlər ki, "demokratiya" xalqın idarə etməsi deyildir. Alman sosioloqu Darendorfun sərrast ifadə etdiyi kimi, dünyada ümumiyyətlə, belə şey yoxdur. Apardığımız sorğuların subyektlərinin əksəriyyəti bildirir ki, demokratiya xalqın seçdiyi hökumətlir. Onlar demokratik siyasi mətbuatın mahiyyəti, məzmunu, məqsədi və vəzifələrini də məhz bu baxımdan qiymətləndirirlər.

Respublikamızda demokratik mətbuatın digər inkişaf xüsusiyyəti bundan ibarətdir ki, bir tərəfdən hakimiyyət strukturları ilə praqmatik münasibətləri diqqətdən yayındırmır, digər tərəfdən vətəndaşların sosial əhval-ruhiyyəsini, emosiyalarını, arzu və istəklərini ardıcıl, obyektiv və operativ şəkildə işıqlandırır, demokratik mətbuat "müəyyən dozada" yox, əhatəli, çoxcəhətli fəaliyyəti ilə mənalanır. Əlbəttə, bunlar həmçinin, ölkəmizdə mətbuatın hüquqi bazasının təkmilləşdirilməsi, qanunvericiliyimizin yaradıcı humanist təbiəti ilə vəhdət təşkil edir.

Hazırda genişlənən və dərinləşən informasiya inqilabının fərqləndirici cəhəti odur ki, birxətli məlumatlandırma prosesi məhdudlaşır və onu ikitərəfli dialoq xarakterli informasiya mübadiləsi əvəz edir. Bu cür yenilik ilk öncə

kabel televiziyasının həyata keçirilməsi ilə şərtlənir. Xatırlatmaq yerinə düşər ki, kabel televiziyası vasitəsilə ikitərəfli əlaqələr daha çox industrial cəhətdən inkişaf etmiş ölkələrdə möhkəm mövqelərə malikdir.

İkitərəfli əlaqə texnologiyasının köməyilə istehlakçı qəzet, jurnal oxumaq imkanı əldə edir, kitabxanadan videokitab mütaliə edə bilir. Yeni texniki vasitə və usullardan siyasi proseslərdə ictimai rəyi üzə çıxarmaq məqsədilə sorğu aparılır və sorğunun nəticələrindən siyasi mübahisələrdə, ümumi səsvermədə və digər məqsədlərlə səmərəli istifadə olunur. Vətəndaşların kütləvi şəkildə kompüterlərdən istifadə etmələri prosesində fərdi kompüterlərin sayının çoxalması insanların birbaşa informasiya əlaqələrinə imkan yaradır.

Kütləvi informasiya vasitələrində istifadə edilən yeni texnologiya cəmiyyətdə plüralizmin genişlənməsi, yerli mənafelərin ifadəsi və nümayəndəli demokratiyanın "iştirak etmə demokratiyası" ilə əvəz olunması üçün geniş imkanlar açır. Belə demokratik dəyişiklik demokratik təsisatlardan heç birinə zərər yetirmir. Maraqlıdır ki, siyasi ədəbiyyatda belə vəziyyəti mənalandırmaq məqsədilə "teledemokratiya" anlayışından istifadə edilir.

İndiki transformasiya şəraitində demokratik mətbuatın inkişaf xüsusiyyətlərindən biri də bundan ibarətdir ki, onun fəallaşdırılması bir tərəfdən cəmiyyət qarşısında duran vəzifələrin, ayrı-ayrı partiyaların və namizədlərin mövqelərinin aydınlaşdırılmasına imkan yaradır, digər tərəfdən isə cəmiyyət üzvlərinin sosial əhval-ruhiyyəsinin dəyişməsi və fəaliyyət yönümü nöqteyi-nəzərdən faydalı, perspektivli imkanları üzə çıxarır.





## NƏTİCƏ

Zəngin və qədim Azərbaycan tarixinin hərtərəfli öyrənilməsi, xüsusilə elmi-siyasi səviyyədə tədqiqi həmişə yüksək milli mənəvi əhəmiyyətə malik olmuşdur. Çoxəsrlik həmin tarixin bu və ya digər mərhələsinin elmi-nəzəri baxımdan araşdırılması fəal ictimai-siyasi aktuallıq kəsb edir. Məhz bu nöqteyi-nəzərdən XX əsrin ikinci yarısının Heydər Əliyevin siyasi fəaliyyəti ilə əlaqədar olan Azərbaycan tarixinin elmi araşdırma səviyyəsində nəzərdən keçirilməsi mühüm nəticələr əldə etməyə real imkanlar yaradır.

Ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli universal fəaliyyətinin bütün istiqamətlərinin izah olunması vacib və əhəmiyyətlidir. Lakin KİV-in, xüsusilə onun spesifik komponenti sayılan siyasi mətbuatın formalaşması və inkişafında ümummilli liderin rolunu siyasi elmi səpgisində açıqlamaq Heydər Əliyevin siyasi fəaliyyətinin səmərəli və uğurlu nəticələrini müəyyənləşdirməyə yardım göstərir.

Yeni Azərbaycanın ictimai-siyasi dövlətçiliyi dövründə ictimai həyatın bütün sferalarında olduğu kimi, onun siyasi mətbuatında da Heydər Əliyev mərhələsi başladı. Heydər Əliyevin mətbuata senzuranı aradan qaldırması siyasi mətbuatın demokratikləşməsinin qüdrətli amilinə çevrildi və beləliklə, demokratik siyasi təfəkkürün inkişafı üçün real və əlverişli şərait təmin olundu. Cəmiyyətimizdə həyata keçirilən demokratik dəyişikliklər, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna geniş yol açıldı.

Əlbəttə, ölkəmizdə siyasi mətbuatın təşəkkülü və inkişafını ilk milli mətbuatımızın yaranması zamanından

və prosesindən kənarda təsəvvür etmək olmaz. Azərbaycanın ictimai-siyasi həyatının ayrılmaz hissəsi olan ilk milli mətbuatımız ("Əkinçi" qəzeti) ilk demokratik siyasi qəzet olmaqla ölkədə baş verən ictimai-siyasi proseslərə nüfuz edir, həmin hadisələrin obyektiv mahiyyətini üzə çıxarırdı.

"Əkinçi" qəzetinin səhifələrində gələcək mətbuatımız üçün azad, açıq sözün, doğru və düzgün yazmağın təməli qoyulmuşdur. Azərbaycan mətbuatında demokratik düşüncə tərzinin ilk nümunələri məhz Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetində əksini tapmışdır, demokratik bədii-siyasi fikrin rüşeymləri onun fəaliyyəti ilə bağlıdır.

XX əsrdə Azərbaycan dilində nəşr edilən (1903-cü il Tiflisdə) ilk qəzet isə "Şərqi-Rus" adlanırdı. İctimai-siyasi, iqtisadi, elmi, eləcə də ədəbi-bədii məzmunu ilə səciyyələnən bu qəzetin Azərbaycanın ictimai-siyasi fikir tarixinin inkişafında əhəmiyyətli rolu və vətəndaşlıq mövqeyi tam kəskinliyi ilə nəzərə çarpır.

Eləcə də əsası 1906-cı il aprelin 7-də qoyulan ilk satirik "Molla Nəsrəddin" jurnalı Azərbaycanda siyasi mətbuatın təşəkkülü və sonrakı inkişafına ciddi təsir göstərmişdir. Jurnal xalqımızın milli siyasi şüurunun oyanması prosesində dərin və dəyərli rol oynamışdır.

XX əsrin əvvəllərində Azərbaycanda nəşr edilən dövri mətbuat milli oyanış və özünüdərketmə proseslərində çox mütərəqqi rolu ilə səciyyələnir. Azərbaycan Xalq Cümhuriyyətinin bütün siyasi və dövlət xadimlərinin lider kimi tanınıb formalaşmasında, onların siyasi fəaliyyətinin həyata keçirilməsində mətbuat geniş imkanlar açmışdır. Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzeti gündəlik ictimai ədəbi, iqtisadi milli mətbu orqan kimi uğurlu fəaliyyət göstərmişdir.





Milli mətbuatımızın formalaşması və inkişafında sovet dövrü mətbuatı da özünəməxsus əhəmiyyətli rol oynamışdır. Mətbuatı həmişə yüksək dəyərləndirən, milli-mənəvi sərvətlərimizin qorunması qayğısına qalan ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın sovet dövrü mətbuatını mənalandıraraq qeyd edirdi ki, "Xalq həyatının işıqlandırılmasında ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yol verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanları milli şüuru və özünüdərkin formalaşmasında böyük rol oynamışdır".

Milli şüur millətin, xalqın mənəvi varlığının və inkişafının mahiyyətini, səviyyəsini və xüsusiyyətlərini gerçəkləşdirir, eləcə də millət və xalqların cəmiyyətin müxtəlif sərvətlərinə münasibətini, onun tarixi inkişaf prosesini və həll edəcəyi məsələləri ehtiva edir. Milli şüurun zəminini milli özünüdərk şüuru başqa sözlə, milli mənlik şüuru təşkil edir. Milli mənlik şüurunun strukturunda bu və ya digər millətin mənsub olduğu milli mənəvi dəyərlərə dərk olunmuş münasibəti, mənəvi sərvətləri zənginləşdirməyə istiqamətlənən yaradıcılıq qabiliyyəti və səyləri, eləcə də milli mənafeyi reallaşdırmaq naminə sıx birləşməsi əhəmiyyətli yer tutur. Milli mənafe hər bir milləti təmsil edən insanların dildə, dini və əxlaqi adət-ənənələrdə ifadə olunan mədəniyyət ümumiliyi əsasında birləşməsini səciyyələndirir.

Milli özünüdərk milli dirçəlişi reallaşdıran amil kimi çıxış edir. Milli dirçəlişi, sadəcə olaraq, bu və ya digər millətin nümayəndələrinin ümumiyyətlə şüuru deyil, o məhz konkret şüurluluğu şərtləndirər. Şüurluluq şüurun daha fəal və daha təsirli tərəfidir. Şüurluluğa hər cür biliklər yox, yalnız dərk edilmiş və inama çevrilən biliklər aiddir. Bütün insanlar şüura malik olsalar da, milli prob-

lemlərin mahiyyətinə və həllinə hamı şüurlu münasibət bəsləmir.

Milli problemlərin həlli liderin, xüsusilə, siyasi liderin meydana çıxmasını tarixi zərurətə çevirir. Siyasi liderin mövcudluğuna duyulan ehtiyacın obyektivliyi bununla şərtlənir ki, cəmiyyət üzvlərinin, bütövlükdə millətin fəaliyyəti məhz təşkilatçılıqla, qarşıya qoyulan vəzifə və məqsədlərin uğurlu və rasional reallaşması ilə bağlıdır. Liderin təzahürünün və fəaliyyətinin tarixi zəruriliyi ondan irəli gəlir ki tarixi zərurətdən doğan ictimai inkişaf problemlərinin təxirəsalınmaz həllini təmin etsin.

Tarixi təcrübə və siyasi praktika təkzibolunmaz surətdə təsdiqləyir ki, ən görkəmli siyasi liderlər ictimai inkişafın böhranlı, dönüş məqamlarında meydana çıxırlar. Belə liderlər yaşayıb fəaliyyət göstərdikləri, rəhbərlik etdikləri cəmiyyəti mövcud çətinliklərdən azad olmağa yardım göstərən, siyasi və iqtisadi xarakterli tarixi-milli problemlərin təşəbbüsçüsü kimi çıxış edirlər. Heydər Əliyev məhz belə bir görkəmli siyasi liderdir.

XX əsrin görkəmli şəxsiyyətləri, böyük siyasətçiləri sırasında birincilərdən olan Heydər Əliyevin həyatı, ictimai-siyasi və dövlətçilik fəaliyyəti, həmçinin mətbuatla sıx bağlılıq kəsb etmişdir. Onun mətbuatımızın inkişafında isə xidməti Azərbaycan xalqının ikinci dəfə müstəqillik uğrunda mübarizə apardığı ilk illərdə daha aydın nəzərə çarpmışdır. Həmin dövrdə xalqı müstəqillik uğrunda mübarizəyə səslənməklə yanaşı, açıq söz, azad fikir, demokratik düşüncə tərzinin qızğın tərəfdarı kimi çıxış edirdi. Bu, Azərbaycan üçün milli dirçəliş, özünüdərketmə dövrünə təsadüf edirdi. Mətbuata verdiyi müsahibədə Heydər Əliyev hələ o zaman azərbaycançılıq mövqeyindən çıxış edərək bildirirdi ki, Azərbaycan xalqı ilk milli oyanış, milli dirçəliş, milli özünüdərketmə





dövründə gərək müstəqil, demokratik yolla inkişaf etsin. Milli dövlətçiliyin elmi konsepsiyasını işləyib hazırlayan ümummilli lider sivil dünya ölkələri sırasına qoşulmağın yeganə yolunu "başqa yolumuz yoxdur" – deyərək, demokratik proseslərin inkişafında görürdü. Heydər Əliyev müstəqil dövlət quruculuğu prosesində milli özünüdərk axtarışlarını sürətləndirməyi tövsiyə edir, bu istiqamətdə fəal siyasi mövqedən çıxış edərək, xilas yolunu yalnız birləşməkdə, istiqlaliyyətdə və müstəqillikdə görürdü. Onun formalaşdırdığı milli birlik konsepsiyası milli dirçəlişin və milli özünüdərkin meyarı kimi səciyyələnir.

Yadda saxlamaq lazımdır ki, millətin, xalqın dönüş mərhələlərində özünüdərkə istiqamətlənən düşüncə tərzində mətbuatın rolu və xidməti böyükdür. Heydər Əliyevin fəaliyyəti bütün səviyyələrdə və sferalarda, eləcə də mətbuatda milli dirçəlişin və milli özünüdərkin reallaşmasına yönəlmişdi. Onun milli dirçəliş naminə fəaliyyəti və çağırışları öz siyasi nəticələri ilə aydın nəzərə çarpırdı.

Sosial fenomen olmaq etibarilə siyasət kütləvi informasiya vasitələrinə daha ciddi ehtiyac duyur. KİV anlayışının mənəvi tərəfi özündə ilk öncə mətbuatı – qəzeti, jurnalı, məlumat vərəqələrini və s. əks etdirir. Əlbəttə, mətbuat anlayışı təbii olaraq, həm də siyasi mətbuatı özündə təcəssüm etdirir. Mətbuat cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarına əhəmiyyətli təsir göstərir. Cəmiyyətin siyasi təsisatlarının mətbuata tələbatı hər şeydən əvvəl onun funksiyalarından irəli gəlir. Siyasi mətbuatda ifadə olunan informasiya zəminində vətəndaşlarda cəmiyyətin siyasi sisteminin, xüsusilə, onun başlıca komponenti olan dövlətin, siyasi partiyaların, ictimai təşkilatların vəzifələri və fəaliyyəti haqqında, həyat fəaliyyətinin iqtisadi, mədəni, əxlaqi, dini sferaları

barədə geniş, çoxcəhətli təsəvvürlərin formalaşmasına diqqət yetirilməlidir.

Həyat həqiqətlərinin, eləcə də siyasi həqiqətlərin və reallıqların obyektiv, elmi cəhətdən düzgün əsaslandırılması, sübuta yetirilməsi ictimai-milli inkişafımızın zəruri, həyati tələbidir. Bunların reallaşdırılması üçün Yeni Azərbaycanın siyasi mətbuatında Heydər Əliyev mərhələsi dönüş nöqtəsidir. Siyasi mətbuatımızın bu dövrünün səciyyəvi cəhəti bundan ibarətdir ki, dövlətçiliyimizin təkmilləşdirilməsi üçün hərtərəfli və əlverişli imkanlar yaratmışdır. Siyasi mətbuatın səmərəli, azad, ardıcıl və müstəqil fəaliyyətində dövlət müstəqilliyimizin elan edilməsi müəyyənedici rol oynadı.

Söz azadlığının, siyasi plüralizmin təşəkkül tapdığı zamanda Bakıda "Naxçıvan" həftəlik qəzetinin ilk nömrəsi (10 oktyabr 1992-ci il) çapdan çıxdı. Bu münasibətlə Heydər Əliyev təbrik məktubunda bildirirdi ki, indi Naxçıvanın çox şeyə ehtiyacı var, ancaq bu gün naxçıvanlılar xeyirxah sözə, həqiqəti və ancaq həqiqəti deyən jurnalist sözünə möhtacdır.

Belə bir əhəmiyyətli məqamı diqqətdən yayındırmaq olmaz ki, Yeni Azərbaycan Partiyasının yaradılması prinsip etibarilə yeni, siyasi mətbuatda Heydər Əliyev mərhələsinin başlanması kimi dəyərləndirilməlidir.

Heydər Əliyevin Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sferalarında xüsusilə, xilaskarlıq sahəsindəki əsl siyasi liderliyi artıq qabarıq surətdə nəzərə çarpırdı. Müstəqilliyimizin ilk dövrlərində siyasi mətbuata dərindən nüfuz edən Heydər Əliyev fikirləri, artıq bəhrəsini verməkdə idi. Heydər Əliyevin fəaliyyəti sayəsində mətbuatda siyasi çeviklik artırdı. Azadlıq, müstəqillik uğrunda onun demokratik fikir və düşüncələri, ideyaları bütün siyasi mətbuatımızı xeyli fəallaşdırdı.





Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə müstəqil Azərbaycan dövlətçiliyini yenidən qurdu, yaratdı və möhkəmləndirdi. Eləcə də siyasi mətbuatın inkişafında əvvəllər mövcud olan bütün maneələri aradan qaldırdı, hakimiyyətin dördüncü qolunun siyasətlə, hakimiyyət strukturları ilə məqsədyönlü və səmərəli əlaqəsini təmin etdi. Ümummilli lider belə bir mövqedən çıxış edirdi ki, mətbuat sosial gerçəkliyin özünəməxsus komponentidir və sosial reallığı bütün mürəkkəbliyi və ziddiyyətləri ilə birlikdə bu və ya digər formada təkrar istehsal edir.

Heydər Əliyevin siyasi lider kimi fəaliyyət göstərdiyi dövrdə dünyanın böyük dövlətlərinin rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlərin nəticələrinə həsr edilən mətbuat konfransları, KİV və xüsusilə mətbuata verdiyi müsahibələr və belə səciyyəli digər tədbirlər hakimiyyətin kütləvi informasiya vasitələri ilə qarşılıqlı səmərəli əlaqələrinin yaranmasına xidmət etmişdir.

Heydər Əliyev cəmiyyətdə demokratik dəyərlərin və prinsiplərin bərqərar olmasını qüdrətli müstəqil dövlətin formalaşmasının meyarlarından biri hesab edirdi. Vətəndaş cəmiyyətinin inkişaf dərəcəsini demokratiyanın inkişaf səviyyəsi ilə əlaqələndirərək bildirirdi ki, vətəndaş cəmiyyətinin təşəkkülü cəmiyyətin mütərəqqi qüvvələrinin uzunmüddətli mübarizəsində əldə olunmuş məqsədyönlü dəyişikliklərin nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyev qətiyyətlə və inamla qeyd edirdi ki, dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşunu formalaşdırmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək mənim Prezidentlik fəaliyyətimdə əsas istiqamətlər olacaqdır. Hakimiyyətin möhzkəmləndiril-

məsi ilə bağlı dövlət başçısı nəzərə çatdırırdı ki, müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət, hakimiyyət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurmaqdır.

Dövlətin müstəqilliyinin təmin olunması sosial iqtisadi və hərbi siyasi xarakterli xeyli amillərdən asılıdır. Əlbəttə, dövlət hakimiyyəti daxili ziddiyyətlərlə yanaşı, xarici ziddiyyətləri, başqa sözlə digər ölkələrlə münasibətlərdə təzahür edən münaqişəli vəziyyəti aradan qaldırmağa, meydana çıxan dövlətlərarası ziddiyyətləri tənzimləməyə səy göstərməlidir. Bununla bağlı dövlət hakimiyyətini həyata keçirən siyasi elita eləcə də müdafiə məsələlərini həll etməli, diplomatik münasibətlərin həyata keçirilməsini reallaşdırmalıdır. Heydər Əliyevin dövlətçilik fəaliyyəti məhz bu nöqteyi-nəzərdən milli-tarixi hadisədir.

Müstəqilliyini yenicə elan etmiş ölkə üçün ilk öncə cəmiyyətin əsl birliyinin təminatçısı kimi səciyyələnən ideologiyaya malik olmaq çox dəyərlidir. Əgər cəmiyyətin vahid şəkildə birləşdirilməsi ideyası mövcud deyilsə, belə halda hər hansı dövlət özünün inteqrasiya funksiyasını itirir. Nəticə etibarilə bu və ya digər dövlət cəmiyyətin ümumi mənafeyini ifadə etmək, müxtəlif sosial qrupların və təbəqələrin maraqlarını uzlaşdırmaq imkanından məhrum olur. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə məhz belə milli mənsubiyyət mövqeyindən çıxış etmişdir. İdeoloji meyar bugünkü Azərbaycan üçün olduqca zəruridir. Vahid milli ideologiyanın mövcudluğu vətənimizdə bütün xalqın dövlət ətrafında sıx birləşməsinin, milli birliyin, əsl vətəndaşlığın və vətənpərvərliyin qərarlaşmasını reallaşdırmış olardı. Bu mənada, ümummilli lider respublikamızda insanlarda, ilk öncə isə





gənclərdə əsl vətənpərvərliyin formalaşdırılmasına xüsusi diqqət yetirirdi. Çünki qüdrətli müstəqil Azərbaycan dövlətinin varlığı məhz bu amillə bağlıdır. Heydər Əliyev KİV-in, xüsusilə, siyasi mətbuatın dövlətçilik mövqeyindən çıxış etməsini dəfələrlə yüksək qiymətləndirmişdir.

Demokratik prosesi əsaslandıran və inkişaf etdirən çoxsaylı amillər mövcuddur. Həmin amillər sırasında siyasi təsisatlar, xüsusilə, siyasi partiyalar və mətbuat özünəməxsus əhəmiyyətli yer tutur. Demokratiya aşağı səviyyədə (qeyri-hakimiyyət səviyyəsində) məhz siyasi partiyalar sistemi vasitəsilə müəyyənləşir, özü də iki variantda: tək və çoxpartiyalılıqla. Çoxpartiyalılıq sistemi mahiyyət etibarilə daha demokratik hesab olunur. Siyasi partiyalar müasir demokratik cəmiyyətin siyasi sisteminin ayrılmaz komponentidir.

Partiyaların funksiyalarını ümumi formada səciyyələndirərkən tədqiqatçılar bir qayda olaraq həmin təsisatın mahiyyətindən çıxış edirlər. Bu ümumi funksiyalar sırasında xüsusi yer tutanı siyasi sistemdə müxtəlif sosial qrupların mənafeyinin müdafiə olunmasının ümumiləşmiş formada təzahürü və ifadəsi sayılır. Ümumi funksiyalar sistemində məlumatların kommunikativ kanallarının strukturunun təşkili də əhəmiyyətli yer tutur. Siyasi partiyaların ümumi funksiyalarının məcmununda eləcə də idarə edən elitanın formalaşması spesifik məna kəsb edir. Bu sadaladığımız ümumi funksiyalar Yeni Azərbaycan Partiyasının fəaliyyətində ardıcıl, rasional və optimal aspektdə aydın nəzərə çarpır. YAP-ın fəaliyyətinin bütün istiqamətləri respublikamızda demokratik proseslərin təşəkkülü və inkişafına faydalı təsir göstərir. Əlbəttə, demokratiyanın formalaşmasında hakim partiyalarla yanaşı, iqtidaryönlü və digər partiyalar da özünəməxsus rol oynayırlar. Partiyalar müxtəlif səviyyələrdə

və dərəcələrdə demokratik siyasi proseslərdə əməli surətdə iştirak etməklə siyasi sistemə uyğunlaşmağa zəmin yaradır, siyasi sistemin daha da təkmilləşdirilməsinə ciddi təsir göstərir və ya əksinə, onun sarsılması məqsədilə ictimai rəyin müvafiq istiqamətini formalaşdırır.

Respublikamızda təzahür edən demokratik inkişaf prosesi müstəqil Azərbaycan dövlətinin bugünki və gələcək siyasi simasına, varlığına xidmət etməlidir.

Yeni Azərbaycan Partiyasını çox yüksək qiymətləndirən Heydər Əliyev digər siyasi partiyaların və siyasi qəzetlərin də siyasi aləmə qədəm qoymalarını dəyərləndirirdi. Azərbaycan cəmiyyətində demokratiya getdikcə daha da dərinləşməyə başladıqca vətəndaşlara geniş hüquqlar verilir, ictimai-siyasi təşkilat və hərəkətlar çoxalırdı.

"Əsrin müqaviləsi"nin reallaşması, onun iqtisadi və siyasi uğurları Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin o zamankı vitse-prezidenti İlham Əliyevin dəyərli fəaliyyəti ilə birbaşa bağlı idi. Güclü diplomatik fəaliyyəti ilə Azərbaycan dövlətinin və xalqının taleyüklü bu probleminin həllini başa çatdıran İlham Əliyev dövlətimizin iqtisadi qüdrətinin möhkəmləndirilməsinin fundamental təməlini qoydu.

Siyasi mətbuatın təsirli fəaliyyəti sayəsində Azərbaycanda demokratik təfəkkürün dərinləşməsi prosesi getdikcə güclənir, xalqın həyatının və tarixinin keçmişi, bu günü və sabahı haqqında reallıqlar mətbuat səhifələrində obyektiv zəmində və demokratik əsaslarla mənalandırılır. Demokratikləşmə təfəkkürə nüfuz etdikcə xalqın dünəni, bu günü və gələcəyi barədə həqiqətləri, proqnozları əhatəli yaymaq cəhdləri gücləndikcə cəmiyyətin sosial-iqtisadi, siyasi-əxlaqi, demokratik-hüquqi vəzifələrinin reallaşdırılması imkanları daha da artır.





Alimlər müxtəlif siyasi kommunikasiya növləri içərisində kütləvi siyasi kommunikasiyaya daha çox diqqət yetirirlər. Bu, onunla əsaslanır ki, müasir dünyada kütləvi kommunikasiya və ya informasiya daha çox siyasət sisteminin və onun yaradıcılarının elementinə çevrilir.

Bu mənada, Heydər Əliyev siyasətin ən görkəmli yaradıcısıdır. Heç də təsadüfi deyil ki, respublikamızda plüralist siyasi informasiyanın aşkarlıq şəraitində obyektiv, elmi cəhətdən əsaslandırılmış səviyyədə təzahürü və inkişaf etdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Plüralist siyasi informasiya elə bir mexanizmdir ki, onun vasitəsilə hakimiyyət reallaşır.

Plüralist siyasi informasiya siyasi liderlərin və təsisatların fəaliyyətinə münasibətlə bağlı ictimai rəyin formalaşmasına əhəmiyyətli töhfə bəxş edir. Kütləvi siyasi informasiyaya xas olan tənqidi oriyentasiya partiyaların fəaliyyətində və həyata keçirilən siyasətdə təzahür edən neqativ hallarla əlaqədardır.

Yüksək mənəviyyata, şəffaflığa əsaslanan plüralist siyasi informasiya sosial həyatın yeniləşməsinə və demokratik prinsiplərə əsaslanan sağlam mühitin qərarlaşmasına ciddi təsir göstərir. Memarı Heydər Əliyev olan Azərbaycan Respublikasının ilk Konstitusiyası plüralist siyasi informasiyanın təzahürü və zənginləşməsinə təkan verdi və siyasi plüralizm ictimai-siyasi həyatımızın bütün sferalarına nüfuz etdi. Konstitusiyada təsbit olunan maddələrin əksəriyyətinin insan hüquqları və azadlıqlarına aid edilməsi əsl siyasi plüralizmin təşəkkülünə, aşkarlığın genişlənməsinə, bir sözlə, sivil müasir cəmiyyətin qərarlaşmasına real zəmin yaratdı. Demokratik cəmiyyət üçün səciyyəvi olan və demokratik təsisatların, siyasi plüralizmin formalaşmasına zəmin yaradan hüquqi-demokratik Konstitusiyamız azad söz, sərbəst düşüncə və siyasi mətbuatın müstəqil fəaliyyəti üçün hər cür əlverişli

şərait təmin etmişdir.

Kütləvi informasiya vasitələrində plüralist demokratiyanın təşəkkülünü və inkişafını zənginləşdirən bir sıra mənbəələr də vardır. Lakin bu prosesin reallaşmasına KİV-in funksional mahiyyəti daha əhəmiyyətli təsir göstərir. Başqa sözlə, KİV-in məzmununu əks etdirən funksiyaları plüralist demokratiyanın təşəkkülü və formalaşmasında mühüm rol oynayır. Heç də təsadüfi deyil ki, Heydər Əliyev Prezidentliyi dövründə demokratik KİV-in formalaşmasına xüsusi əhəmiyyət verirdi. Bununla bağlı, o bir tərəfdən kütləvi informasiya vasitələrində plüralist demokratiyanın təzahürünü reallığımızın zəruri amili kimi dəyərləndirir, digər tərəfdən onların funksiyalarının reallaşmasına, həyat həqiqətlərini düzgün, obyektiv, əks etdirmələrinə xüsusi diqqət yetirirdi. KİV-in funksiyaları bütövlükdə və qarşılıqlı əlaqə prosesinhdə onun demokratikləşməsinə ciddi təsir göstərir. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövr ərzində KİV-in demokratik dəyərlər və prinsiplər əsasında fəaliyyət göstərməsini, həmin təbliğat vasitələrinin siyasi plüralizmin formalaşmasına səmərəli və məqsədyönlü təsirini ən vacib məsələlərdən biri sayırdı. Bu məsələ onun keçirdiyi mətbuat konfranslarında, jurnalistlərlə söhbətində başlıca diqqət mərkəzində dururdu.

Keçid dövründə baş verən sosial, iqtisadi və siyasi dəyişikliklər demokratik mətbuatın bu və ya digər səviyyədə və dərəcədə inkişafına səbəb olur. Keçid dövründə təzahür edən proseslərin təhlili və dərk edilməsi həmin prosesdə iştirak edənlərin şüurluluğu və sosial mövqeyi ilə bilavasitə bağlıdır. Təbii ki, bu prosesdə vətəndaşların mətbuatla, kommunikasiya vasitələri ilə qarşılıqlı münasibəti və əlaqəsi müəyyən problemlərin yaranmasını sürətləndirir.





Ölkəmizdə müstəqil demokratik və hüquqi dövlət quruculuğunun uğurlu prosesi ictimai həyatın bütün sahələrində olduğu kimi, mətbuatda və informasiya məkanında da demokratik prinsiplərin formalaşmasına real zəmin yaradır. İnformasiya şəraitində siyasi mətbuat cəmiyyətdə gedən siyasi proseslərin, aşkarlığın, fikir, söz azadlığının və eləcə də sosial mühitin zənginləşməsinin xüsusi ünsürü kimi nəzərə çarpır, özü də Azərbaycan xalqının milli maraqları çərçivəsində.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası, B: Qanun, 2002, 127 S.
2. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin nitqi. "Xalq" qəzeti, 2 dekabr 1997-ci il
3. Anar. Şəxsiyyətin mıqyası, "Heydər Əliyevin işığı-ipək yolu", Bakı, «Qismət» nəşr., 2001, 248 s.
4. "Ana torpaq" qəzeti, 8 fevral 1989-cu il, № 13
5. "Aktual" qəzeti, 10 may 1999-cu il, № 98
6. "Azərbaycan" qəzeti, 11 oktyabr 1993-cü il
7. "Azərbaycan" qəzeti, 6 yanvar 1919-cu il
8. "Azərbaycan" qəzeti, 14 oktyabr 1995-ci il
9. "Azərbaycan" qəzeti, 13 noyabr 1995-ci il
10. "Azərbaycan" qəzeti, 22 iyul 2000-ci il
11. "Azərbaycan" qəzeti, 1 oktyabr 2003-cü il
12. "Azərbaycan" qəzeti, 16 iyun 1993-cü il
13. "Aktual" qəzeti, 10 may 1999-cu il
14. "Azərbaycan" qəzeti, 28 mart 2000-ci il
15. "Azərbaycan" qəzeti, 7 avqust 1998-ci il
16. Aydın Mirzəzadə. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri, B.: Azərnəşr, 2001, 268 S.
17. Əliyev H.Ə. Müstəqillik yolları. Seçilmiş fikirlər. B.: Azərnəşr, 1997, 135 S.
18. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. B.: Azərnəşr, 2003, 452 s.
19. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, B.: Azərnəşr, 2004, 520 s.







20. Əliyev İ.H. İqtibaslar və təhlil. B.: Azərbaycan, 2006, 328 s.
21. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. B.: «Qismət» nəşr., 2003, 245 s.
22. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. B.: Azərbaycan, 2005, 216 S.
23. Əfəndiyev M. Siyasi elmin əsasları. B.: Siyasət, 2008, 635 S.
24. Əhmədli C.T. Cəmiyyət-siyasət-ideologiya. Siyasi biliklərin əsasları. B.: "İnam" plüralizm məktəbi, 1997, 192 S.
25. Əməli əzlaq. Məhəmmərza Məhdəvi Kəni. B.: Üfüqe Fərda, 2002, 328s.
26. "Əkinçi" qəzeti, 1876-cı il №7
27. "Əkinçi" qəzeti, 10 fevral 1877-ci il
28. Heydər Əliyev və mətbuat. B.: Nurlar, I cild, 2003, 640 s.
29. Heydər Əliyev və mətbuat. B.: Nurlar, III cild, 2003, 640 s.
30. Heydər Əliyev və mətbuat. B.: Nurlar, II cild, 2003, 640 s.
31. Heydər Əliyev və mətbuat. B.: Nurlar, IV cild, 2003, 640 s.
32. Həsən Bəy Zərdabi. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1960, 289 s.
33. "Həyat" qəzeti, 12 fevral 1991-ci il
34. "Həyat" qəzeti, 8 mart 1991-ci il
35. "Həyat" qəzeti, 23 oktyabr 1991-ci il
36. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B.: Hərbi nəşriyyat 1999, 230 s.
37. Həbiboğlu V. "Əliyev və milli mentalitet fəlsəfəsi". Dirçəliş XXI əsr" jurnalı. B.: 2003, № 68.
38. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. B.:

Azərbaycan Universiteti, 2004, 319 s.
39. "XXI əsr Dirçəliş" jurnalı. B: 2005, № 84-85, 430 s.
40. "XXI əsr Dirçəliş" jurnalı. B.: 2006, № 104-105, 424 s.
41. "XXI əsr Dirçəliş" jurnalı. B.: 1999, №19, 296 s.
42. "Kaspi" qəzeti, 1887, № 125
43. "Kaspi" qəzeti, 1899-cu il, № 269
44. "Kommunist" qəzeti, 18 yanvar 1980-ci il, № 15
45. "Kommunist" qəzeti, 30 noyabr 1990-cı il
46. "Kommunist" qəzeti, 27 mart 1991-ci il
47. Qəndilov S. İdarəçilik Akademiyası Heydər Əliyev dühasının bəhrəsidir. B.: Çaşıoğlu, 2005, 444 s.
48. Qətiyyətin təntənəsi (sənədli xronika). B.: "Səhər" qəzetinin nəşri, 1995, 848 s.
49. Qızıl ulduzdan hilala doğru. Ankara: Ürfan Ürkün, 1994, 128 s.
50. Mehdiyev R. Tarixi irs və müstəqillik fəlsəfəsi. B.: AMEA nəşriyyatı. 2001, 288 s.
51. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. B.: 2003, Yeni Nəşrlər Evi, 248 s.
52. "Naxçıvan" qəzeti, 10 dekabr 1992-ci il
53. "Naxçıvan" qəzeti, 25 noyabr 1992-ci il
54. Prezident Heydər Əliyevin jurnalistika dərsi. B.: Azərnəşr. 2001, 152 s.
55. Rüstəmov Y. Türk fikir tarixi haqqında mülahizələr. B.: Çaşıoğlu", 2005, 140 s.
56. "Respublika" qəzeti, 25 avqust 1990-cı il
57. Russo J.J. Qəribə adamın müdrikliyi. B.: Azərnəşr, 1965, 426 s.
58. "Respublika" qəzeti, 15 iyun 2000-ci il.
59. "Respublika" qəzeti, 23 mart 2002-ci il.
60. "Şərq qapısı" qəzeti, 26 iyul 1990-cı il
61. "Səs" qəzeti, 15 mart 1991-ci il
62. "Səhər" qəzeti, 30 oktyabr 1992-ci il





63. "Səs" qəzeti, 16 oktyabr 1992-ci il
64. "Səs" qəzeti, 24 oktyabr 1992-ci il
65. Saniteban L.S. Siyasət elminin əsasları. B.: 1994, səh.118
66. "Sovet Gürcüstanı" qəzeti, 13 fevral 1989-cu il
67. "Sovet Gürcüstanı" qəzeti, 25 fevral 1989-cu il
68. "Vətən" qəzeti, 20 iyun 1990-cı il
69. Veber M. "Siyasət nüfuz və peşədir". B.: İrşad, 1993, 288 s.
70. YAP Proqramı. İlk variantda. 14 s.
71. YAP nizamnaməsi. İlk variantda, III bölmə, 83 s.
72. "Yeni Azərbaycan" qəzeti, 22 noyabr 1994-cü il
73. "Yeni Azərbaycan" qəzeti, 20-21 dekabr 1999-cu il
74. "Yeni Müsavat" qəzeti, 29 iyul 2000-ci il
75. Yaqublu N. Müsavat partiyasının tarixi. B.: 1997, 84 s.
76. Yeni Azərbaycan Partiyasının I qurultayı. Stenoqrafik hesabat, B.: 2000, 214 s.
77. YAP II ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsinin materialları. B.: 1995
78. Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranıb. "Səs" qəzeti, B.: 28 dekabr 1996
79. Yeni, müstəqil Azərbaycan uğrunda, B.: 1993, 21 s.
80. Zeynalov N. Azərbaycan mətbuat tarixi. B.: ADU-nun nəşri, 1974, 43 s.

**Rus dilində**

81. Абдульгасан А. Демократия. Наличная и должная. Б.: Адилоглы, 2005, 179 с.
82. Блондель Ж. Политическое лидерство Путь в всеобъемлищему анализу. М.: Политиздам, 1992, 318 с.
83. Вокруг Кремля. М.: Новости, 199, 312 С.
84. Гаджиев К.С. Политическая наука. М.: Логос, 1995, 436 С.

85. Зеркин Д.Н. Основы политологии. Ростов-на-Дону, 1997, 412 с.
86. Кин Дж. Демократия и гражданское общества. М.: Прогрес, 2000, 406 с.
87. "Комсомольская правда". 19 август 1998 г.
88. "Известия" 25 июля 1990 г.
89. "Известия" 19 мая 2001 г.
90. Левин Т.Д. Свобода воли. Современный взгляд// Вопросы философии, 2000, № 6, с. 18-25
91. Лизан А.А. Политическая жизнь общества: Вопросы теории, Киев, 1989, 271 С.
92. "Московские новости" 2 мая 1993 г.
93. "Независимая газета" 15 декабря 1992 г.
94. Политология. Редак. Т.Полунина, М.: Аками, 1996, 276 с.
95. Политология: Энциклопедический словарь. М.: ком, цн-та, 1993, 432 с.
96. Пугачев В.П., Соловьев А.И. Введение в политологию. М.: Аспект пресс, 1995, 320 с.
97. Политология. Под. Ред. М.Н.Марченко. М.: Зеркало, 1997, 383 с.
98. "Правда" 27 апреля 1989 г.
99. Современные международные отношения и мировая политика. Под ред. Торкунова А.В. М.: Просвещение, 2004, 990 с.
100. "Итро Россия". 5 июля, 1994 г.
102. Уледов А.К. Духовное обновление общества. М.: Прогресс, 1990, 334 с.
103. Фавр Л.Ц. Эволюция слова и гриппы людей. М.: Наука, 1991, 172 с.
104. Филатов В.П. Научное познание и мир человека. М.: Мысль, 1989, 289 с.





105. Франц А.В. Мораль и власть. Философские науки. 1992. № 3, с. 8-13
106. Хрусталов М.А. Теория политики и политический анализ. М.: Политиздат, 1991, 211 с.
107. Цыганков П.А. Международные отношения. М.: Новая школа. 1996, 320 с.
108. Шилобоу М.И. Политика и право. М.: Наука, 1995, 218 с.
109. Шестопол Е.Б. Личность и политика. М.: Мысль, 1989, 321 с.
110. Эндрейн Ч.Ф. Сравнительный анализ политических систем. Т. Юнита-Дана, 2000, 320 с.
111. Этносоциология. М.: Наука, 1998, 342 с.
112. Ядов В.А. Стратегия социологического исследования, М.: Омега-А. 2007, 567 с.
113. Яковлев Е.Р. Искусство и мировые религии. М.: Мысль, 1985, 349 с.
114. Яковцев Ю.В. Циклы. Кризисы. Прогнозы. М.: Логос, 1999, 242 с.
115. Язинцев А. Новые политические мира. М.: Молодая гвардия, 1990, 220 с.

**Fransız dilində**

116. Pierre Albert. «La presse» p.69-71. İmprimerie des Presses Universiteta iresde France. 1996.
117. Jan Pierr Esguewari «Television et Democraie». Paris, 1999.

### İngilis dilində

118. Piter F.Drucker. Managing the Non-Profit Organization. Allrights reserved. Printed in the United States of America. 1990.
119. Robert A.Dahl. On Democracu. Yale University press, New Haven, London. Copurigth 1998 by Yale University.



## MÜNDƏRİCAT

Giriş ....................................................................4

I Fəsil. **Milli mətbuat və Heydər Əliyev siyasi məktəbi**....................................................15
§ Azərbaycanda ilk milli siyasi mətbuatın təşəkkülü və inkişafı...............................................15
§ Milli dirçəlişdə və milli özünüdərkdə Heydər Əliyevin rolu.............................................. 32
§ Yeni Azərbaycanın siyasi mətbuatında Heydər Əliyev mərhələsi ........................................51

II Fəsil. **Azərbaycanın müstəqilliyi milli-siyasi dəyərlərin başlıca meyarıdır**........................67
§ Müasir, demokratik dövlətin yaradılmasında Heydər Əliyevin rolu........................................... 67
§ Demokratik milli dəyərlərin təşəkkülünə və inkişafına siyasi partiyaların, siyasi mətbuatın təsiri...................76

III Fəsil. **KİV-də siyasi plüralizmin təşəkkülündə siyasi liderin rolu**.......................................................97

§ Plüralist siyasi informasiyanın reallaşmasına Heydər Əliyevin töhfəsi......................................... 97

§ Heydər Əliyev və KİV-də plüralist demokratiyanın formalaşması.....................................................115

§ Keçid dövründə Azərbaycanda demokratik mətbuatın inkişafı xüsusiyyətləri.............................................128

Nəticə.....................................................................153

İstifadə edilmiş ədəbiyyat .....................................166





**Tahir MƏMMƏDOV**

# DEMOKRATİYA – MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASİ SİMASIDIR

**«ДЕМОКРАТИЯ – ПОЛИТИЧЕСКИЙ ОБЛИК СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВО»**

**(НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ)**

**«ELM və TƏHSİL» nəşriyyat-poliqrafiya MMC-nin direktoru:**

**professor Nadir MƏMMƏDLİ**

*Kompüter operatoru:* **Gülnarə Quliyeva**
*Bədii redaktor:* **Rəhilə Allahverdiyeva**
*Kompüter dizayneri:* **Tural Əhmədov**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**
*Səhifələyici:* **Aygün Əsgərova**
*Montajçı:* **Rasim Hacıyev**
*Operator çapçı:* **Elşad Hacıyev**

*Yığılmağa verilmiş 11.12.2008.*
*Çapa imzalanmış 08.01.2009.*
*Şərti çap vərəqi 11. Sifariş № 03.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab «Elm və Təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.*
***E-mail: elm_ve_tehsil@box.az***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*